**Təhsil müəssisəsinin adı**

**Təhsil müəssisəsinin əmtəə nişanı**

**"ADA" Universiteti**

---

**(Təhsil müəssisəsinin adı)**

**İnstitusional akkreditasiyası üzrə özünütəhlilin nəticələri haqqında**

# HESABAT

**Hesabat "ADA" Universiteti**

**(təhsil müəssisəsinin adı)**

**Elmi Şurasının**

**(09/06/2023) tarixli iclasının qərarı ilə**

**təsdiq edilmişdir.**

**Tarix** **06/07/2023**

**İmza** ____________

**(müəssisənin rəhbəri)**

**M.Y** ____________

AZƏRBAYCAN RESPUBLİKASI REPUBLIC OF AZERBAIJAN UNİVERSİTET • UNIVERSITY ADA

**2023-cü il**

**Mündəricat**

**I. Giriş**

1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar
2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki
3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyətinə dair

**II. Təhsil müəssisəsinin özünütəhlili**

4. Özünütəhlil qiymətləndirilməsinin icmalı
5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri
6. Təşkilati komissiyanın gəldiyi nəticələr və qeydlər

**III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər**

# I. Giriş

## 1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | "ADA" Universiteti |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | 22.09.2017 tarixli, 296 nömrəli əmr ilə dövlət ali təhsil müəssisəsi kimi 5 il müddətinə verilmişdir |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | - |
| Təhsil müəssisəsinin rəhbəri | Dr. Hafiz Paşayev |
| Fakültələrin sayı | 5 |
| Kafedraların sayı | 23 |
| Bakalavriat pilləsi üzrə ixtisasların sayı | 12 |
| Magistratura pilləsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | 12 |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (elm sahələri üzrə) sayı | - |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | **Təhsilalan sayı**<br>Bakalavriat: 2769<br>Magistratura: 449<br>Doktorantura: -<br>Elmlər doktorluğu proqramı üzrə: - |
| Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | 115 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 114 |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | www.ada.edu.az<br>info@ada.edu.az<br>(+99412) 437 32 35 |
| Müəssisənin hüquqi ünvanı | Əhmədbəy Ağaoğlu 61, AZ 1008 |

| | |
|---|---|
| Müəssisənin faktiki ünvanı | Əhmədbəy Ağaoğlu 61, AZ 1008 |

**2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki**

Təşkilat komissiyasının tərkibi

| № | Pedaqoji adı (elmi dərəcə), ad, soyad | Vəzifə | E-mail ünvanı |
|---|---|---|---|
| 1 | Dr. Elkin Nurməmmədov | Prorektor, Akademik İşlər | enurmammadov@ada.edu.az |
| 2 | Dr. Vəfa Kazdal | Prorektor, Strategiya və İnkişaf | vkazdal@ada.edu.az |
| 3 | Dr. Fariz İsmayılzadə | Prorektor, Beynəlxalq Münasibətlər, Hökumətlə Əlaqələr və Tələbələrlə İş | fismailzade@ada.edu.az |
| 4 | Rövşanə Səmədova | Əməliyyatlar üzrə Baş Rəhbər | rsamadova@ada.edu.az |
| 5 | Günay Ziyadova | Dekan, Tələbə Qəbulu və Qeydiyyatının İdarəedilməsi | gziyadova@ada.edu.az |
| 6 | Dr. Maurus Roller | Direktor, Keyfiyyət Təminatı və Akkreditasiya | mroller@ada.edu.az |
| 7 | Gülnur İsparova | Baş Rəhbər, Təşkilat və İnsan Resursları | gisparova@ada.edu.az |

Təşkilat komissiyasının fəaliyyət qrafiki

| № | Komissiyanın üzvü | Fəaliyyət |
|---|---|---|
| 1 | Dr. Elkin Nurməmmədov | Universitetdə pedaqoji və elmi mükəmməlliyi təşviq etmək və bakalavr və magistr proqramlarında innovasiyaların tətbiqi istiqamətində strateji liderliyi təmin etmək;<br>Universitetdə akademik sahədə böyümə, bütün akademik fəaliyyətlərin, eləcə də təşəbbüslərin və fakültə işlərinin həyata keçirilməsi və qiymətləndirilməsinə rəhbərlik etmək;<br>Akademik qayda və prosedurаlarının tərtib olunmasına və icra olunmasına rəhbərlik etmək;<br>Professor-müəllim heyətinin vəzifə dəyişiklikləri ilə bağlı qərarlarda Rektora tövsiyələr hazırlamaq;<br>Universitet daxilində keyfiyyət təminatı və təkmilləşdirmə siyasəti və proseslərinin işlənib hazırlanmasına və icra olunmasına nəzarət etmək;<br>Yerli və beynəlxalq akkreditasiya fəaliyyətlərinə nail olmaq və müvafiq olaraq dəstək göstərilməsinə rəhbərlik etmək;<br>Tədqiqat və təqaüdlərin həyata keçirilməsinə nəzarəti təmin etmək və kampusda yüksək səviyyəli elmi məhsuldarlığın təşviqi üçün tədbirlər görmək;<br>İllik akademik büdcənin ayrılmasına nəzarəti təmin etmək;<br>Rektor tərəfindən tapşırılan digər aidiyyəti işləri yerinə yetirmək. |
| 2 | Dr. Vəfa Kazdal | Universitetin strateji planının onun missiyası və məqsədləri ilə, eləcə də həm ölkədə, həm də dünyada dəyişən iqtisadi və sosial şəraitə uyğunlaşdırılmasına rəhbərlik etmək; |

| | | |
|---|---|---|
| | | Universitetin innovasiya və mükəmməllik sahəsində ön sıralarda qalmasını təmin edərək, ali təhsildə yaranan tendensiyaları, çağırışları və imkanları müəyyən etmək üçün tədqiqat və təhlilin aparılmasına nəzarət etmək;<br>Daxili və xarici maraqlı tərəflərlə sıx əməkdaşlıq edərək, geniş şaxəli planlaşdırma, inklüziv, həmçinin səmərəli proseslər və effektiv qiymətləndirmə çərçivələr vasitəsilə universitetin strategiyasının hazırlanması və icrasına təkan vermək;<br>Strategiyada qoyulmuş məqsədlərə çatmaq üçün resursların səmərəli bölüşdürülməsini təmin etmək məqsədilə universitetin əsas struktur bölmələri ilə əməkdaşlıq etmək;<br>Universitetin regional mərkəzləri, sənaye yönümlü mərkəzlər/proqramlar daxil olmaqla, universitet miqyasında strateji təşəbbüslərin qiymətləndirilməsi, planlaşdırılması və həyata keçirilməsinə nəzarət etmək;<br>İnstitusional inkişaf təşəbbüsləri haqqında qərar qəbul etmək, habelə təhsil sahəsində ən yaxşı təcrübələr, ali təhsil sektorunda sənaye tendensiyaları haqqında müvafiq məlumatların toplanması, təhlili və təsvirinə cavabdeh olan institusional tədqiqat qrupunu yaratmaq və rəhbərlik etmək;<br>Humanitar və Texniki Elmləri Kollecinə nəzarət etmək və universitetin regionallaşma strategiyasının bir hissəsi olaraq bu təhsil modelinin yeni regional kampuslarda yayılmasına nəzarət etmək;<br>ADA Qazax Mərkəzinə, onun mövcud iş sahəsinə, eləcə də təhsilin inkişaf planlarına nəzarət etmək;<br>Marketinq və Kommunikasiyalar şöbəsi ilə əməkdaşlıq edərək, strateji gündəliyi və prioritetləri təbliğ etmək üçün məzmunun hazırlanmasını təmin etmək;<br>Strategiyanın formalaşması, həyata keçirilməsi, eləcə də yeni strateji təşəbbüslər və onların gedişatı ilə bağlı daxili və xarici maraqlı tərəflərlə ardıcıl və sistemli əlaqəni təmin etmək. |

| | | |
|---|---|---|
| 3 | Dr. Fariz İsmayılzadə | Dövlət qurumları, xarici təşkilatlar və diplomatik nümayəndəliklərlə universitet əlaqələrinə nəzarət etmək;<br>Təşviq və əməkdaşlıq məqsədləri üçün Universitetin beynəlxalq əlaqələrini qurmaq və idarə etmək;<br>Tələbə xidmətləri və Məzun işləri şöbəsinin işçilərinə nəzarət etmək;<br>Tələbə, işçi heyəti və professor-müəllim heyətinin mübadiləsini müntəzəm olaraq həyata keçirmək üçün xarici universitetlərlə tərəfdaşlıq əlaqələrini qurmaq;<br>Həm yerli, həm də çoxmillətli özəl sektor şirkətləri ilə müntəzəm əlaqələr saxlamaq;<br>"ADA" Universitetinin tələbələrinin akademik dərslərindən kənarda dinamik və canlı tələbə həyatı ilə məşğul olmalarını təmin etmək üçün Tələbə xidmətləri komandasına rəhbərlik etmək;<br>Müxtəlif dərsdənkənar fəaliyyətlərin, o cümlədən dil dərsləri, tələbə klubları və müxtəlif tələbələrlə bağlı fəaliyyətin təşkilini təmin etmək;<br>"ADA" Universitetinin məzunları ilə davamlı əlaqələr saxlamaq və onları Universitetin həyatına cəlb etmək, həmçinin gələcək inkişafına və bir-biri ilə əlaqə saxlamasına töhfə vermək;<br>Tələbələrin karyera rəhbərliyinə kömək etmək üçün nəzərdə tutulmuş proqramlarını, təlimlərini və fəaliyyətlərini mütəmadi olaraq nəzərdən keçirmək üçün Karyera Xidmətlərinin fəaliyyətinə nəzarət etmək və onlara rəhbərlik etmək;<br>"ADA" Universitetinin tələbələrini yerli təşkilatlar, şirkətlər, xarici nümayəndəliklər və digər beynəlxalq təşkilatlar arasında tanıtmaq, onlar üçün müxtəlif karyera və təcrübə imkanları yaratmaq;<br>Universitetin missiyasını yerinə yetirmək üçün hər kəsin fəaliyyət göstərməsini təmin etmək üçün nəzarətdə olan |

| | | |
|---|---|---|
| 4 | | bütün bölmə və şöbələrə strategiya hazırlamaq və müvafiq göstərişlər vermək;<br>Gələcək potensial inkişaf sahələrini proqnozlaşdırmaq və nail olmaq üçün zəruri strateji məqsədləri layihələndirmək;<br>Şöbələrin illik büdcələrini formalaşdırmaq və idarə etmək, resursların müvafiq şəkildə bölüşdürülməsini təmin etmək;<br>Tabeliyində olan işçilərə karyera yüksəlişinə kömək etmək üçün davamlı olaraq istiqamət vermək;<br>İşçilərin illik qiymətləndirilməsini və onların peşəkar inkişaf planlarını təqdim etmək;<br>Universitetin bütün şöbələri ilə əlaqə saxlamaq və lazımi dəstəyi təmin etmək və işi uyğunlaşdırmaq üçün akademik işlərlə sıx əlaqədə işləmək;<br>Rektor tərəfindən tapşırılan digər aidiyyatı işləri yerinə yetirmək. |
| 4 | Rövşanə Səmədova | Universitetin inzibati şöbələrinin işinə nəzarət etmək və onların idarə edilməsinə məsul olmaq;<br>Resurslardan səmərəli istifadəni təmin etmək məqsədilə Universitetdə malların idarəedilməsinə və təchizat işinin aparılmasına nəzarət etmək;<br>İnsan resursları üzrə strategiyanın idarəedilməsi və bununla bağlı layihələrin həyata keçirilməsinə məsul olmaq;<br>Təşkilati vizyonun və əməliyyat strategiyasının idarəedilməsi, işə qəbul ehtiyaclarının qarşılanması üçün rəhbərlər ilə əməkdaşlıq etmək;<br>Qayda, prosedur, sistem və büdcənin idarəedilməsini, əlaqələndirilməsini, hazırlanmasını və həyata keçirilməsini nəzarətdə saxlamaq;<br>Birbaşa rəhbər tərəfindən tapşırılan digər aidiyyatı işləri yerinə yetirmək |

| | | |
|---|---|---|
| 5 | Dr. Maurus Roller | Akkreditasiya, beynəlxalq reytinq və keyfiyyət təminatının universitet miqyasında idarə edilməsinə köməklik göstərmək;<br>Bu layihələrin icrasına rəhbərlik etmək və nəzarət etmək və mütəmadi olaraq Akademik işlər üzrə prorektora hesabat vermək;<br>Sənədlərin, strukturların, proseslərin davamlı şəkildə qiymətləndirmək və təklif olunan təkmilləşdirmələrin həyata keçirilməsinə nəzarət etmək (və onların təkmilləşdirilməsini təklif etmək);<br>Universitetdə akademik hesabatlara nəzarət etmək;<br>Akkreditasiya prosesini və gedişatını təmin etmək və universitetin akkreditasiya üçün təklifini təşviq etmək üçün müvafiq akkreditasiya agentlikləri ilə görüşmək;<br>İnstitusional akkreditasiya proseslərinin tamamlanmasını asanlaşdırmaq üçün Universitet və müvafiq qurumlar arasında əlaqə və əməkdaşlığı təşkil etmək və ona nəzarət etmək;<br>Universitet daxili akkreditasiya layihələrini və proseslərini dəstəkləmək;<br>Keyfiyyət təminatı və akkreditasiya proseslərini, eləcə də Universitetin beynəlxalq reytinq istiqaməti üzrə tələb olunan müvafiq resursları müəyyən etmək;<br>Keyfiyyət təminatı və akkreditasiya üzrə daxili və xarici maraqlı tərəflər üçün təlimlər və seminarlar təşkil etmək;<br>Keyfiyyət təminatı, akkreditasiya və reytinqlərlə bağlı bütün faylları və qeydləri saxlamaq (və onların saxlanmasına nəzarət etmək);<br>Birbaşa rəhbər tərəfindən tapşırılan digər aidiyyəti işləri yerinə yetirmək. |
| 6 | Günay Ziyadova | Tələbə qəbulu və məzun prosesinin təkmilləşdirilməsində dəstək olmaq; |

| | | |
|---|---|---|
| | | Tələbə və sənəd qəbulu prosesini, tələbələrin qeydiyyatının aparılması və məlumatlarının saxlanılmasını təmin etmək və bu prosesi təkmilləşdirmək üçün innovasiyalardan və texnoloji resurslardan istifadə etmək;<br>Qeydiyyat prosesinin idarəedilməsi üçün strateji planın hazırlanmasında və yenilənməsində fakültə dekanları və prorektorlarla əməkdaşlıq etmək;<br>Universitetin bütün tələbələrinin qeydiyyat prosesini planlaşdırmaq və həyata keçirmək;<br>Planlaşdırma və proqramın idarə edilməsi üçün tələbələrin qeydiyyat, demoqrafik və digər statistik məlumatlarından istifadə etmək və bununla bağlı aidiyyatı işçilərlə əməkdaşlıq etmək;<br>Proqramın uğurla həyata keçirilməsinə kömək etmək məqsədilə Universitetin digər əlaqəli şöbələr ilə əməkdaşlıq etmək;<br>Universitet kataloqunun yaradılmasını nəzarətdə saxlamaq;<br>Ali təhsildəki qanunlar və yeniliklər, praktikada tətbiq olunan metodlar, tendensiyalar haqqında məlumatlı olmaq;<br>İllik hesabatların hazırlanması, işçilərin illik qiymətləndirilməsi, proqramın təkmilləşdirilməsinə nəzarət etmək;<br>Universitetin strateji planına uyğun olaraq işləri idarə etmək;<br>Tədris planı ilə bağlı yaradılan komitələr, dekan və müəllimlərlə birlikdə yeni proqramın həyata keçirilməsində iştirak etmək, Universitet kataloqunu, akademik təqvim və cədvəli nəzarətdə saxlamaq, yenilənmiş tədris planının Banner tələbə informasiya sisteminə işlənilməsini təmin etmək;<br>Qayda və prosedurların effektivliyini təmin etmək və onlarda baş verən dəyişiklikləri nəzarətdə saxlamaq;<br>Universitetin daxili qaydalarının dövlətin qanunlarına uyğun olmasını təmin etmək; |

| | | |
|---|---|---|
| | | Akademik qayda və prosedurlar ilə bağlı yaradılan komitənin fəaliyyətini nəzarətdə saxlamaq;<br>İcra edilən işin keyfiyyətinin artırılması məqsədilə işçiləri motivasiya etmək, onlar üçün təlim və inkişaf imkanları yaratmaq;<br>İşçinin iş fəaliyyətini qiymətləndirməklə yanaşı, şöbənin effektivliyini müəyyən edən metodlar hazırlamaq və həyata keçirmək;<br>Akademik və tələbə qeydlərinin saxlanılması və silinməsi ilə bağlı prosedurun yaradılmasında iştirak etmək;<br>Dövlət qanunvericiliyi, beynəlxalq və yerli tendensiyalar, praktikada istifadə edilən ən yaxşı metodlar haqqında məlumatlı olmaq;<br>Universitetin marketinq və kommunikasiya planlarının hazırlanmasına və həyata keçirilməsinə rəhbərlik etmək;<br>Universitetin brendinq və kommunikasiya vasitələrinin əsas istiqamətlərini müəyyən etmək;<br>Universitetin brendinq vasitələrinin, sosial media hesablarının, dizayn və təşviqatlarının təkmilləşdirilməsi üçün davamlı olaraq təlimat vermək;<br>Birbaşa rəhbər tərəfindən tapşırılan digər aidiyyatı işləri yerinə yetirmək. |
| 7 | Gülnur İsparova | İstedadların cəlb olunması və idarə etmə, öyrənmə və inkişaf, işçilərin məşğuliyyəti, kompensasiya və müavinətlər daxil olmaqla Təşkilat və insan resurslarının inkişafı şöbəsinin dinamik və effektiv rəhbərliyini və gündəlik işlərinə rəhbərlik etməni təmin etmək;<br>İnsan Resurslarının siyasəti, təcrübə, prosedur və digər sənədləri hazırlamaq və həyata keçirmək;<br>İşçilərin təlim və inkişaf proqramlarını planlaşdırmaq və rəhbərlik etmək; |

| | | |
|---|---|---|
| | | Universitet rəhbərliyinə qlobal işə qəbul tendensiyaları, İR ilə əlaqəli həmçinin texnoloji inkişaflar barədə strateji məsləhət vermək;<br>Mübahisələrdə vasitəçilik və insan resursları siyasətinin necə həyata keçiriləcəyi barədə birbaşa rəhbərlərə tövsiyə vermək daxil olmaqla işəgötürən-işçi münasibətlərini yaxşılaşdırmaq;<br>Rəhbər idarəçilərə tətbiq olunan siyasət və qaydalar barədə məsləhət vermək, supervayzerlərə təlim keçmək və Universitetin insan resursları siyasətini tətbiq etməklə İR siyasətinin və hökumət qaydalarının Universitet daxilində ardıcıl və müvafiq tətbiqini təmin etmək;<br>İnsan Resurslarının əsas fəaliyyət göstəricilərinin yerinə yetirilməsini təmin etmək və Universitetin əsas fəaliyyət göstəriciləri çərçivəsini dəstəkləmək;<br>Strateji hədəflərinin yerinə yetirilməsini dəstəkləyən struktur ölçmə meyarlarını qurmaq;<br>Təlimlərin keçirilməsini təmin etmək və təlim ehtiyaclarını və peşə inkişaf təkliflərini müəyyənləşdirmək həmçinin təşviq qərarlarını, illik əmək haqqı artımlarını, işdən çıxarılmaları, varis planlaşdırma və digər işçilərin fəaliyyətlərini məlumatlandırmaq üçün heyətin inkişafı vasitəsi kimi Qiymətləndirmə və İnkişaf planının istifadə edilməsini təşviq etmək;<br>Bonus və mükafatlandırma prosedurlarını yaratmaq;<br>Maaş və əmək haqqı strukturunu və ödəniş siyasətlərini yaratmaq həmçinin bonuslar və artımlar daxil olmaqla dəyişən əmək haqqı sistemlərinə nəzarət etmək;<br>Birbaşa rəhbər tərəfindən tapşırılan digər aidiyyatı işləri yerinə yetirmək. |

## 3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyəti

**Qeyd:** Təhsil müəssisəsinin əvvəlki akkreditasiya qiymətləndirilməsi nəticələrinə dair ümumi məlumat və Yekun Hesabatda Komissiyanın verdiyi tövsiyələrin ümumi icrasına və çatışmazlıqların aradan qaldırılması vəziyyətinə dair mövcud vəziyyət əks olunur.

“ADA” Universiteti əvvəlki qiymətləndirmə nəticəsində müvəffəqiyyətlə akkreditasiya prosesindən keçmiş və Komissiya tərəfindən verilən tövsiyələri son beş il ərzində icra etmişdir. Tövsiyyələr və icra vəziyyətinə dair qısa icmal aşağıda təqdim edilir:

**Tövsiyə 1:** Strateji planın yekunlaşdırılması və fəaliyyət planının hazırlanması, Universitetdə strateji qərarların bu sənədlər əsasında aparılmalıdır.
**Fəaliyyət:** Strateji inkişaf planının hazırlanması yekunlaşdırılmışdır. “ADA 2025”: 10-illik strateji plan sənədi hazırlanmışdır. Strateji inkişaf planı 9 əsas strateji məqsədi əhatə edir: Tədris, Tələbələr, Professor-müəllim heyəti və tədqiqat, İnzibati heyət, Universitetin beynəlmiləlləşdirilməsi, Brendinq, Elm və İnnovasiya parkı, İdarəetmə, Resursların səfərbər edilməsi. Nəzərdə tutulan fəaliyyət planı strateji plan ilə paralel hazırlanaraq sənədin tərkib hissəsi kimi təqdim edilmişdir.

**Tövsiyə 2:** Universitetin gələcək inkişafının təmin edilməsi məqsədi ilə fəaliyyətinin Azərbaycan Respublikasının Təhsil Qanununa və müvafiq hüquqi-normativ aktlarına, o cümlədən Azərbaycan Respublikası Nazirlər Kabinetinin “Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında” qərarına (24.11.2010 (215 nömrəli qərar)); Ali Təhsil müəssisələrinin Nümunəvi Nizamnaməsi; Azərbaycan Respublikası təhsil nazirinin “Ali təhsil müəssisələrinin inşaat, maddi-texniki təchizat, kadr potensialı və strukturuna qoyulan minimum normalar” haqqında əmrinə (04.04.1997); Azərbaycan Respublikası təhsil nazirinin “Ali təhsil müəssisələrində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması qaydaları” haqqında əmrinə (09.03.2011 (400 nömrəli əmr)); Universitetin Nizamnaməsinə və digər normativ-hüquqi sənədlərə uyğun təşkilinə daha çox diqqətin yetirilməlidir.
**Fəaliyyət:** Dərs yükünün bölüşdürülməsi normaları qanunvericiliyə əsaslanır və Müəllim Nizamnaməsi (Faculty Handbook) sənədində əks olunmuşdur. Belə ki, akademik il ərzində baş müəllim (Assistant Professor) üçün standart tədris yükü hər biri 6 kreditdən (ECTS) az olmayan altı, dosent və professorlar (Assoociate and Full Professors) üçün isə beş fənn təşkil edir. Müəllimlərin (instructors) dərs yükü isə akademik il ərzində 6 kreditdən az olmayan səkkiz fənn təşkil edir.

Bakalavr təhsilinin ilk ilində keçirilən akademik məqsədlər üçün ingilis dili proqramı üzrə dərs yükü 525-540 saat təşkil edir.

Dekanların seçim prosesi Universitetin daxili qaydaları əsasında aparılır. Seçim prosesinin Universitetin siyasəti ilə müəyyən edilmiş qaydada həyata keçirilməsini Akademik İşlər üzrə Prorektor təmin edir. Müsahibə mərhələsinə dəvət edilən namizədlərin tərcümeyi-halı müvafiq Fakültə (School) ictimaiyyətinə öncədən təqdim olunur. Namizədlər həmçinin strateji baxışlarını universitet ictimaiyyətinə təqdim edir və suallara cavab verir. Daha sonra prorektorlarla müsahibələr keçirilir. Bu mərhələni müvəffəqiyyətlə başa vuran namizəd Rektorla müsahibəyə dəvət olunur və uğurlu olduğu halda Rektorun əmri ilə vəzifəyə təyin edilir. Dekan müavini isə hər bir fakültənin professor-müəllim heyəti ilə məsləhətləşmələr aparıldıqdan sonra Akademik İşlər üzrə Prorektorun təsdiqi ilə Dekan tərəfindən təyin olunur.

**Tövsiyə 3:** Universitetin əldə etdiyi uğurların digər yerli universitetlər üçün multiplikator effekti verməsi məqsədi ilə tədbirlər, təkliflər və layihələrlə çıxış etməlidir.

**Fəaliyyət:** Bu məqsədlə ADA Universiteti bir neçə layihə həyata keçirib. Bunların sırasında Təhsil Fakültəsi tərəfindən "Azərbaycanda tədqiqat mədəniyyətinin təşviq olunması" seminarını, ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Təhsil Konfransını, SABAH qrupları müəllimləri üçün keçirilən təlimləri göstərmək olar. Azərbaycan təhsil sisteminə böyük töhfə verəcək digər bir layihə isə ADA Universitetinin Qazax Mərkəzinin yaradılması və "Bir müəllimin manifesti" layihəsinin təsis olunmasıdır. Belə ki, iki semestrdən ibarət olan ixtisasartırma proqramı əyani və onlayn formatda modullar halında ADA Qazax Mərkəzi, ADA Universiteti və ADA Universitetinin Vaşinqton Mərkəzində keçirilir. Həmin proqram çərçivəsində ölkəmizin müxtəlif regionlarından seçilən orta məktəb direktor və müəllimləri Azərbaycan və ABŞ-da yerli və əcnəbi mütəxəssislər tərəfindən keçirilən təlimlərdə iştirak edir, ABŞ-ın müxtəlif təhsil müəssisələrini ziyarət edib təcrübə toplamaq imkanını əldə edir.

Bunlardan əlavə, Banner və Blackboard elektron platformalarının ADA Universitetində müvəffəqiyyətlə tətbiq edilməsindən sonra, sözügedən platformaların digər universitetlərdə də istifadə olunması istiqamətində işlər aparılmışdır. Hal-hazırda Bakı Dövlət Universitetində bu proses icra mərhələsindədir. Həmçinin ADA Universiteti müxtəlif beynəlxalq və milli Olimpiadaların və yarışların təşkilini həyata keçirir. Belə ki, 2019-cu ildə İnformasiya Texnologiyaları sahəsi üzrə Dünya Olimpiadası, ənənəvi olaraq keçirilən ingilis dili üzrə olimpiadaları nümunə kimi göstərmək olar. ADA Universitetində həmçinin ictimaiyyətə və digər universitet nümayəndələrinə açıq olan beynəlxalq konfranslar, dəyirmi masalar, xarici ekspertlər tərəfindən keçirilən mühazirələri də qeyd etmək məqsədə müvafiq olar. Azərbaycan ali təhsil sistemindəki çağırışları müzakirə etmək üçün yeni təsis edilmiş Təhsil Dialoqları layihəsini nümunə kimi göstərmək olar.

**Tövsiyə 4:** Universitetdə sənədlərin ingilis dilində hazırlanması universitetin tədris dilinin ingilis dili olması ilə izah edildi. Lakin Universitetin Azərbaycan Respublikasında yerləşdiyini və Azərbaycan Respublikasının qanunları ilə fəaliyyət göstərdiyini, eləcə də Universitet Nizamnaməsinin 5.4.-cü bəndini nəzərdə tutaraq sənədlərin və tədris hər iki dildə (azərbaycan və ingilis) aparılmalıdır.
**Fəaliyyət:** Akademik sənədləşmə ingilis dilində aparılsa da, qurumlar arası sənədləşmə, habelə tələbələrin müvafiq sənədləri (qəbul, akademik məzuniyyət və s.) universitetin qaydalarını tənzimləyən əməliyyatlar, həmçinin insan resursları üzrə sənədləşmə azərbaycan dilində aparılır. Tədrisə gəldikdə isə, ADA Universiteti tərəfindən magistr dərəcəsi üzrə üç proqram azərbaycan dilində təqdim olunur (Təhsil üzrə Menecment, Təlim və Tədrisin Təşkili və Metodikası, Dövlət İdarəetməsi). Bundan əlavə Hüquq üzrə bakalavr proqramının kurrikulumunda yerli qanunvericiliyi əks etdirən fənlər də azərbaycan dilində tədris olunur.
Universitetdə sənədləşmə Azərbaycan Respublikasının qanunvericiliyi tərəfindən tənzimlənir. Belə ki, qurumlar arası yazışmalar, rəsmi məktublar, əmrlər və bənzər sənədlər azərbaycan dilində icra olunur.

**Tövsiyə 5:** Universitet daxilində istər idarəetmədə, istərsə də sənədləşmə işində sistemlilik təmin edilməlidir.
**Fəaliyyət:** Universitet daxilində sistemliliyin təmin edilməsi məqsədilə Banner və Blackboard platformalarının icrasına başlanılmışdır. Belə ki, həm akademik, həm inzibati fəaliyyəti idarəedilməsi sistemləşdirilmiş və rəqəmsallaşdırılmışdır. Məsələn, daxili satınalma dövriyyəsi, kadrların idarəedilməsi, həmçinin tələbə qeydiyyatı sistemi (tələbələrin şəxsi məlumatları, dərslərə qeydiyyatı, transkriptlər kimi sənədlər və əməliyyatlar) həmin platforma vasitəsilə həyata keçirilir. 2020-2022-ci illər ərzində Akademik Keyfiyyətin Təminatı üzrə sənəd tərtib edilmiş və hal-hazırda icra mərhələsindədir. Aşağıda göstərilən istiqamətlər həmin sənəd vasitəsilə tənzimlənir: Akademik Proqram, Tədris, Öyrənmə və Qiymətləndirmə, Tədqiqat, Tələbələr, Müəllimlər, İnzibati işçilər, Bərabərlik və şəffaflıq siyasəti. Akkreditasiyadan sonra Akademik İşlər Departamenti nəzdində Keyfiyyətin Təminatı şöbəsi yaradılmışdır. Bu şöbə ilk növbədə akademik sahədə keyfiyyətin təminatı, nüfuzlu beynəlxalq və yerli institusional və proqram akkreditasiyalarına nail olmaq məqsədilə görüləcək işlərin təşkili və kurasiyası üzrə effektiv idarəetmə və sistemliliyin təmin edilməsi məqsədlərini daşıyır.

**Tövsiyə 6:** Universitetin internet səhifəsində məlumatların ingilis dilində olduğunu nəzərə alaraq Azərbaycanda yerləşən potensial hədəf qrupunun məlumata əlçatanlığının artırılması məqsədi ilə internet səhifənin azərbaycan dilində də hazırlanmalıdır.

**Fəaliyyət:** ADA Universitetində təhsil əsasən ingilis dilində aparıldığına görə vebsayt ingilis dilində tərtib edilib. Lakin Universitetin sosial şəbəkələrdəki rəsmi hesablarında əsasən ingilis, həmçinin azərbaycan dilində paylaşımlar təqdim olunur. Bundan əlavə ADA Universiteti nəzdində yaradılmış ADA Məktəbinin qəbul qaydaları haqqında məlumatlar rəsmi vebsaytda həm ingilis həm də azərbaycan dilində öz əksini tapmışdır. Azərbaycan dilində tədris olunan magistr proqramları ilə bağlı paylaşımlar azərbaycan dilində aparılır.

**Tövsiyə 7:** Akkreditasiya prosesi zamanı müəyyən edilmişdir ki, Universitetin əsas mövqelərində olan vəzifə daşıyıcılarının tez-tez yerdəyişməsi halları olur. Uzun perspektivdə problem yarada biləcək bu hal həll edilməlidir.
**Fəaliyyət:** Akkreditasiya prosesindən sonra Universitetin struktur cədvəlinə əsasən 4 prorektor fəaliyyət göstərir: Akademik İşlər üzrə Prorektor, Strategiya və İnkişaf üzrə Prorektor, Beynəlxalq münasibətlər, Hökumətlə əlaqələr və Tələbələrlə iş üzrə Prorektor, Prorektor vəzifəsinə bərabər tutulan Əməliyyatlar üzrə Baş Rəhbər. Ümumilikdə işə qəbul siyasəti isə Təşkilat və İnsan Resursları departamenti tərəfindən aparılır. Müvafiq vakansiya rəsmi vebsayt və bir neçə iş elanı portalında elan olunur. Müəyyən bir vaxt sonra namizədlərin sənədləri funksiyalara uyğun olaraq dəyərləndirilir. Daha sonra komitələr tərtib olunaraq müsahibələr keçirilir. Bu mərhələlərdən uğurla keçən namizəd Rektorla müsahibəyə dəvət olunur və Rektor tərəfindən təsdiqləndiyi halda işə alınır. Yeni işə götürülən hər bir işçinin müvafiq məlumatları dövlət portalına yerləşdirilir və işə başlanılan ilk gün əmr imzalanır. Sadalanan bütün prosedurlar "İşə qəbul Siyasəti" sənədində öz əksini tapmışdır.

**Tövsiyə 8:** Yerli və xarici tələbələrin istifadəsinə veriləcək yataqxana təminatı yaradılmalıdır.
**Fəaliyyət:** Universitet müvafiq şirkətlər ilə müqavilə imzalayaraq tələbələrə "Təbriz Evləri" yaşayış kompleksində, həmçinin "Univerium Dormitory" yataqxanasında mənzillər təklif edir. Hal-hazırda bu mənzillər tələbələr tərəfindən mövcud olan tələbi qarşılayır. Lakin gələcək illərdə bu tələb artacağı halda, yataqxananın tikilməsi ilə bağlı yeni layihə planlaşdırıla bilər.

**Tövsiyə 9:** Universitetin digər beynəlxalq layihələrdə (Erasmus+ KA02 və s.) də fəal iştirakı təmin olunmalıdır.
**Fəaliyyət:** Akkreditasiyadan sonra ADA Universiteti bir sıra Erasmus+KA2 layihələrində iştirak etmişdir: Jean Monnet Chair on EU studies (2020-2023), Jean Monnet Module on "Enhancing capacity for EU-EaP resilient cooperation within new EaP beyond 2020 policy objectives": Perspectives from Azerbaijan, Jean Monnet Center of Excellence on "Working towards resilience societies in the EaP: Challenges and Opportunities for the Policy beyond 2020"

ADA Universiteti gələcəkdə Horizon Tədqiqat və İnnovasiya, habelə NATO-nun Sülh və Təhlükəsizlik Naminə Elm Proqramı kimi layihələrə qoşulmağı hədəfə alır.

**Tövsiyə 10:** Azərbaycan dilini öyrənmək istəyən əcnəbi tələbələrə Universitet daxilində müəyyən kurslar təşkil olunmalıdır.
**Fəaliyyət:** 2022-ci ildən etibarən bütün ixtisas proqramlarının kurrikulumları çərçivəsində Azərbaycan dili seçmə fənn bloku tərkibində əcnəbi tələbələrə tədris olunur. Bununla yanaşı, artıq bir neçə ildir ki, Azərbaycanşünaslıq dərsləri Ümumi Təhsil proqramı çərçivəsində təqdim olunur. Burada Azərbaycan mədəniyyəti, dəyərləri, memarlığı kimi mövzular əhatə olunur.

**Tövsiyə 11:** Bədən tərbiyəsi və idman sahəsində maddi-texniki bazanın təkmilləşdirilməlidir (Universitet Nizamnaməsinin tələblərindən biridir).
**Fəaliyyət:** ADA Universiteti nəzdində açıq və qapalı futbol meydançaları mövcuddur. Qapalı futbol meydançası həmçinin basketbol və voleybol idman növləri üçün də istifadə olunur. Müvafiq şərait tam təmin edilmişdir. Bundan əlavə Universitetin park ərazisində də kiçik futbol və voleybol meydançaları vardır. Həmçinin müxtəlif idman alətləri də quraşdırılaraq tələbə və müəllim heyəti üçün istifadəyə verilmişdir.

**Tövsiyə 12:** Müasir tələblərə cavab verən dərsliklər, dərs vəsaitləri və tədris materiallarının (qrifli) nəşr işi sürətləndirilməlidir.
**Fəaliyyət:** Universitetdə tədris zamanı dünyanın aparıcı nəşriyyatlarının (Pearson, McGraw Hill, Cengage və s.) dərs vəsaitlərindən istifadə olunur. Bu məqsədlə həmin dərs vəsaitlərinin bir neçə nüsxəsi kitabxana tərəfindən alınır və tələbələrin istifadəsinə təqdim olunur. Bu səbəbdən universitet nəzdində dərs vəsaitlərin nəşri nəzərdə tutulmayıb.

## II. Təhsil müəssisəsinin özünütəhlili

## 4. Özünütəhlil qiymətləndirməsinin icmalı

“ADA” Universiteti Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) F-181 nömrəli 14 noyabr 2022-ci il tarixli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Özünütəhlilin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Təhsil müəssisəsinin özünütəhlili Elmi Şuranın 9 iyun 2023-cü il tarixli qərarı ilə təsdiqlənmiş Təşkilat Komissiyası tərəfindən aparılmışdır. Təşkilat Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir[1]:

### 1. STRATEJİ İNKİŞAF

*1.1. Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

| |
|---|
| "ADA" Universitetinin strateji baxışı: Biz “müəllim və alim” anlayışlarını ehtiva edən elmi yeniliklərə əsaslanan tədris mədəniyyətini aşılayan beynəlxalq səviyyəli bir universitet olmağa daim çalışırıq. "ADA" Universitetinin missiyası özündə əməkdaşlıq, beynəlxalq səviyyədə kommunikasiya bacarıqları, habelə etika və vətəndaşlıq hissinə malik yüksək intellektual yeni nəsil yetişdirməkdir. Beləliklə, Universitetin strateji baxışı və missiyası yerli və beynəlxalq əmək bazarlarını və ehtiyaclarını, həmçinin cəmiyyətin inkişafını hədəfləyir. Bu istiqamətdə 2015-ci ildə dünyanın aparıcı konsaltinq şirkətlərindən biri olan McKinsey and Company ilə birgə strateji baxışı həyata keçirməyə yardım edən yol xəritəsi olan onillik Strateji İnkişaf Planı hazırlanmışdır. Bu prosesdə Universitet rəhbərliyi, professor-müəllim və inzibati heyət iştirak etmişdir. Həmin sənəddə doqquz istiqamət, hədəf və müvafiq fəaliyyətlər yer almışdır: Tədris, Tələbələr, Professor-müəllim heyəti və tədqiqat, İnzibati heyət, Universitetin beynəlmiləlləşdirilməsi, Brendinq, Elm və İnnovasiya parkı, İdarəetmə, Resursların səfərbər edilməsi.<br>**Strateji hədəf 1: Tədris**<br>**Fəaliyyət:** Tələbələrin transformasiyasına təkan verən tədris mühitində tətbiqi biliklərin təkmilləşdirilməsi vasitəsilə müvafiq bacarıqları inkişaf etdirən proqramların yenilənməsi. |

[1] Uyğun istiqamət və meyarlar üzrə qısa icmal müvafiq indikatorların təhlili əsasında aparılmalıdır. Belə ki, hər bir icmal təsdiqedici sənədlər, qoşma və ya keçidlərdən (link) istifadə edilməklə, eləcə də informasiyanın ümumiləşdirilməsi məqsədilə təqdim edilmiş şablon formalar doldurulmaqla müfəssəl hala gətirilməlidir.

**Strateji hədəf 2: Tələbələr**

**Fəaliyyət:** Tələbələrin liderlik potensialını beynəlxalq təcrübə çərçivəsində və müvafiq dəstək sistemi vasitəsilə inkişaf etdirmək.

**Strateji hədəf 3: Professor-müəllim heyəti və tədqiqat**

**Fəaliyyət:** "ADA" Universitetin strateji baxışına uyğun ən yaxşı və innovativ tədris metodlarını üstün tutan müəllimlərin işə cəlb edilməsi, inkişaf etdirilməsi və həmçinin onların müvafiq istiqamətlər üzrə elmi-tədqiqat fəaliyyətinin dəstəklənməsi.

**Strateji hədəf 4: İnzibati heyət**

**Fəaliyyət:** Etik normaları və mükəmməllik mədəniyyətinə sadiq olan yüksək səriştəli inzibati heyətin işə götürülməsi və inkişaf etdirilməsi.

**Strateji Hədəf 5: "ADA" Universitetinin beynəlmiləlləşdirilməsi**

**Fəaliyyət:** Müəllimlərin, tələbələrin və inzibati heyətin çoxmillətliliyinin artırılması və onların uyğunlaşmasını, mübadiləsini, habelə Azərbaycandan kənar çıxışlarını dəstəkləyərək qlobal müstəvidə mövcudluğu qurmaq.

**Strateji Hədəf 6: Brendinq**

**Fəaliyyət:** "ADA" Universitetinin strateji baxışı çərçivəsində ən parlaq istedadları cəlb etmək üçün dayanıqlı və güclü brendinq strategiyasının qurulması.

**Strateji Hədəf 7: Elm və İnnovasiya Parkı**

**Fəaliyyət:** Universitet resurslarının gücləndirilməsinin təşviqi, eyni zamanda innovasiya və sahibkarlığı, habelə bilik və texnologiya transferinin təşviq edilməsi.

**Strateji Hədəf 8: İdarəetmə**

**Fəaliyyət:** Mükəmməllik mədəniyyətini, liderlik keyfiyyətlərini davamlı olaraq təkmilləşdirən darəetmə sisteminin qurulması.

**Strateji Hədəf 9: Resursların səfərbər edilməsi**

**Fəaliyyət:** "ADA" Universitetinin maliyyələşmə mənbələrinin diversifikasiyası və eyni zamanda qabaqcıl texnologiyalara əsaslanan beynəlxalq meyarlara uyğun kampusun genişləndirilməsi.

Yuxarıda göstərilən strateji hədəflər və fəaliyyətlər ilə bərabər, hər bir istiqamət üzrə daha detallı fəaliyyətlər Strateji İnkişaf Planında öz əksini tapmışdır. Həmin fəaliyyətlər orta və uzunmüddətli dövr üçün nəzərdə tutulub. Strateji İnkişaf Planın hazırlanmasında bütün maraqlı tərəflərin iştirakı nəzərə alınmışdı. Həmçinin sənəd özündə universitetin güclü və zəif tərəflərini, imkanlar və təhdidləri də ehtiva edir (SWOT Analizi). Universitetin bütün istiqamətləri üzrə struktur bölmələri Strateji İnkişaf Planında nəzərdə tutulmuş müvafiq

fəaliyyətləri icra etməkdədir. Universitetin maliyyəsi, xərclərin tənzimlənməsi və büdcə planlaşdırılması da müvafiq olaraq aparılır.
Universitetin strateji baxışı, missiyası,həmçinin strateji hədəfləri sosial məsuliyyət, cəmiyyətə elmi yeniliklərin transferi kimi məsələlərini ehtiva edir.
Mövcud Strateji İnkişaf Planın qısaldılmış nümunəsi həm universitet ictimaiyyəti, həmçinin bütün maraqlı tərəflərin əlçatanlığı məqsədilə Universitetin rəsmi veb səhifəsində yer almışdır.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*1.2. Strateji inkişaf proqramının icrası və monitorinqi*

Strateji İnkişaf Planının icrası üzrə monitorinqinin aparılması məqsədilə 2022-ci ildə iki dəfə həm akademik heyəti həm də bütün inzibati struktur bölmələri əhatə edən iclaslar keçirilmişdi. Həmin iclaslarda Strateji İnkişaf Planında qeyd edilən strateji hədəflər və o hədəflərin həyata keçirilməsi məqsədilə aparılan işlər müzakirə edilmişdir. Hər bir hədəf istiqamətində aparılan işlərin daha detallı təsviri "SİP-in hazırlanması və icrası" cədvəlində öz əksini tapır. Qısa icmal isə aşağıda göstərilmişdir:

**Strateji hədəf 1: Tədris**

**Fəaliyyət: Tələbələrin transformasiyasına təkan verən tədris mühitində tətbiqi biliklərin təkmilləşdirilməsi vasitəsilə müvafiq bacarıqları inkişaf etdirən proqramların yenilənməsi:**

Bu məqsədi rəhbər tutaraq müvafiq texnoloji yeniliklərin tətbiqi vasitəsilə innovativ təlim mühitinin yaradılması nəzərdə tutulmuşdu. Belə ki, 2017-ci ildə Banner Tələbə Məlumat sistemi istifadəyə verilmişdir. "ADA" hər bir tələbənin şəxsi kabineti yaradılmış, şəxsi məlumatları, dərslərə qeydiyyatı, cədvəli, transkripti, akademik və maliyyə borcları kimi məlumatlar inteqrasiya edilərək mərkəzləşdirilmiş elektron platformaya çevirilmişdir. Bundan əlavə Blackboard Tədrisin Elektron İdarəedilməsi Sistemi tətbiq edilməyə başlamışdır. Bu sistem vasitəsilə tələbələr hər bir fənn üzrə sillabusları, qiymətləndirmə üsulları və meyarları, tədris materialları və s. görə bilirlər. Həmçinin bu platformaların tərkib hissəsi və onlayn sinif və imtahan üçün digər əlavə vasitələr olan Blackboard Collaborate, Respondus Lockdown brauzeri, Respondus Monitor istifadəyə verilmişdir. Bu texnoloji tətbiqlər pandemiya zamanı tədrisin onlayn formata transformasiyasının uğurlu şəkildə aparılmasına imkan yaratmışdır.
Tətbiqi biliklərin artırılması məqsədilə ABŞ-da yerləşən Corc Vaşinqton Universiteti ilə olan Kompüter elmləri üzrə magistratura proqramı təsis edilmişdi. Bundan başqa

regionlardan olan potensial kadrların inkişafı məqsədilə Təhsil İnstitutu tərəfindən Azərbaycan dilində tədris edilən magistr proqramları (Qazax Mərkəzi və Bakıda keçirilir) və Bir Müəllimin Manifesti ixtisasartırma proqramlarını göstərmək olar. Bir Müəllimin Manifesti ixtisasartırma proqramı Qazax, Bakı və ADA-nın Vaşinqtondakı mərkəzində tədris edilir. Belə ki, regionlardan olan təhsil sektorunun müəllim və rəhbər işçiləri dünyanın ən qabaqcıl təcrübələri ilə tanış olmaq və mənimsəmək imkanını qazanırlar.

Ümumiyyətlə 2015-ci ildən bəri həm bakalavr, həm də magistratura üzrə əmək bazarı tələblərinə uyğun yeni tədris proqramları açılmış və tələbələrin qabaqcıl elmi məlumatlara çıxışını təmin etmək üçün müvafiq olaraq kitabxanada mövcud elektron databazaların və elektron kitabların sayı artırılmışdır.

Bunlardan başqa, güclü liderlik və qlobal vətəndaşlıq bacarıqlarının inkişaf etdirilməsi üçün tələbələr tərəfindən müəllim və inzibati heyətin mentorluğu ilə cəmiyyətə xidmət məqsədi daşıyan fəaliyyətlərin kurrikuluma inteqrasiyası baş tutmuşdur. Buna nümunə olaraq Liderlik fənnini göstərmək olar. Həmçinin tələbələr sosial məsuliyyət hissini təşviq edən layihələrə cəlb edilir. Bu layihələrdən ən nümunəvisi “Hacı Zeynəlabdin Tağıyev” Mükafatı layihəsidir. Ənənəvi olaraq hər il keçirilən bu müsabiqədə tələbələr müxtəlif sosial layihələr üzərində çalışır və daha sonra təqdimatını keçirirlər. Seçim prosesindən uğurla keçən üç layihə mükafata layiq görülür.

Ali təhsil proqramlarından əlavə, kampusun yayda səmərəli istifadəsi üçün müntəzəm şəkildə müxtəlif yay proqramları da təşkil edilir. Bura həm enerji sektorunda ənənəvi Bakı Yay Enerji Məktəbini, Avropa İttifaqının dəstəyi ilə keçirilən Yay Məktəbi, həmçinin uşaqlar üçün təşkil edilən yay düşərgələrini göstərmək olar.

**Strateji hədəf 2: Tələbələr**

**Fəaliyyət: Tələbələrin liderlik potensialını beynəlxalq təcrübə çərçivəsində və müvafiq dəstək sistemi vasitəsilə inkişaf etdirmək**

Bu məqsədlə görülən işlər bunlardır:

Tələbə həyatını zənginləşdirmək, dərsdənkənar fəaliyyətlərinin səmərəli keçirilməsi, onların liderlik potensialını inkişaf etdirmək məqsədilə bakalavr və magistratura səviyyələri üzrə tələbə hökuməti və 40-dan artıq tələbə klubları, habelə məzunlarla əlaqələri gücləndirmək məqsədilə Məzunlar Assosiyasiyası yaradılmışdır.

Bundan başqa tələbələrin beynəlxalq mübadilə proqramlarında iştirak etməsinin təşviqi üçün beynəlxalq proqramları üzrə şöbənin müxtəlif istiqamətlərdə işləri təşkil edilmişdir. Bura dünyanın aparıcı universitetlərindən tələbələri cəlb etmək məqsədilə aparılan işləri göstərmək olar. Həmçinin, universitetə qəbul edilən əcnəbi tələbələrin ölkəyə və cəmiyyətə

daha yaxşı inteqrasiyasını təmin etmək üçün ətraflı orientasiya proqramları təşkil edilmişdir.

Karyera xidmətlərinin təkmilləşdirilməsi məqsədilə Karyera İnkişafı üçün Bacarıqlar və Strategiyalar dərsi kurrikulumun bir parçası olaraq tədris edilməyə başladı. 800-dən çox şirkətlər ilə əlaqələr quruldu ki, daha sonra tələbələr həmin şirkətlərdə təcrübə proqramlarından, şirkət nümayəndələri tərəfindən keçirilən təlimlərdən yararlanmaq imkanına malik oldular. Bütün bunların nəticəsi olaraq tələbələrin işə qəbul olunma dərəcəsi son illər ərzində 82%-ə qədər artmışdır.

Tələbələrin maliyyə məsələlərinin inkişafı istiqamətində də işlər görülmüşdür. Belə ki, tələbələrin bütün maliyyə işləri elektron platforma üzərindən aparılır. Onlar Banner sistemi üzərindən öz borclarını, ödəniş tarixlərini və digər müvafiq məlumatları görə bilirlər.

Tələbələrin akademik nailiyyətlərinin gücləndirilməsi məqsədilə Akademik Dəstək Xidmətləri şöbəsi yaradılmışdır. Şöbənin əsas məqsədi tələbələrə çətinlik çəkdikləri fənlər üzrə akademik xidmətlərin, yeni qəbul edilmiş tələbələrə akademik həyata inteqrasiyası üçün dəstəyin göstərilməsidir. Bunlardan əlavə tələbələrə imtahan öncəsi məsləhətləşmələr, habelə psixoloji dəstək və fərdi görüşlər keçirilir. Həmçinin, tələbələrə akademik dəstəyin göstərilməsi məqsədilə hər proqram üzrə akademik məsləhətçilərin xidmətləri yaradılmışdır.

**Strateji hədəf 3: Professor-müəllim heyəti və tədqiqat**

**Fəaliyyət: "ADA" Universitetin strateji baxışına uyğun ən yaxşı və innovativ tədris metodlarını üstün tutan müəllimlərin işə cəlb edilməsi, inkişaf etdirilməsi və həmçinin onların müvafiq istiqamətlər üzrə elmi-tədqiqat fəaliyyətinin dəstəklənməsi**

Bu hədəfin yerinə yetirilməsi məqsədilə bir sıra işlər görülmüşdür. İşə yeni cəlb olunmuş akademik heyət üçün, əlalxüsus əcnəbi professorlar üçün Orientasiya Proqramı hazırlanaraq təqdim edilmişdir. Həmçinin, akademik heyətin işə qəbul prosesi təkmilləşdirilərək Təşkilat və insan resursları şöbəsində sırf bu məsələlərdən məsul əməkdaş təyin edilmişdir. Akademik heyətin tədris və tədqiqat fəaliyyətlərinə dəstək məqsədilə magistratura tələbələri üçün teaching assistant və research assistant modeli vasitəsilə iş imkanları yaradılmışdır.

Müəllimlərin elmi tədqiqat fəaliyyətinin dəstəklənməsi üçün də bir sıra işlər görülmüşdür. Bunlardan PhD İnkişafı Fondu, Tədris və Təlim üzrə Sertifikat və daha sonra magistratura proqramı, “Ən yaxşı müəllim” və “Ən yaxşı alim” nominasiyaları üzrə mükafatlandırma, Tədqiqatın İnkişafı Fondu kimi təşəbbüsləri göstərmək olar. Ümumi nəşrlər sayına

baxıldıqda da müsbət dinamika müşahidə olunmaqdadır. 2018-ci ildə 43, 2019-cu ildə 66, 2020-ci ildə 67, 2021-ci ildə isə 89 elmi məqalə nəşr edilmişdir. Həmçinin son illər ərzində qrant və layihələrdən əldə olunan gəlirlərin həcmində də artım dinamikası görünür. Ətraflı məlumat maliyyə təminatı sənədində əks edilmişdir. Bundan əlavə universitetin tədqiqat potensialın artırılması, beynəlxalq akademik əlaqələrin gücləndirilməsi, akademik mühazirələr və müzakirələrin keçirilməsi üçün platforma yaradılması məqsədilə Diplomatiya və İnkişaf İnstitutu (Institute for Diplomacy and Development – IDD) yaradılmışdır.

Bundan başqa, gələcək professorların tapılması və inkişafı üzrə müafiq struktur bölmə yaradılmışdır. Belə ki, "ADA" Universitetində doktorantura dərəcəsi üzrə tədris aparılmasa da, keçən ildən etibarən doktorantura proqramlarının təşviq etməsi və nüfuzlu xarici universitetlərdə doktorantura üzrə dərəcə almış məzunların işə cəlb edilməsi üçün Universitetdə PhD üzrə Dəstək və İnkişaf şöbəsi yaradılmışdır. Bu şöbənin fəaliyyətinin bir parçası olaraq İtaliya-Azərbaycan Universiteti layihəsi çərçivəsində tərəfdaşlıq edilən universitetlərdə kənd təsərrüfatı, qida elmi və texnologiyası, dizayn, memarlıq və s. istiqamətlər üzrə namizədlərə PhD dərəcəsi alınması üçün şərait yaradılmışdır.

**Strateji hədəf 4: İnzibati heyət**

**Fəaliyyət: Etik normaları və mükəmməllik mədəniyyətinə sadiq olan yüksək səriştəli inzibati heyətin işə götürülməsi və inkişaf etdirilməsi**

İnsan resurslarının idarəedilməsinin təkmilləşdirilməsi məqsədilə yeni Təşkilati diaqram (Organizational Chart), həmçinin Vəzifələrin Təsnifatı (Position Control) müəyyənləşdirilmişdir. Belə ki, 2019-cu ildən etibarən hər bir vəzifə üzrə iş bölgüsü, funksiyalar və tələblər üzrə sıralama müəyyən edilmişdir. Hər bir pozisiya üzrə aydın və dəqiq iş təsviri sənədlərinin və kvalifikasiyaların müəyyən edilməsi və işə götürülmə prosesində bunlara riayət edilməsi təmin edilmişdir. Bütün bunlar Banner elektron platformasında müvafiq olaraq yerləşdirilmiş və icrasına başlanılmışdır. Həmin platforma "ADA" hər bir işçinin şəxsi kabineti yaradılmış və şəxsi məlumatlar yerləşdirilmişdir. Bundan əlavə işçi müvafiq olaraq hər hansı bir məzuniyyət növünə (analıq, xəstəlik səbəbindən, səfər məzuniyyəti və s.) müraciəti də Banner üzərindən edir və müvafiq prosedur elektron şəkildə mərkəzləşdirilmiş olaraq aparılır.  Həmçinin, işə qəbul siyasəti də təkmilləşdirilmiş, elektron forma "ADA" müraciət sistemi və qiymətləndirmə prosesinə başlanılmışdır.

**Strateji Hədəf 5: "ADA" Universitetinin beynəlmiləlləşdirilməsi**

**Fəaliyyət: Müəllimlərin, tələbələrin və inzibati heyətin çoxmillətliliyinin artırılması və onların uyğunlaşmasını, mübadiləsini, habelə Azərbaycandan kənar çıxışlarını dəstəkləyərək qlobal müstəvidə mövcudluğun qurulması**

Bu məqsədi həyata keçirmək üçün ikitərəfli razılaşmalar və Erasmus+ mübadilə proqramlarının artırılması istiqamətində işlər aparılmışdır. Belə ki, mübadilə proqramında iştirak edən tələbələrin sayı son beş il ərzində artaraq 689 nəfərə çatdırılmışdır. Bundan başqa hər il əməkdaşlıq edilən universitetlər ilə mübadilə sayının artırılması istiqamətində danışıqlar aparılır. Bu mübadilə proqramlarında tək tələbələr deyil, həmçinin müəllim və inzibati heyət üçün də yerlər ayrılmışdır. Bundan başqa əcnəbi tələbələrin cəlb edilməsi istiqamətində işlər aparılmışdır. Həmçinin yeni ikili proqramlar (ABŞ, Rusiya, İtaliya universitetiləri ilə) təsis edilmişdir.

"ADA" Universitetinin Vaşinqtondakı mərkəzinin fəaliyyəti çərçivəsində elmi və inzibati heyətin peşəkar bacarıqlarının artırılması üçün müvafiq peşəkar inkişaf proqramları icra edilmişdir. Həmçinin xaricdə yaşayan Azərbaycanlılar ilə əlaqələr gücləndirilmişdir.

Beynəlmiləlləşmə siyasətinin bir parçası olaraq Azərbaycan Respublikasının Prezidenti təşəbbüsü olaraq İtaliya-Azərbaycan Universiteti təsis edilmişdir. Bu layihə çərçivəsində İtaliyanın beş universiteti ilə birgə müxtəlif istiqamətlər üzrə (kənd təsərrüfatı, qida sistemlərinin idarəedilməsi, dizayn və arxitektura, şəhərsalma kimi istiqamətlər üzrə) ikili proqramlar haqqında razılaşma əldə edilmişdi.

Bunlardan başqa Universitetdə mütəmadi olaraq beynəlxalq konfrans və forumlar təşkil edilir, akademik heyətin beynəlxalq konfranslarda tədqiqat işlərinin təqdim edilməsi, habelə tələbələrin müxtəlif beynəlxalq müsabiqələrdə iştirak etməsi üçün dəstək göstərilir. Həmçinin yerli kadrların beynəlxalq tələblərinə uyğun inkişaf etdirilməsi üçün "ADA" Qazax mərkəzi yaradılmışdı. "ADA" regionlardan olan təhsil işçiləri üçün yerli və beynəlxalq professor-müəllim heyəti tərəfindən “Bir müəllimin manifesti” kimi ixtisasartırma kursları, Tədris və Təlim üzrə magistratura pilləsi üzrə dərəcə proqramları təşkil edilmişdi.

**Strateji Hədəf 6: Brendinq**

**Fəaliyyət: "ADA" Universitetinin strateji baxışı çərçivəsində ən parlaq istedadları cəlb etmək üçün dayanıqlı və güclü brendinq strategiyasının qurulması**

Bu istiqamətdə "ADA" Universitetinin rəsmi vebsaytı və sosial media üzrə rəsmi hesabları təkmilləşdirilmişdir. Bununla, geniş auditoriya üçün universitetdə baş verən mühüm

hadisələr, qəbul haqqında məlumatlar, müzakirə və tədbirlər, tələbə həyatı və s. istiqamətləri əhatə edən məlumatlar mütəmadi şəkildə yenilənərək paylaşılır və məlumatların bütün maraqlı tərəflər üçün (tələbə, valideyn, məzun, əmək bazarı nümayəndələri, tərəfdaşlar və s.) əlçatanlığını təmin edir. Bundan başqa, elanlar (həm tələbə qəbulu, həm işə qəbul) müvafiq olaraq həm vebsayt, həm də digər sosial media kanalları vasitəsilə çatdırılır.

**Strateji Hədəf 8: İdarəetmə**

**Fəaliyyət: Mükəmməllik mədəniyyətini, liderlik keyfiyyətlərini davamlı olaraq gücləndirən idarəetmə sisteminin qurulması**

Universitetin Elmi Şurası funksiyasını daşıyan Senat, onun tərkib hissəsi olan Dekanlar Şurası, habelə hər fakültə üzrə akademik heyətin strukturlaşdırılmış və müntəzəm iclaslarının təşkil edilməsi istiqamətində 2017-ci ildən etibarən işlər aparılmışdır. Belə ki, ildə iki dəfə olmaqla Senat görüşləri, hər iki həftədən bir Dekanlar Şurasının görüşləri təşkil edilmişdir. Hər fakültə üzrə olan görüşləri müvafiq olaraq hər fakültə sərbəst şəkildə tənzimləyir. Bütün görüşlərin qeydləri aparılır.

Bundan əlavə, 2015-ci ildə əmək bazarının aparıcı qurumlarının nümayəndələrinin iştirakı ilə Biznes İnstitutu nəzdində Məşvərət Şurası (Advisory Board) yaradılmışdır. Bu Şuranın iclaslarında yeni proqramların açılması, mövcud proqramlar üzrə nəticələrin təhlili, yeni seçmə fənlərin əlavə olunması kimi vacib məsələlər müzakirə edilir.

**Strateji Hədəf 9: Resursların səfərbər edilməsi**

**Fəaliyyət: "ADA" Universitetinin maliyyələşmə mənbələrinin diversifikasiyası və eyni zamanda qabaqcıl texnologiyalara əsaslanan beynəlxalq meyarlara uyğun kampusun genişləndirilməsi**

Müəssisə resurslarının planlaşdırılması (ERP) sistemi 2019-cu ildə yenilənmişdir. Həmçinin maliyyə resurslarının planlaşdırılması və idarəedilməsi üzrə müəyyən addımlar atılmışdı. Bunların arasında vəzifə təsnifatlarının yenilənməsi, satınalma prosesinin öncədən planlaşdırılması və illik satınalma planlarının hazırlanması və icrası, gəlir və xərclərin izlənilməsi, inventar və aktivlərin idarəedilməsinin tətbiqi kimi bir sıra fəaliyyətləri göstərmək olar.

Kampusun genişləndirilməsi məqsədilə isə yeni tədris binalarının tikilməsi və istifadəyə verilməsi, yeni parkın salınması kimi fəaliyyətlər yer almışdır.

Yuxarıda göstərilən istiqamətlər üzrə hesabatlar struktur bölmələr tərəfindən hazırlanmış və müzakirə edilmişdir. Bu müzakirələrin nəticəsi olaraq mövcud strateji hədəflərə yenidən baxılmış və fikirlər toplanılmışdır. Nəticə etibarı ilə, 2023-cü ildə Strategiya və İnkişaf üzrə Prorektor vəzifəsi təyin edilmiş və növbəti illər üçün strategiyanın hazırlanması nəzərdə tutulmuşdur.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 2. KEYFİYYƏT TƏMİNATI

### 2.1. *Keyfiyyət təminatı siyasəti*

"ADA" Universitetinin keyfiyyət təminatı siyasəti "Akademik keyfiyyət təminatı standartları və təlimatı" sənədində (https://ada.edu.az/frq-content/plugins/policies_x1/entry/20221227112201_80731100.pdf) öz əksini tapmışdır. Həmin sənəd 2020-2022-ci illərdə tərtib edilmiş və hal-hazırda icra mərhələsindədir. Sənədin hazırlanması zamanı bu istiqamətdə Universitetin mövcud olan sənədləri və dünyanın öndə gedən universitetlərinin təcrübələri nəzərə alınmışdır. Belə ki, Bərabərlik, Müxtəliflik və Ayrı-seçkiliyə qarşı siyasət, Məlumatların İdarə edilməsi Qaydaları kimi yeni sənədlər öz əksini tapmışdır. "Akademik keyfiyyət təminatı standartları və təlimatı" sənədi **Akademik Proqram, Tədris, Öyrənmə və Qiymətləndirmə, Tədqiqat, Tələbələr, Müəllimlər, İşçilər, Bərabərlik və şəffaflıq siyasəti** kimi istiqamətləri əhatə edir. Adıçəkilən istiqamətlər üzrə keyfiyyət təminatı siyasətini tərtib edərkən müvafiq şöbələr, fakültələr və tələbələr ilə görüşlər keçirilmişdir. Sənəd Universitetinin Elmi Şurası funksiyasını daşıyan Senat tərəfindən təsdiq edilmiş və daha sonra universitet cəmiyyətinin üzvləri ilə paylaşılmışdır. Sözügedən sənəd həmçinin Universitetin rəsmi internet səhifəsində yer almış, habelə müxtəlif istiqamətləri əks etdirərək ayrı-ayrı sənəd kimi göstərilmişdir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### 2.2. *Daxili keyfiyyət təminatı mexanizmləri*

Daxili keyfiyyət təminatı mexanizmləri "Akademik keyfiyyət təminatı siyasəti" və "Keyfiyyət Təminatının İdarəetməsi" sənədində öz əksini tapmışdır. Həmin sənəd keyfiyyət təminatının strukturunu, prosesini, bu prosesdə iştirak edən əsas iştirakçılarını və

onların müvafiq fəaliyyət planını və məsuliyyətlərini təsvir edir. Keyfiyyət Təminatı strukturu bunlardan ibarətdir: Keyfiyyət Təminatı Komitəsi, Keyfiyyət Təminatı üzrə alt komitələr, Keyfiyyət Təminatı və Akkreditasiya şöbəsi.

Keyfiyyət Təminatı üzrə Komitə 14 nəfərdən ibarətdir:

- Akademik İşlər üzrə Prorektor
- Strategiya və İnkişaf üzrə Prorektor
- Beynəlxalq Münasibətlər, Hökumətlə Əlaqələr və Tələbələrlə İş üzrə Prorektor
- Keyfiyyət Təminatı və Akkreditasiya şöbəsinin Direktoru
- Tələbə Qəbulu və Qeydiyyatı şöbəsinin Direktoru
- 5 nəfər professor-müəllim heyətinin üzvləri (hər fakültədən bir nəfər olmaqla)
- 2 nəfər universitetdən kənar üzvlər. Bu üzvlərdən biri əmək bazarının, digəri isə nüfuzlu xarici universitetin nümayəndəsi olmaqla seçilir.
- 1 nəfər bakalavr və 1 nəfər magistr tələbəsi

Bunlardan Strategiya və İnkişaf üzrə Prorektor, Akademik İşlər üzrə Prorektor, Beynəlxalq Münasibətlər, Hökumətlə Əlaqələr və Tələbələrlə İş üzrə Prorektor, Keyfiyyət Təminatı və Akkreditasiya şöbəsinin Direktoru, Tələbə Qəbulu və Qeydiyyatı şöbəsinin Direktoru daimi üzvlərdir. Professor-müəllim heyətinin nümayəndələri Professor-Müəllim Heyəti İşləri üzrə Komitə tərəfindən 2 il müddətinə təsdiq edilir. Beynəlxalq tərəfdaşlar tərəfindən iştirak edən nümayəndələr Keyfiyyət Təminatı Komitəsi və müvafiq tərəfdaşlar ilə məsləhətləşdikdən sonra Akademik İşlər üzrə Prorektor tərəfindən 2 il müddətinə təyin edilir. Tələbə heyəti nümayəndələri isə "ADA" Tələbə Höküməti tərəfindən seçki yolu ilə 1 il müddətinə təyin edilir.

Keyfiyyət Təminatı Komitəsinin əsas vəzifələri və fəaliyyəti aşağıdakılardan ibarətdir:

- Akademik keyfiyyət təminatı standart və təlimatlarının icrasına müntəzəm nəzarət edilməsi
- Ayrı-ayrı komponentlərin (sənədlərin) nəticələrinə müntəzəm nəzarət edilməsi
- Bütün Akademik Keyfiyyət Təminatı Standartları və Təlimatlarının hərtərəfli nəzərdən keçirilməsi
- Akademik Keyfiyyət Təminatının Standartları və Təlimatlarının fərdi komponentlərinin (sənədlərinin) müntəzəm nəzərdən keçirilməsi
- Mövcud sənədlərin dəyişdirilməsi və yeni sənədlərin hazırlanması

Hər fakültə üzrə 4 nəfər müəllimdən ibarət Keyfiyyət Təminatı üzrə alt komitələrin təsis olunması nəzərdə tutulmuşdur.

Sözügedən alt komitələrin əsas vəzifə və öhdəlikləri bunlardır:

- Akademik keyfiyyəti qiymətləndirmək və artırmaq üçün Keyfiyyət Təminatı Komitəsinin fəaliyyətinə dəstək göstərmək
- Sədrlər tərəfindən alt komitələrin müvafiq fəaliyyətini Keyfiyyət Təminatı Komitəsi ilə əlaqələndirməni təmin etmək
- Müvafiq fakültə üzrə tələbələrin müvəffəqiyyətini, ixtisasların səmərəliyini, habelə təlim nəticələrinin həyata keçirilməsinə nəzarət etmək
- Sədrlər müvafiq məlumatları Keyfiyyət Təminatı Komitəsi tərəfindən tələbələrin müvəffəqiyyətlərini qiymətləndirmək və artırmaq, ixtisasların səmərəliyini və təlim nəticələrinin Universitetin bütün fakültələr üzrə həyata keçirilməsini izləmək və təmin etməsi üçün Komitəyə təqdim etmək

Keyfiyyət Təminatı və Akkreditasiya şöbəsi Keyfiyyət Təminatı Komitəsi və alt komitələrdən asılı olmayan, lakin lazım olduğu halda müvafiq dəstəyi həyata keçirən Universitetin inzibati şöbəsidir.

Şöbənin əsas vəzifə və öhdəlikləri aşağıdakılardan ibarətdir:

- Keyfiyyət Təminatı Komitəsinə və onun Alt Komitələrinə davamlı dəstək göstərmək
- İnformasiya Texnologiyaları şöbəsi ilə birgə Universitetin Akademik Göstəricilər və Keyfiyyət Təminatı verilənlər bazasının hazırlanmasını təşkil etmək, habelə müvafiq hesabatları təqdim etməklə Universitetin ümumi keyfiyyət təminatı prosesinə dəstək göstərmək
- Yeni və mövcud akademik keyfiyyət və keyfiyyət təminatı sənədlərin hazırlamaq və yeniləmək
- Universitetin tədris strukturunu və proseslərinin təkmilləşdirməsi üçün tələbələr tərəfindən gələn təklifləri qəbul etmək
- Keyfiyyət təminatı prosesinin akkreditasiya layihələri ilə əlaqələndirmək
- Həm universitet, həm ayrı ayrılıqda proqramlar səviyyəsində akkreditasiya layihələrinin keçirilməsini təmin etmək
- Şöbənin direktoru tərəfindən Təşkilatın Effektivliyi və İnkişaf üzrə Prorektora və Keyfiyyət Təminatı Komitəsinə mütəmadi olaraq hesabat vermək

"ADA" Universitetində keyfiyyət təminatı 5 illik yoxlama dövrünə əsaslanır. Bu müddət ərzində bütün akademik keyfiyyət və keyfiyyət təminatı sənədləri və bütün əlaqəli nəticələr ciddi şəkildə qiymətləndirilir. Nəticələr Universitetin Məlumatların İdarə

Edilməsi və Hesabat Qaydaları sənədində müəyyən edilmiş hesabat qrafikinə uyğun olaraq tədris ili ərzində nəzərdən keçirilir. Nəticələr “Akademik keyfiyyət təminatı standartları və təlimatı” sənədində əks olunmuş meyarlara uyğun gəlmədikdə Keyfiyyətin Təminatı Komitəsi müvafiq addımlar atacaqdır. Bundan əlavə “Akademik keyfiyyət təminatı standartları və təlimatı” sənədin tərkibi və tətbiqi mütəmadi olaraq hər il nəzərdən keçirilir. Buna əsas səbəb ondan ibarətdir ki, hər hansı bir sahə üzrə boşluq olduğu halda aşkarlansın və lazımi addımlar atılsın.

Keyfiyyətin təminatı üzrə müvafiq sənədlərin nəzərdən keçirilməsi zamanı aşağıdakılar nəzərə alınır:

- Sözügedən sənədlər "ADA" Universitetinin missiyasını təşviq etmək məqsədlərinə xidmət etməyə davam edir
- "ADA" Universitetinin institusional məqsədləri və akademik prinsipləri Universitetin missiyasına uyğundur, habelə tələbə və digər maraqlı tərəflərin ehtiyacları və maraqlarına xidmət edir

Akademik Proqram, Tədris, Öyrənmə və Qiymətləndirmə, Tədqiqat, Tələbələr, Akademik və İnzibati Heyət sahələri üzrə keyfiyyət meyarları “Akademik keyfiyyət təminatı siyasəti” sənədində öz əksini tapmışdır. Keyfiyyət Təminatı Komitəsi müvafiq sənədlərə dəyişiklik təklifini irəli sürə bilər. Bunun üçün təklif layihəsi bütün maraqlı tərəflər ilə paylaşılaraq müvafiq rəylər toplanılması nəzərdə tutulur. Rəylər əsasında təklif layihəsinə müvafiq dəyişikliklər edilir. Yekun təklif sənədi Dekanlar Şurasına təqdim edilir və Şura tərəfindən təsdiq olunduğu halda Elmi Şura funksiyasını daşıyan qurum – Senata təqdim olunur. Senat və Rektor tərəfindən təsdiq olunduğu halda dəyişikliklər qüvvəyə minir.

Bundan əlavə olaraq, Keyfiyyət Təminatı Komitəsi hər il Senata hesabat təqdim edir. Daha sonra Senat Universitetin keyfiyyət təminatı mexanizmlərinin və xüsusilə Keyfiyyət Təminatı Komitəsinin işinin səmərəliyinin xarici qiymətləndirilməsini aparır.

Daxili keyfiyyət təminatı üzrə dövrü hesabatın hazırlanması da nəzərdə tutulmuşdu. Belə ki 2020-ci ildən etibarən görülən işlər, həmçinin il ərzində görülməsi planlaşdırılan fəaliyyətlər Keyfiyyət Təminatı Hesabatı sənədində öz əksini tapmışdır. Bundan başqa əvvəlki akkreditasiya üzrə verilən tövsiyələr üzrə monitorinq suallarına əsasən hesabat hazırlanmışdır və hazırkı hesabata əlavə edilən sənədlər arasında öz əksini tapmışdır.

Universitetdə rəylərin və məmnunluq səviyyəsinin öyrənilməsi üçün sorğular keçirilir. Tələbələrin tədris aldıqları dərslər haqqında rəylərini öyrənmək məqsədilə Dərslərin qiymətləndirilməsi sorğusunu nümunə olaraq göstərmək olar. İnzibati heyətin rəy, ehtiyac

və məmnunluğunun öyrənilməsi məqsədilə cari ildə 2 yeni sorğu təsis edilmişdi. Bunlardan biri iş prosesinin səmərəliliyin artırılması məqsədilə bacarıqları inkişaf etdirmək və yeni bacarıqlar əldə etmək üçün ehtiyac olan istiqamətləri müəyyənləşdirməyi hədəfə alır. İlk dəfə keçirilən sorğunun nəticələrinin təhlilinə əsasən treninqlər nəzərdə tutulmuş və artıq Excel proqramı ilə işləmək bacarıqları və Layihələrin idarə edilməsi üzrə təlimlərə başlanılmışdır. Digər sorğu isə inzibati heyətin ümumi məmnunluq sorğusudur. Bu sorğunun nəticələri hal-hazırda təhlil mərhələsindədir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### 2.3. *Keyfiyyət təminatı mədəniyyəti*

Keyfiyyət Təminatı strukturu (Keyfiyyət Təminatı Komitəsi, Keyfiyyət Təminatı üzrə alt komitələr, Keyfiyyət Təminatı və Akkreditasiya şöbəsi) ona şərait yaradır ki, Universitetin rəhbərliyi daxil olmaqla, həm akademik həm də inzibati heyətin məlumatlılığı təmin edilsin. Keyfiyyət Təminatı üzrə Komissiyanın görüşləri keyfiyyət təminatı üzrə kommunikasiya şəbəkəsinin platformasına çevrilmişdi. Belə ki, daxili keyfiyyət təminatı sahəsinə aid bütün məsələlərin müzakirəsi, habelə bu Komissiyanın tərkibində hər fakültənin və tələbələrin iştirakı ona yol verir ki, rəhbərlik ilə akademik heyətin və təhsil alanların bir başa dialoqu təmin edilsin.

"ADA" Universitetində keyfiyyət təminatının müşahidəsi 5 illik dövrü əhatə edir.

Akademik Keyfiyyət Təminatı Siyasətinə əsasən keyfiyyətin müşahidəsi məqsədilə keyfiyyət göstəriciləri Universitetin Məlumatların İdarə edilməsi və Hesabatlılıq Qaydalarında göstərildiyi kimi akademik il ərzində nəzərdən keçirilir. Nəticələr keyfiyyət məyarlarına uyğun gəlmədikdə Keyfiyyət Təminatı Komitəsi müvafiq olaraq addımlar atacaqdır.

Akademik Keyfiyyət Təminatı Meyarları və Qaydaları sənədinin tərtibi və icra olunmasına nəzarət dövrü olaraq hər il aparılır. Bu ona şərait yaradır ki, mövcud çatışmazlıqlar zamanında aşkar edilərək müvafiq tədbirlər gecikmədən görülsün.

Bundan başqa, Akademik Keyfiyyət Təminatı üzrə sənədlər 5 illik dövrü müşahidə zamanı nəzərdən keçirilməlidir. Qaydalara əsasən hər il üçün nəzarətdən keçirilməli olan istiqamətlər müəyyənləşdirilmişdir.

Keyfiyyətin təmin olunmasında və institusional dayanıqlıq istiqamətində 2022-ci ildə Təşkilatın Effektivliyi və İnkişaf şöbəsi departament statusuna yüksəldilmişdir. Departament ilk növbədə akademik sahədə keyfiyyətin təminatı, nüfuzlu institusional və

| |
|---|
| proqram akkreditasiya əldə etmək məqsədilə görüləcək işlərin təşkili və kurasiyası, ümumilikdə Universitetin bütün fəaliyyət sahələri üzrə effektiv idarəetmə və sistemliliyin təmin edilməsi məqsədlərini daşıyır.<br>Keyfiyyətin təmin olunması üçün strukturlar arası fəaliyyət də Keyfiyyət Təminatı və Akkreditasiya departamenti tərəfindən əlaqələndirilir. |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 3.TƏLİM VƏ TƏDRİS

### *3.1. Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

| |
|---|
| "ADA" Universitetinin tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı "Ali təhsil pilləsinin dövlət standartı və proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarında göstərilən tələblər nəzərə alınır. Belə ki, ali təhsil dövlət standartında qeyd olunan bəndlərə əsasən bu və ya digər ixtisas üzrə tələbə qəbulu sayı müəyyənləşir. Bundan əlavə məzunların məşğulluq statistikası, ötən ilki abituriyentlərin müraciət statistikası və keçid balları da nəzərdən keçirilir. Belə ki, hansısa ixtisas üzrə bir neçə il boyu müraciət dinamikası azalırsa, həmin ixtisas üzrə tələbə qəbulu sifariş yerləri də azaldılır. Yeni proqramların açılması zamanı isə əmək bazarının tələbləri nəzərə alınır. Belə ki, Biznes İnstitutunda açılacaq yeni proqramlar əmək bazarının müxtəlif şirkətlərini təmsil edən Məşvərət Şurası iclaslarında müzakirə edilir və müvafiq təkliflər toplanılır. Həmçinin, digər fakültələr üzrə yeni ixtisasların açılması üçün fokus-qrup müzakirələri aparılır, tələbə qəbulu sifarişləri əmək bazarının tələblərinin təhlili əsasında formalaşır. Buna nümunə olaraq İtaliya-Azərbaycan layihəsinin başlanğıcında Baker and Tilly şirkəti ilə aparılan təhlilləri göstərmək olar. Belə ki, əmək bazarının tələblərini nəzərə alaraq, prioritet ixtisaslar, tələbə qəbulu sifarişlərin sayı, mövcud universitetlərdə həmin ixtisaslar üzrə proqramların təhlili aparılmışdır. Bundan başqa işəgötürənlər və tələbələr arasında sorğular keçirilmişdir. Digər nümunə isə Corc Vaşinqton Universiteti ilə İT və Mühəndislik İnstitutunun birgə proqramlarının təsisi zamanı AzərEnerji və BP şirkətləri ilə əməkdaşlıq həyata keçirilmişdir. Ümumiyyətlə, yeni proqramların açılması zamanı əmək bazarı - dövlət - universitet şəkilində üçtərəfli əməkdaşlıq həyata keçirilir. Yəni həm əmək bazarının tələbləri, həm dövlət standartları, həmçinin universitetin imkanları və tələbləri nəzərə alınır. |

Qəbul olmuş tələbələrin "ADA" Universitetinə bakalavr və magistr pilləsinə qəbulu Elm və Təhsil Nazirliyinin AOİTAS Mərkəzləşdirilmiş İnformasiya Sisteminin portalı və "ADA" Universitetinin Banner sistemi vasitəsilə onlayn aparılır. Bakalavr pilləsinə qəbul olmuş yerli tələbələr onlayn qeydiyyatdan sonra attestat və tələbə müqaviləsinin əslini təqdim edirlər. Bakalavr pilləsinə qəbul olmuş əcnəbi tələbələr tam orta təhsil haqqında sənədin apostil və ya leqalizasiya olunmuş surətlərini və ya əslini təqdim edirlər. Magistr pilləsi üçün isə minimum olaraq bakalavr təhsili tələb olunur. Əvvəlki təhsilə tələblər müvafiq qanunvericiliklə tənzimlənir. Magistraturaya qəbul olmuş əcnəbi tələbələrdən TKTA tərəfindən nostrifikasiya olunmuş şəhadətnamələr tələb olunur.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### 3.2. *Təhsil proqramları*

"ADA" Universitetdə hal-hazırda 12 bakalavriat və 12 magistr pilləsi üzrə ixtisas tədris olunur. Bakalavr ixtisasları bunlardır: Kompüter Elmləri, İnformasiya Texnologiyaları, Kompüter Mühəndisliyi, Riyaziyyat, Elektrik və Elektronika Mühəndisliyi, Biznesin İdarə olunması, İqtisadiyyat, Maliyyə, Beynəlxalq Münasibətlər, Dövlət və İctimai Münasibətlər, Kommunikasiya və Rəqəmsal Media, Hüquqşünaslıq. Magistr dərəcəsi üzrə ixtisaslar isə bu istiqamətləri əhatə edir: Diplomatiya və Beynəlxalq Münasibətlər, Dövlət İdarəetməsi (ingilis və Azərbaycan dilində), Təhsil üzrə Menecment (ingilis və Azərbaycan dilində), Təlim və Tədrisin təşkili və metodikası (ingilis və Azərbaycan dilində), Biznesin İdarəedilməsi, Maliyyə üzrə MBA, Verilənlərin təhlili (Data Analitikası), Energetika mühəndisliyi, Menecment (Qlobal İdarəetmə və Siyasət sahəsi üzrə) (İtaliya-Azərbaycan Universiteti).

Nizamnaməyə əsasən, universitetin dövlət qanunvericiliyi və standartları çərçivəsində təhsil proqramlarının təşkili və qiymətləndirilməsində müəyyən azadlığı vardır. Belə ki, "ADA" Universitetində yeni ixtisasların açılması, mövcud kurrikuluma əmək bazarının tələblərinə əsasən dəyişikliklər müzakirə edilərək həyata keçirilir. Məsələn, praktiki biliklərin təkmilləşdirilməsi məqsədilə mövcud proqramlar nəzərdən keçirilir, yeni seçmə fənlər kurrikuluma əlavə olunur. Bundan başqa tələbələrə oxuduqları fakültədən başqa digər bir ixtisasdan istənilən dörd fənni seçməyə şans verilir ki, bu zaman həmin ixtisaslar üzrə onlar əsaslı biliklərə yiyələnirlər. Bu da öz növbəsində tələbələrin işə düzəlmə şanslarını artıraraq, onları əmək bazarında daha da uğurlu edir. Həmçinin Universitetdə tədris tələbələrə öyrənməyi öyrədərək, onlara ömür boyu təhsil üçün lazım olan səriştələri

aşılayır. Belə ki, tələbələrin həm fərdi, həm qrup şəkildə hazırladıqları kurs işi, müxtəlif layihələr onlara sərbəst öyrənmək, tənqidi təhlil aparmaq, yeni arqumentlər irəli sürmək kimi bacarıqları təkmilləşdirməyə təkan verir. Həmçinin, bilik və bacarıqlardan başqa tədris prosesində tələbələrə ictimai səriştələr də öyrədilir. Belə ki, universitetdə təhsil boyunca intellektual və yenilikçi, əməkdaşlığa açıq, yüksək ünsiyyət bacarıqlarına və vətəndaşlıq hissinə malik tələbələr yetişdirilir. Bu məqsədə çatmaq üçün universitet səviyyəsində təlim nəticələri tərtib edilmişdir. Həmin təlim nəticələrinə uyğun olaraq hər bir fakültə və ixtisas səviyyəsində də təlim nəticələri müəyyən edilmişdir.

Təhsil proqramlarının strukturuna gəldikdə isə, onlar tərtib edilərkən müvafiq kurrikulum qaydaları nəzərə alınır. Belə ki, müxtəlif fakültələrdə tədris olunan ixtisaslar fərqli olsa da, hər biri tətbiq olunan kurrikulum strukturuna uyğun olmalıdır və müvafiq təlim nəticələrini əhatə etməlidir. Dar ixtisaslaşma sahələrini əhatə edən bəzi proqramlar bu qaydalara istisnadır. Təhsil proqramları üzrə dərs saatların bölgüsü Avropa Kredit Transfer və Toplanması Sisteminə (AKTTS) uyğun aparılır. Belə ki, "ADA" Universitetində 1 dərs 75 dəqiqədən ibarətdir. 1 kredit saatı isə bir həftə ərzində 25 auditoriya və 95 dəqiqə auditoriyadan kənar digər tədris fəaliyyətlərini əhatə edir. Semestr ərzində isə 6 saat 25 dəqiqə auditoriyada tədris olunan dərs vaxtını və 23 saat 74 dəqiqə digər tədris fəaliyyətlərini təşkil edir. 1 kredit saatı müvafiq olaraq semestr boyu 30 saatlıq tədris yükünə uyğun gəlir. "ADA" Universitetində dərslərin böyük əksəriyyəti 6 kreditdən ibarətdir. Bu isə həftəlik olaraq, 150 dəqiqə auditoriya vaxtı və 570 dəqiqə auditoriyada kənar tədris fəaliyyəti, semestr ərzində isə 37.5 auditoriya saatı və 142.5 auditoriyadan kənar saatlarını əhatə edir. Bakalavr dərəcəsini qazanmaq üçün tələbə 240 kredit qazanmalıdır. Bu isə təxmini 40 fənn təşkil edir. Magistr dərəcəsini qazanmaq üçün 90-120 kredit tələbə tərəfindən mənimsənməlidir. Bu isə 12-20 fənn və12- 18 kredit yükü daşıyan yekun layihəni/dissertasiyanı əhatə edir. Bu qaydaya istisna Rusiyanın MQİMO Universiteti ilə ikili diplom proqramı olan Maliyyə üzrə MBA (76 kredit) proqramıdır. Tədris təhsil proqramının tələblərinə uyğun aparılır.

Bakalavr dərəcəsi üzrə təhsil alan tələbələr universitetə daxil olmamışdan öncə akkreditasiyadan keçmiş digər bir təhsil müəssisəsindən qazandığı kreditləri transfer edə bilər. Lakin bu kreditlərin sayı 30-dan artıq olmamalıdır. Bundan başqa tələbənin hər bir fənn üzrə göstəriciləri “C” qiyməti və daha yuxarı olmalıdır. Transfer olunacaq kreditlər Dekan Müavini tərəfindən tələbə qəbul edilməmişdən öncə təsdiq edilməlidir. Bunun üçün tələbə həm transkript, həm də keçdiyi hər bir fənn üzrə sillabusu Dekan Müavininə təqdim

| |
|---|
| etməlidir. Daha sonra məlumat müvafiq fakültə tərəfindən Tələbə Qəbulu və Qeydiyyatı şöbəsinə göndərilməlidir.<br>"ADA" Universitetinin kurrikulum tərtibi prosesi və tələblər, həmçinin təlim nəticələri digər sənədlər kimi universitetin rəsmi səhifəsində yer almışdır ki, bu da həm tələbələr, həm də ictimaiyyət üçün əlçatanlığı təmin edir. |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*3.3. Tədrisin təşkili*

| |
|---|
| Hər bir ixtisas üçün bütün tədris illərini əhatə edən tədris planı sənədi mövcuddur. Həmin sənəddə ümumi təhsil, əsas fənnlər və seçmə fənnlər tədris olunacaqları semestr üzrə bölünmüşlər. "ADA" Universitetinin Kurrikulum Qaydaları sənədinə əsasən, hər bir bakalavr dərəcəsi üzrə ixtisası 60 kreditdən, yəni 10 fənndən ibarət ümumi təhsil proqramını əhatə edir. Proqram çərçivəsində Akademik Yazı, Sosial Elmlər, Liderlik və Natiqlik, Humanitar Elmlər kimi istiqamətlər tədris olunur. Bu isə tələbələrin həm ümumi biliklərinin bünövrəsini qoyur, həmçinin, onlara tənqidi təfəkkür, natiqlik, akademik yazı qaydaları kimi bacarıqları da öyrədir. Bundan əlavə bakalavr kurrikulumunda minimum 120 kredit, və ya 20 fənndən ibarət əsas fənlər bloku vardır. Bu fənlər ixtisas sahəsi üzrə dərin və fundamental sahələri əhatə edir. Həmçinin bakalavr tələbələri 24 kredit (4 fənn) texniki seçmə fənn və 24 kredit (4 fənn) sərbəst seçmə fənləri tamamlamalıdırlar. Texniki seçmə fənlər hər bir ixtisas üzrə daha spesifik mövzuları əhatə edir. Sərbəst seçmə fənlər isə verilən ixtisas üzrə deyil, tələbələrin digər ixtisaslar üzrə seçə bildikləri fənlərdir. Bunlardan əlavə, bakalavr dərəcəsi üzrə 12 kreditdən (2 fənn) ibarət praktiki dərslər mövcuddur. Bunlar Karyera İnkişafı üçün Səriştələr və Strategiya, Data və İKT bacarıqları fənləridir ki, müasir əmək bazarı tələblərinə uyğun peşəkar səriştələri əhatə edir.<br>Magistr dərəcəsi isə əsas fənlər və texniki seçmə fənlərdən ibarətdir. Texniki seçmə fənlər maksimum 18 kredit təşkil edir (yəni 3 fəndən çox olmamaq şərti ilə). Bütün magistr tələbələri sonda yekun layihə və ya dissertasiya işini təqdim etməlidirlər.<br>Tədris olunan fənlər əsasən interaktiv formada keçirilir. Belə ki, tələbələrə semestrin əvvəlində tədris olunacaq fənnin ümumi xülasəsi, keçiriləcək mövzuları, qiymətləndirmə metodları, hər bir qiymətləndirmə komponenti, ədəbiyyat siyahısı kimi məlumatları əhatə edən sillabus paylanılır. Həmçinin, fənnin təlim nəticələri də həmin sənəddə öz əksini tapır. |

Fənnin təlim nəticələri ixtisas nəticələri ilə uyğunlaşdırılmış şəkildə müəllim tərəfindən tərtib edilir ki, bu da öz növbəsində müəllimlərin akademik azadlığını təmin edir. İxtisas təlim nəticələri isə universitetin nəticələrinə uyğunlaşdırılmış formada tərtib edilir. Bu proses universitetin daxili keyfiyyət mexanizmi çərçivəsində tənzimlənir. Hal-hazırda bu proses Akademik Məqsədlər üçün İngilis dili və Ümumi Təhsil proqramlarında aparılır. 2023-2024-cü akademik il ərzində isə bütün fakültələr üzrə işin davam etdirilməsi nəzərdə tutulmuşdur.

Tələbələr növbəti semestr ərzində tədris alacağı fənləri, müəllimləri, kreditləri və fənn cədvəlini əhatə edən tədris planını semestr başlamadan 2-3 ay öncə dərslərə elektron qeydiyyat prosesindən sonra Universitetdə tətbiq olunan “Banner” elektron platforması vasitəsilə görə bilirlər. Bunun üçün bütün fakültələr növbəti semestrdə tədris olunacaq fənlərin siyahısını, kreditlərini, tədris edəcək müəllimlərin adını, tələbə sayını, cədvəlini ehtiva edən tədris planını hazırlayaraq Tələbə Qəbulu və Qeydiyyatı Şöbəsinə bir neçə ay öncədən təqdim edir. Bu fənlər “Banner” elektron sisteminə salındıqdan sonra müəllimlər də öz şəxsi profillərinə daxil olaraq işçi tədris planını görə bilirlər. Onu da qeyd etmək lazımdır ki, tədris prosessinin rəqəmsallaşması və innovativ metodlardan istifadə edilməsinin nəticəsi olaraq, "ADA" Universiteti hələ 2018-ci ildə ali təhsil müəssisələri üçün innovativ texnologiya həlləri təqdim edən dünyanın aparıcı təchizatçısı Ellucian-dan nüfuzlu “İnnovasiya mükafatı”nı almışdır (https://"ADA".edu.az/en/news/50-"ADA"-university-receives-prestigious-international-award).

Fəndən asılı olaraq semestr boyu tələbələr araşdırmalar aparır, qrup işi, müxtəlif layihələr, kurs işi və təqdimatlar keçirirlər. Hər bir müəllimin məsləhət saatları da mövcuddur ki, bu haqda məlumat da tələbələrə sillabus vasitəsilə ötürülür. Tələbələr sual yaradan mövzuları həmin vaxt çərçivəsində müəllim ilə aydınlaşdıra bilərlər.

Bütün bakalavr tələbələri mütləq şəkildə təcrübə proqramlarında iştirak etməlidir. Lakin istehsalat təcrübəsindən öncə, üçüncü kursun payız semestrində Karyera İnkişafı üçün Səriştələr və Strategiyalar fənni keçirilir. Bu fənni keçməyən tələbələr istehsalat təcrübəsinə buraxılmır. Fəni uğurla tamamlayan tələbələr isə növbəti semestr, yəni yaz və ya yay semestr ərzində müxtəlif şirkət və qurumlarda istehsalat təcrübəsini keçirlər. İstehsalat təcrübəsi isə ən azı 4-6 həftə ərzində keçirilən 120 saatdan ibarətdir. Bütün bu prosesi daha səmərəli keçirilməsi, həmçinin tələbələrə və məzunlara karyera planlaması və məsləhəti məqsədilə karyera xidmətləri və hər fakültə üçün karyera məsləhətçiləri mövcuddur. Həmçinin, təcrübə proqramları və vakansiyaları elan etmək üçün xüsusi daxili elektron platforma tətbiq olunur ki, hər bir tələbə və məzunun orada öz şəxsi profili vardır. Bununla,

tələbələr və məzunlar asanlıqla elan edilmiş vakansiyaları görür, tələb olunan sənədləri tərtib edir və vakansiyalara bir başa müraciət edə bilirlər.

Hər bir ixtisasın digər mütləq komponenti isə buraxılış layihəsi (Capstone Project) və ya dissertasiya işidir (Master Thesis). Təhsil müddətinin sonunda tələbələr yazdıqları buraxılış işini və ya dissertasiya işini təqdim edirlər və Müdafiə Komitəsi tərəfindən qiymətləndirilirlər. Yalnız Hüquqşünaslıq ixtisası bu baxımdan istisnadır.

"ADA" Universitetində imtahan sessiyası payız, yaz və yay semestrinin sonunda təşkil olunur. İmtahanda üzrlü səbəb olmadan iştirak etməyən tələbə müvafiq fəndən Qeyri-kafi (F) qiymətini almış olur. Üzrlü səbəbdən iştirak etməyən tələbələrə daha sonra imtahanda iştirak etmək hüququ verilir. Həmin imtahanda istifadə olunan suallar yeni olsa da, çətinlik səviyyəsinə görə birinci imtahan ilə eyni səviyyədə təşkil olunur. İmtahanda davranış qaydaları "ADA" Universitetinin Şərəf Kodeksi sənədini rəhbər tutaraq təşkil olunur. Belə ki, imtahanda mobil avadanlıqlardan istifadə etməməli, imtahan nizamını pozmamalıdır. Şərəf Kodeksi qaydalarını pozan tələbələrə ilk dəfə şifahi xəbərdarlıq edilir, ikinci dəfə isə artıq imtahandan xaric olunaraq müvafiq ölçü götürülür.

Payız və yaz semestrləri üzrə imtahan sessiyaları zamanı çox sayda tələbənin kəsildiyi fənlər tələbələrə zamanında məzun olması üçün kömək məqsədilə yay semestri dövründə təklif olunur. Bu fənlərin siyahısını, tələbə sayını, müəllimlərin adını və cədvəli özündə ehtiva edən sənədi hər bir fakültə öncədən tərtib edərək Tələbə Qəbulu və Qeydiyyatı şöbəsinə təqdim edir. Belə ki, 6 həftədən ibarət olan semestrin sonunda imtahan sessiyası təşkil edilir.

Kredit borcu olan tələbələrin sayı tədris illəri və fakültələr üzrə dəyişir. Lakin ümumi vəziyyət onu göstərir ki, ən çox kredit borcu tələblərin təhsil aldıqları ilk ildə müşahidə edilir. Bu da tələbələrin ilk ilində keçdikləri adaptasiya prosesi ilə əlaqədardır. Kredit borcu yaranmış fənlərin ümumi həcmi də həmçinin, fakültələr və illər üzrə müxtəlif qaydada dəyişməkdədir.

Buraxılış işi daxil olmaqla, proqramın bütün tələblərini uğurla keçən tələbələr təhsilini başa vurmuş hesab olunurlar və müvafiq proqram üzrə bakalavr və ya magistr dərəcəsini təsdiq edən diplom sənədini əldə edirlər.

Tədris prosesi ilə bağlı tətbiq edilən normalar və qaydalar daxili keyfiyyət sisteminin bir parçası olaraq, Keyfiyyət Təminatı Komitəsinin iclasında müzakirə edilir və təkliflər toplanılır. Daha sonra həmin təkliflərin Dekanlar Şurasında müzakirəsi aparılır.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### 3.4. *Tədris metodları və üsulları*

Tədris zamanı innovativ və interaktiv texnologiyalardan istifadə etmək üçün müxtəlif üsullardan istifadə olunur. Buraya həm maddi-texniki bazanı, həmçinin tədris üsullarını nümunə gətirmək olar. Belə ki, bütün auditoriyalarda ağıllı lövhələr quraşdırılıb ki, dərs zamanı təqdimatlar, audio və video materiallardan istifadə mümkündür. Bundan əlavə, müəllimlər tələbələrə innovativ metodları təşviq edərək, müxtəlif qrup layihələri, fərdi işləri tətbiq edirlər. Akademik heyətin əksəriyyətinin xarici təhsil təcrübəsi olması da dərslərin interaktiv keçirilməsinə zəmin yaradır.

Tədris metodlarının tələbəyönümlü, kritik təhlili aşılayan, həm nəzəri, həm də praktiki tətbiqi özündə ehtiva etməsi hər bir ixtisas üzrə müvafiq olaraq təlim nəticələrində öz əksini tapmışdır. Belə ki, fənlərin təlim nəticələrinin də ixtisas təlim nəticələrinə əlaqələndirilmiş olması, bu metodların zəruriliyini təmin edir. Tədris metodları tələbələrə araşdırmalar aparmaq, sərbəst düşünmək, təhlil aparmağı təşviq edir. Bundan əlavə, fənn üzrə təlim nəticələri tərtib edilərkən tədris səviyyələri nəzərə alınır. Belə ki, Təlim Nəticələrinin Spesifikasiyası qaydasına əsasən, hər bir fənnin təlim nəticələri “Başlanğıc”, “İnkişaf Etmiş” və “Peşəkar” səviyyələri üzrə bölünməsini nəzərdə tutur. Bu bölgü tədris səviyyələrindən və tələbələrin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılaraq tərtib edilir. Qiymətləndirmə üsulları və komponentləri də müvafiq olaraq uyğunlaşdırılır. Tədris prosesini aktiv öyrənməni təşviq edən texnoloji imkanlardan istifadə edilir. Belə ki, bütün dərs materialları Blackboard elektron platforması vasitəsilə tələbələrə çatdırılır. Həmçinin tələbələr öz ev tapşırıqlarını və digər qiymətləndirmə meyarları üzrə tapşırıqları da məhz bu elektron platforma vasitəsilə müəllimə təqdim edirlər. Dərs materialların öncədən təqdim edilməsi ona aparır ki, tələbələr dərsə hazırlıqlı gəlir və müəllim ilə bərabər diskussiya formasında dərsi təşkil edə bilirlər. Bundan əlavə tələbələrə verilən qısa tapşırıqlar, qrup şəkilində işlər, təqdimatlar interaktiv öyrənmə məqsədini daşıyır. Tədris prosesində innovativ və rəqəmsal metodlardan istifadə edildiyinə görə, "ADA" Universiteti cari ildə ABŞ-ın nüfuzlu “Anthology” Təhsil və Tədqiqat Mərkəzinin “Rəqəmsal tədris və öyrənmə üzrə mükəmməllik Mərkəzi” adına layiq görülüb (https://azertag.az/xeber/"ADA"_Universiteti_akademik_ili_iki_nufuzlu_beynelxalq_keyfiyyet_nisani_almaqla_tamamlayib-2674819). Qiymətləndirmədə “Rəqəmsal pedaqogika”, “Rəqəmsal transformasiya”, “Tələbələrin təhsildə iştirakçılığı və nailiyyəti” və “Qiymətləndirmə və təhsil”i əhatə edən 4 istiqamət üzrə standartlar dəyərləndirilib.

Tədris metod və üsulların monitorinqini aparmaq üçün isə istifadə edilən vasitələrdən biri semestr sonu hər fənn üzrə tələbələr arasında keçirilən sorğudur. Bundan əlavə müəllimlərin bir-birinin dərslərində iştirak etməklə monitorinq üsulu da mövcuddur. Aparılan monitorinq nəticələri dekan tərəfindən müəllimlərə fərdi şəkildə bildirilir və müvafiq addımlar atılır.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### *3.5. Təlim və tədris resursları*

"ADA" Universitetində 2017-ci ildən etibarən Banner və Blackboard kimi elektron tələbə məlumatları və tədrisin idarəolunması sistemi tətbiq olunur. Belə ki, tələbələrin universitetə daxil olduğu andan etibarən onların 'ada.edu.az' domain vasitəsi ilə elektron ünvanları, həmçinin my.ada.edu.az platformasında şəxsi kabinetləri yaradılır və bu öz növbəsində təhsilalanların universitet tərəfindən təklif edilən təlim və tədris resurslarına əlçatanlığını təmin edir. Bununla, tələbələrin öyrənmə və tədris ehtiyaclarını tam ödəyən elektron sistemə çıxış təmin edilir. Tələbələrin şəxsi məlumatları, habelə transkriptləri, akademik və maliyyə borcları, cədvəlləri, dərslərə qeydiyyatı və s. kimi məlumatlar Banner platformasında əks olunur. Həmçinin tələbələr dərslərin siyahısını, hər dərs üçün ayrı ayrılıqda göstərilməklə, həmin fənn üzrə sillabus, tədris materialları, qiymətlər və s. məlumatlarını Blackboard elektron tədris platformasından izləyirlər.

Universitetdə dərslərin interaktiv keçirilməsi üçün zəruri olan maddi-texniki baza da mövcuddur. Belə ki, hər auditoriyadamövcud olan ağıllı lövhələr, laboratoriya işini aparmaq üçün müvafiq otaqlar, kitabxana və digər binalarda tələbələrin istifadəsinə açıq olan kompüterləri nümunə kimi göstərmək olar. Onu da qeyd etmək lazımdır ki, kampusda mövcud olan kompüterlərin sayının kütləvi olmamasının səbəbi ondan irəli gəlir ki, tələbələr dərs və dərsdən kənar müddətində şəxsi kompüterlərindən istifadə edirlər. Bunun üçün tam təhlükəsiz wi-fi şəbəkəsi mövcuddur və hər bir tələbə, akademik və inzibati heyətin ona çıxışı təmin olunur. İnzibati və akademik heyətin bütün üzvləri fərdi noutbuklarla təmin olunur. Universitetin auditoriya fondu tədris prosesinin təşkil olunduğu 6 bina üzrə ümumi sahəsi 11014 kv.m. təşkil edir. Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaq fondu: 193.

Tələbə və müəllimlərin ən son elmi resurslara çıxışını təmin etmək üçün zəngin kitabxana fondu və xidmətləri mövcuddur. Bu xidmətlər yalnız universitet müəllim və tələbə heyətinə deyil, həmçinin geniş ictimaiyyət üçün də əlçatandır. Ümumilikdə pandemiya dövründə istifadəçi qeydiyyatının dinamikasında eniş olsa da 2021-ci ildən davamlı artım müşahidə

edilməkdədir. Kitabxana resurslarının dövriyyəsi, eyni zamanda müəssisənin tələbə və akademik heyətin sayına nisbətdə xidmət imkanlarında da son illər ərzində müsbət dinamika müşahidə edilir. Bundan başqa tədris dillərinə uyğun kitab fondunun da artım dinamikası müşahidə edilir. Pandemiya dövrü ilə əlaqədar olaraq 2020-2021 illər ərzində çap informasiya resursların komplektləşdirilməsi və istifadəsi kəskin sürətdə azalmışdır. Nəticədə elektron informasiya resurslarının isitfadəsində ciddi artım olmuşdur. Elektron informasiya resurslarının istifadə dinamikasında artım davam etməkdədir.

Təlim və tədris resurslarının təkmilləşdirilməsi və texniki dəstəyin göstərilməsi məqsədilə İT xidmətləri şöbəsi fəaliyyət göstərir. Sağlamlıq imkanları məhdud şəxslər üçün kampusda müvafiq infrastruktur mövcuddur. Belə ki, panduslar, avtomatik açılan qapılar, liftlər, sanitar qovşaqları vardır.

"ADA" Universitetində oxuyan tələbələrin çox zəngin tələbə həyatı vardır. Mövcud olan müxtəlif tələbə klubları, tələbələr tərəfindən keçirilən sosial layihələr onların həmçinin vətəndaşlıq məsuliyyəti hissinin təşviq edilməsinə dəstək göstərir. Bundan əlavə kampusda idman sahələri və avadanlıqları tələbələrin asudə vaxtlarını sağlam və səmərəli keçməsini təmin edir.

Dərslər zamanı çətinlik çəkən tələbələr üçün həm akademik, həm psixoloji dəstək xidmətlərini həyata keçirən Tələbələrə Akademik Dəstək şöbəsi fəaliyyət göstərir. İl boyu tələbələrə təlimlər və praktiki məşğələlər tələbələrə müntəzəm olaraq göstərilir. Bundan başqa ən çox çətinlik çəkilən fənlər üzrə xüsusi sessiyalar təşkil edilir ki, bu da tələbələrin akademik göstəricilərinə müsbət təsir edir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### 3.6. *Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi*

"ADA" Universitetində təhsilalanların bilik və bacarıqların qiymətləndirilməsi “Tələbələrin Qiymətləndirilməsi Qaydaları” sənədində öz əksini tapmışdır. Belə ki, qiymətləndirmə prosesində müxtəlif növ qiymətləndirmə üsullarından istifadə olunur. Həmçinin, tələbələr əldə etdikləri səriştələri müxtəlif növ qiymətləndirmə tapşırıqları vasitəsilə nümayiş etdirmək imkanına malikdrilər. Bu qaydalar müxtəlif formalarda (üz-üzə, onlayn və ya qarışıq) tədris olunan bütün fənlərə aiddir. Qiymətləndirmə üsulları bunlardır: kriteriyalara əsaslanan qiymətləndirmə, diaqnostik qiymətləndirmə, formativ qiymətləndirmə, summativ qiymətləndirmə, özünüqiymətləndirmə.

**Kriteriyalara əsaslanan qiymətləndirmə:** bütün fənlər üzrə qiymətləndirmə öncədən müəyyən olunmuş və kurs sillabusu vasitəsilə tələbələrə məlumatlandırılmış kretiriyalar əsasında aparılır. Bura test, yazılı və ya şifahi qiymətləndirməni nümunə göstərmək olar.

**Diaqnostik qiymətləndirmə:** Bu qiymətləndirmə tələbələrin bilik səviyyəsini ölçmək üçün fənnin tədris olunması prosesinin əvvəlində aparılır. Burada auditoriya daxilində müzakirələr, qısa testlər kimi nümunələr gətirmək olar.

**Formativ qiymətləndirmə:** Bu qiymətləndirilmə növü tələbələrin məlumatların cari mənimsəmə səviyyəsini ölçmək məqsədilə fənnin tədrisi prosesi zamanı təşkil olunur ki. Bura aralıq imtahanları, qısa yazı işləri, esse kimi müxtəlif qiymətləndirilmə üsullarını göstərmək olar.

**Summativ qiymətləndirmə:** Semestrin sonunda tələbələrin bilik səviyyəsini ölçmək məqsədilə aparılır. Yazılı və ya şifahi imtahan, fərdi və yaxud qrup işi kimi nümunələri göstərmək olar.

**Özünüqiymətləndirmə:** Tələbələrin tədris prosesində özlərinin öyrənmə səviyyəsinin ölçməsinə xidmət edir.

Qiymətləndirmə meyarları və rubrikaları hər bir fənn üçün müəllim tərəfindən müəyyən edilir və tələbələrə Blackboard tələbə elektron sistemi vasitəsilə çatdırılır. Qeyd etmək lazımdır ki, qiymətləndiriləcək tapşırıqların heç biri fənn üzrə yekun qiymətin 40%-dən artıq ola bilməz. Mövcud olan müxtəlif qiymətləndirmə üsulları araısnda cari və aralıq qiymətləndirmə yer alır. Bu imtahanlar keçirilmiş materiallar üzrə müvafiq fənlərin spesifikliyini nəzərə alaraq şəffafflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında aparılır. Həmçinin, müəllimlər mütəmadi olaraq tələbələrə qiymətləndirdikləri tapşırıqlar üzrə geridönüş etməkləri gözlənilir. Bu proses təlim və tədrisin inkişafı, qiymətləndirmənin əsaslandırılması, tələbələrin zəif və güclü tərəflərinin müəyyənləşdirilməsi və ümumilikdə növbəti tapşırıqları daha da uğurlu tamamlamaqlarına xidmət edir. Həmçinin, qiymətləndirmə prosesində istifadə edilən metodlardan biri də tələbələrin özlərini qiymətləndirməsidir. Xüsusilə qrup işləri çərçivəsində tələbələrin qrup üzvlərinin aktivliyini və töhfəsini qiymətləndirmək şansları vardır. Fənn üzrə komponent qiymətləri Blackboard elektron platformasında, yekun qiymətlər isə Banner platformasına inteqrasiya edilir və sonra tələbənin transkriptində yer alır. Sağlamlıq imkanları məhdud olan tələbə olmadığına görə xüsusi qiymətləndirmə üsulları da mövcud deyildir.

Təhsil müddətinin sonuncu ilində həm bakalavr, həm magistr dərəcəsi üzrə tələbələr yekun buraxılış işi və ya magistr diplom işini tamamlamalıdırlar. Yekun buraxılış işi (Capstone

project) hər bir fakültə üzrə müəyyənləşdirilən praktiki araşdırmanı ehtiva edir. Tələbələr layihənin sonunda şura qarşısında təqdim edərək işlərini müdafiə edirlər.

Magistratura üzrə diplom işini yazmaq üçün tələbələr ilk ilin sonunda Araşdırma İstiqamətini (Research Track) seçə bilərlər. Diplom işini yazan tələbələrdən gözlənilir ki, onlar sərbəst və yenilikçi araşdırma nəticələri ilə çıxış etsinlər. Diplom işinin müdafiəsi şura tərəfindən qiymətləndirilir.

Yekun layihə və diplom işinin şərtləri və tələbləri Akademik Kataloq sənədində öz əksini tapmışdır ki, bu da müvafiq məlumatların tələbələr üçün əlçatanlığını təmin edir.

Bilik və bacarıqların qiymətləndirilməsi prosesinin təhlili semestrin sonunda Dekanlar Şurasında müzakirə edilir. Belə ki, qiymətləndirmənin hesabatı və semestr sonu tələbələr tərəfindən keçirilən fənin qiymətləndirilməsi sorğusunun nəticələri müzakirə edilir. Təhsil səviyyəsini bitirən tələbələrə qanunvericilik tərəfindən tənzimlənən qaydada dövlət nümunəli təhsil sənədi təqdim edilir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### *3.7. Professor-müəllim heyəti və inzibati-texniki işçilər*

Akademik heyətin işə qəbulu, habelə yüksəliş və digər təyinatların proseduru Akademik Heyət haqqında qaydalar kitabçasında öz əksini tapır. Həmin sənəd Universitetin rəsmi veb saytında yer almış və beləliklə hər kəs üçün əlçatanlığı təmin edilmişdir. Universitetdə baş müəllimlər üçün hər tədris ili üçün standart tədris yükü hər biri 6 kreditdən az olmayaraq altı (6) fənn, dosent və professorlar üçün isə hər biri 6 kreditdən az olmayaraq beş (5) fənn təşkil edir. Müəllim və baş müəllim üçün standart tədris yükü hər biri 6 kreditdən az olmayaraq səkkiz (8) fənndən ibarətdir. Akademik məqsədlər üçün ingilis dili proqramı (English for Academic Purposes Program, bundan sonra EAPP) proqramının müəllimləri üçün standart tədris yükü 525-540 saatdır. Müqavilə növündən asılı olaraq 450 saat standart tədris yükü və 75 saat əlavə tədris yükü formasında ola bilər. Tədris yükünü təyin edərkən dekan kurrikulumun hazırlanması, tezislərə və təcrübə proqramlarına rəhbərliyi, peşəkar təşkilatlarda xidməti, xüsusi cəmiyyətlərdəki və universitetdəki əlavə xidmətləri nəzərə alınır. Habelə, dərsə qeydiyyatdan keçmiş tələbə sayı, yeni fənn üçün hazırlıqların sayı, qiymətləndirilən işlərin miqdarı və sayı, komanda formasında tədris, sərbəst iş və dissertasiyalar, tədris olunan magistr fənnlərinin saatı, qeydiyyatdan keçmiş rəhbərlik etdiyi dissertasiyaların sayı da tədris yükü təyin edilərkən nəzərə alınır.

Universitet professor-müəllim heyətinin beynəlxalq səviyyədə peşəkar inkişafını fəal şəkildə dəstəkləyir və maliyyələşdırır. Belə ki, aşağıdakı məqsədlər üçün maliyyələşdirilmə aparılır:

1) Peşəkar təlim və seminarlarda iştirak
2) Peşəkar lisenziyaların və ya sertifikatlaşdırma haqlarının ödənilməsi
3) Peşəkar təşkilarlara üzvlük

Fəaliyyətin və ya nailiyyətin başa çatmasından sonra 30 gün ərzində Akademik İşlər üzrə Prorektora fəaliyyətin başa çatması ilə bağlı müvafiq hesabat təqdim edilir.

Universitetin tam ştatlı professor-müəllim heyəti ERASMUS+ Tədris üçün kadrların mübadiləsi layihəsi çərçivəsində xaricdəki əməkdaş ali təhsil müəssisələrində dərs demək imkanına malikdirlər. Bununla, akademik heyət tədris keyfiyyətini təkmilləşdirir, öz fənnin əhatə dairəsini və məzmununu genişləndirir və zənginləşdirir, pedaqoji metodlar üzrə təcrübə mübadiləsini reallaşdırır.

Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldiməsini stimullaşdıran bir neçə performans mükafatlandırmaları vardır. "Ən yaxşı müəllim" mükafatı akademik fəaliyyət zamanı müstəsna performansa, xüsusi  nailiyyətlərə görə verilir.

"Ən yaxşı müəllim və alim" mükafatı tədris və tədqiqat üzrə yüksək nailiyyətlərə görə fərqlənən bir müəllimə verilir.

"Tədqiqat və inkişaf" fondu – yeni müəllimləri həvəsləndirmək, həmçinin professor - müəllim heyətinin peşəkar inkişafını dəstəkləmək, tədqiqat fəaliyyətlərini həyata keçirmələri üçün xüsusi maliyyə mənbəyi olan daimi fond məqsədini daşıyır.

Fakültə üzrə orta hesabla hər müəllimə düşən tələbə sayı 20 nəfər təşkil edir.

Tədris prosesində iştirak edən bütün baş müəllim və dosent vəzifəsində çalışanların əsas iş yeri "ADA" Universitetidir. Praktiki fənlərin tədrisi üçün isə daha çox kənardan cəlb edilən müəllimlər həyata keçirir. Bu onunla bağlıdır ki, sözügedən müəllimlər sahələri üzrə ən öndə olan şirkətlərdə və ya qurumlarda çalışır və bununla öz  təcrübələrini tələbələrə ötürə bilirlər.

Akademik heyətin qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əmək haqqı sistemi tətbiq edilir. Belə ki, differensiallaşdırılmış əmək haqqı Tədqiqat Mükafatı Proqramı çərçivəsində aparılır və müəllimlərin elmi tədqiqat fəaliyyətini təşviq etmək məqsədini daşıyır.

Müəllim-professor heyətinin orta hesabla 80 faizi müxtəlif ölkələrin nüfuzlu ali məktəblərində təhsil almışlar.

| |
|---|
| |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### *3.8. Tələbəyönümlü tədris*

Hər bir tələbə semestr başlamadan 2-3 ay öncə onlayn şəkildə qeydiyyatdan keçərək fərdi tədris planını tərtib edir. Bunun üçün hər bir ixtisas üzrə müvafiq Tədris Proqramı (Program of Study) sənədində öz əksini tapmış fənlərin siyahısı, hər bir fənn üzrə seksiyaların sayı, tədris edəcək müəllimlərin adı, fənnin semestr boyunca olan cədvəli fakültələr tərəfindən Tələbə Qəbulu və Qeydiyyatı şöbəsinə öncədən təqdim edilir. Bu məlumatlar müvafiq olaraq Banner elektron platformasına köçürülür və tələbələr tərəfindən elektron qeydiyyat zamanı seçim etmələri üçün istifadəyə verilir. Tələbələrin seçmə fənlər üzrə sərbəst seçim etmələri üçün bir neçə fənn təklif olunur. Bundan başqa əsas fənn bloku üzrə dərslərin seksiyalarını da öz cədvəllərinə uyğun seçə bilirlər. Bu prosesdə tələbələrə akademik məsləhətçilər köməklik göstərirlər.

Semestrin sonunda hər bir fənn üzrə tələbələrə dərs yekunu sorğusu keçirilir ki, bu sorğu vasitəsilə onlar dərsin səmərəliyini, tədris metodlarını və materiallarını, və s. kimi istiqamətlər üzrə qiymətləndirmə aparırlar. Daha sonra bu sorğunun nəticələri Dekanlar Şurasında və fakültələrdə müzakirə edilir və müvafiq nəticələr çıxarılır.

Digər bir sorğu tədrisin sonunda keçirilir ki, burada tələbələr ümumiyyətlə təhsil aldıqları müddət ərzində aldıqları təhsili və təcrübəni qiymətləndirirlər.

Tələbə və məzunlarla keçirilən sorğular vasitəsilə ortaya çıxan təkliflər əsasında kurrikuluma yenidən baxılaraq müəyyən dəyişikliklər edilə bilir, məsələn sərbəst seçmə fənlər əlavə edilir.

Sorğulardan əlavə tələbələrlə mütəmadi görüşlər keçirilir, onların fikir və təklifləri toplanılır və təhlil edilir. Belə ki, "ADA" Universitetində tələbə hökuməti vasitəsilə həm bakalavr, həm magistratura dərəcəsi üzrə təhsil alan tələbələr fikir və təkliflərini universitet administrasiyasına çatdıra bilirlər. Bundan başqa, universitetin keyfiyyət Təminatı Komitəsində həm bakalavr, həm magistr tələbəsi iştirak edir. Bu da tələbələr tərəfindən daxili keyfiyyət mexanizmləri, akademik heyət və digər məsələlər haqqında tələbə rəyini bildirməyə platforma yaradır.

Həmçinin, təhsilalanların müəllim və ya hər hansı akademik şöbəsinə dair müvafiq şikayətləri olduğu zaman onlar Akademik Şikayətlər siyasəti sənədində əks olunmuş qaydada müraciət edə bilərlər. Şikayətlərin baxılması qeyri-formal və formal şəkildə həyata keçirilir. **Qeyri-formal**: ilk növbədə tələbə və müəllim qeyri-formal olaraq məsələni

müzakirə edərək həll etməyə çalışmalıdırlar. Məsələ öz həllini tapmazsa, hər iki tərəfin haqqı var ki dekan tərəfindən müəyyən edilmiş üçüncü tərəf cəlb olunsun. **Formal**: bu zaman tələbə yazılı şəkildə müvafiq akademik quruma (fakültəyə) müraciət edərək, məsələni mövcud dəlillər ilə ətraflı şəkildə izah edir. Məsələnin baş verdiyindən üç iş günü ərzində yazılı müraciət olunmalıdır. Daha sonra fakültədə Akademik Şikayətlər üzrə Şura çağırılır. Əgər şikayət olunan müəllim şuranın üzvüdürsə, o zaman digər bir müəllim onun yerini alır. Ümumilikdə şura 3 müəllimdən ibarət olur. Şikayət edən tələbə həmçinin şura qarşısında da çıxış etməli və öz şikayətini bildirməlidir. Əgər tələbə şuranın iclasına üzrlü səbəb olmadan gəlməzsə, o zaman məsələnin araşdırılması dayandırılır. Şura məsələni dinlədikdən sonra qapalı şəkildə müzakirələr aparır və yazılı sürətdə öz qərarını çıxarır. Qərar səsvermə yolu ilə çıxarılır.

"ADA" Universitetində tədris olunan hər bir ixtisas üzrə təhsilalanların inkişafına və akademik məsələlərin həllinə dəstək göstərən akademik məsləhətçilər vardır. Onlar tələblər ilə rəsmi email, üzbəüz və online görüşlər vasitəsilə əlaqə saxlayırlar. Akademik məsləhətçilər tələbələrin dərslərə qeydiyyatı, kreditlərin transfer olunması, xarici ölkədə mübadilə proqramına qoşulmaq üçün müvafiq fənlərin seçilməsi, zamanında məzun olmaq üçün müvafiq kredit borclarını bağlaması üçün tələbələrə məsləhətlər verir və köməklik göstərməyə çalışırlar.

Sağlamlıq imkanları məhdud, həmçinin xüsusi qayğıya ehtiyyacı olan şəxslərin cəmiyyətə inteqrasiyası prosesini əhatə edən qrup işləri və tələbə klubları vardır. Bu layihələr hər il keçirilən Hacı Zeynəlabdin Tağıyev mükafatı uğrunda müsabiqədə iştirak edir. Müsabiqənin əsas məqsədi tələblərin sosial məsuliyyət və vətəndaşlıq hissini təşviq etməkdir. (https://www.ada.edu.az/en/news/522-call-for-applications-haji-zeynalabdin-taghiyev-award-2023)

Sosial həssas qrupuna aid edilən tələbələr, yəni məcburi köçkün statusunda olan insanların övladları, müharibə veteranı övladları, valideyn himayəsindən məhrum edilmiş insanlar, sağlamlıq imkanları məhdud insanlar və şəhid övladları təhsillərinin təhsil haqqından azad edilirlər. Bundan başqa universitetə qəbul zamanı yüksək nəticə göstərən tələbələr Prezident təqaüdünə, universitetin daxili təhsil haqqı güzəştlərinə, seçilmiş Respublika Fənn Olimpiadası və beynəlxalq olimpiada qalibləri isə müxtəlif təhsil haqqı güzəştlərinə layiq görülürlər.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*3.9. Təhsil proqramlarının monitorinqi və yenilənməsi*

| |
|---|
| Təhsil proqramlarının monitorinqi daxili keyfiyyət mexanizmləri tərəfindən tənzimlənir. Bu proses Akademik keyfiyyət təminatı siyasəti sənədinin bir parçası olaraq Keyfiyyət Təminatı Siyasəti: Akademik Proqram və Təlim Nəticələri sənədində öz əksini tapır. Təlim nəticələrinin əldə edilməsi fakültələr daxilində müzakirə edilir hər ilin sonunda Keyfiyyət Təminatı Komitəsinə hesabat göndərilir. Həmin hesabatda fənn və ixtisas üzrə təlim nəticələrinin əldə edilməsi, habelə institusional təlim nəticələrinə uyğunluq dərəcəsi göstərilir. Komissiya iclasında bunları müzakirə edir və müvafiq gələcək addımlar və tövsiyələr ilə çıxış edə bilir. Hal-hazırda Akademik Keyfiyyət Təminatı siyasəti icra mərhələsində olduğuna görə, mövcud fəaliyyət planı Akademik Məqsədlər üçün İngilis Dili və Ümumi Təhsil proqramları üzrə aparılır. Belə ki, sözügedən proqramların təlim nəticələri müvafiq olaraq yenilənir və bu proses gələcəkdə bütün fakültə və ixtisaslar üzrə aparılacaqdır.<br>Təhsil proqramlarının monitorinqi nəticəsində, habelə tələbə və məzunlardan, professor-müəllim heyəti tərəfindən verilən təkliflər əsasında tədris olunan proqramlar əmək bazarının və cəmiyyətin tələblərinə uyğun olaraq yenilənə bilər. Tədris proqramlarının yenilənməsi Təhsil Proqramların İnkişafı və Modifikasiyası sənədi əsasında aparılır. Belə ki, mövcud proqramlara yeni fənlərin əlavə edilməsi, praktiki bacarıqların artırılması məqsədilə yeni seçmə fənlərin təklif edilməsi kimi proseslər həyata keçirilir. |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*3.10. Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi*

| |
|---|
| "ADA" Universitetində tələbələrin gələcək karyerasını uğurlu olması üçün çalışan Karyera Mərkəzi və hər bir fakültə üzrə karyera məsləhətçisi mövcuddur. Mərkəzin göstərdiyi xidmətləri arasında CV və motivasiya məktubunun tərtib edilməsi, intervyu zamanı davranış, sınaq müsahibələr, karyera imkanlarını genişləndirmək üçün müvafiq bacarıq və səriştələrin inkişafı üzrə təlimlər, ənənəvi karyera sərgisi və əmək bazarının müxtəlif sektorlarından olan nümayəndələr ilə görüşlər, panel iclaslar, təlimlər kimi fəaliyyətləri göstərmək olar. Hər il ənənəvi olaraq Karyera həftəsi və Karyera yarmarkası keçirilir. Karyera yarmarkasında ölkənin ən qabaqcıl şirkətləri və təşkilatları müvafiq qurumlarında mövcud vakansiyaları paylaşır və tələbələrə iş tapmaq imkanını yaradırlar. Həmçinin Karyera yarmarkası ilə bərabər Karyera Təlimləri keçirilir. Bu təlimlərdə tələbələrə əmək bazarının əm son tələbləri öyrədilir, onların bacarıqları inkişaf etdirilir. Bu təlimlər şirkət |

nümayəndələri tərəfindən keçirilərək tələbələrə şərait yaradılır ki, onlar müvafiq məlumatları birbaşa olaraq əldə edə bilsinlər.

Bunlardan başqa, daim vakansiyalar ilə yenilənən CareerLink elektron platforması mövcuddur ki, hər bir təhsilalanın orada öz şəxsi kabineti vardır. Tələbələr şəxsi kabinet vasitəsilə vakansiyalara birbaşa müraciət edə bilər. Həmçinin, tələbələr ilə fərdi görüşlər keçirilir və onlara ehtiyac əsasında karyera məsləhət xidmətləri göstərilir.

Məzunların əmək bazarında iştirakını öyrənmək məqsədilə isə hər il məzunlarla sorğu keçirilir. Bundan əlavə, həmin sorğu vasitəsilə məzunlar təhsil müddəti ərzində qazandıqları səriştə və bilikləri qiymətləndirə bilirlər. Məzunlarla daimi əlaqə saxlamaq üçün universitetin Məzunlarla əlaqələr şöbəsi vardır. Keçirilən sorğulardan başqa həmçinin müxtəlif formatda və istiqamətdə tədbirlər təşkil olunur. Belə ki, hər il ənənəvi olaraq Məzunlar Forumu keçirilir. Burada müxtəlif mövzular müzakirə edilir, təlimlər və fokus-qruplar təşkil edilir. 2022-ci ildə isə ilk dəfə olaraq beynəlxalq məzunlar forumu Budapeşt şəhərində təşkil edilmiş və 100-dən artıq məzun bu forumda iştirak etmişdir.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 4. ELMİ TƏDQİQAT

### *4.1. Elmi-tədqiqat strategiyası*

"ADA" Universitetinin strateji məqsədlərində elmi-tədqiqat da öz yerini almışdır. Prosesin daha detallı təsviri, keyfiyyət meyarı və təlimatları “Akademik keyfiyyət təminatı standartları və təlimatı” sənədində öz əksini tapmışdır. Belə ki sənədə əsasən, aparılan tədqiqatlar "ADA"-nın strateji baxışı, məqsədləri, akademik prinsipləri və əsas dəyərlərinə riayət etməli və onlara xidmət etməlidir. Elmi-tədqiqat prosesinin təşkili və inkişafı istiqamətlərinin müəyyənləşdirilməsi prosesində müxtəlif maraqlı tərəflərin iştirakı nəzərdə tutulmuşdur. Belə ki, Akademik İşlər üzrə Prorektor, Tədris şöbəsi və müxtəlif fakültələrin müəllimlərin fikir və təklifləri nəzərə alınmışdır.

Elmi-tədqiqat prosesini təşviq etmək məqsədilə Universitet müvafiq tədqiqat prosesi üçün əlverişli mühit və şərait yaratmalıdır. Bunun üçün Universitetin tədqiqatçılara akademik azadlıq vermək, tədqiqatın elmi-pedaqoji heyətin hüquq və vəzifələrinin bir parçası olmasını təmin etmək, maliyyələşdirmə və mükafatlandırma prosedurunu tətbiq etmək, elektron resurslara çıxışı və tədqiqatçılara təlim və akademik dəstək imkanlarını təmin etmək, tədqiqat layihələrini və onların nəticələrini mütəmadi olaraq qiymətləndirmək kimi öhdəlikləri vardır. Tədqiqatçılar isə öz növbəsində onlara təqdim edilən dəstəyin məqsədə müvafiq qaydada istifadə etdiklərinə dair hesabat təqdim etməlidirlər. Universitetdə çalışan

dosent və baş müəllim statusunda olan elmi-akademik heyyət üzvlərinin elmi araşdırma fəaliyyəti ilə məşğul olması və nəticələri impakt-faktorlu jurnallarda nəşr edilməsi onların əmək müqaviləsinin bir parçası olaraq qeyd edilir.

Son illər ərzində aparılan tədqiqatlar İqtisadiyyat, Maliyyə, Beynəlxalq Münasibətlər, Siyasi Elmlər, Kompüter Elmləri kimi istiqamətlərdə olmuşdur. Bu istiqamətlər universitetdə tədris olunan ixtisasları əhatə edir və beləliklə tədqiqat ilə tədrisin inteqrasiyası baş tutur. Həmçinin, bu proses həm də müvafiq akademik fənlər daxilində biliklərin inkişafına və Universitetdə aparılan tədris və təlimin təkmilləşdirilməsinə xidmət edir. Bütün fakültələrin professor-müəllim heyəti həm yerli, həm xarici tədqiqatçılarla birgə elmi-tədqiqat layihələrini həyata keçirə bilərlər və həmin layihələr "ADA" Universitetin elmi-tədqiqat məqsədlərinə, istiqamətlərinə və strateji baxışına uyğun aparılmalıdır.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### 4.2. *Tədqiqat resursları*

Elmi tədqiqatın aparılması üçün Universitet tərəfindən müxtəlif istiqamətlərdə işlər aparılır. Belə ki, bunun üçün lazım olan maddi-texniki resurslar səfərbər olunur. Elmi fəaliyyətin təşviqi məqsədilə Universitetdə Tədqiqat və İnkişaf Fondu yaradılmışdır. Universitetin qaydalarına əsasən, dosent və baş müəllim statusunda çalışan müəllimlər tədqiqat üçün ayrılan maddi dəstəkdən yararlana bilərlər. Prosedurlar öz əksini Elmi Tədqiqat və İnkişaf Fondunun əsasnaməsində tapır. Bu maddi dəstək həm tədqiqat işinin aparılması, həm də müxtəlif beynəlxalq elmi konfranslarda iştirak üçün nəzərdə tutulmuşdur. Belə ki, verilən məbləğ tədqiqatın aparılması zamanı istifadə oluna bilər. Məsələn keçirilən sorğu və ya aparılan eksperiment üçün, xüsusi avadanlığın və yaxud proqram təminatının alınması üçün və ya məlumatların toplanılması və qiymətləndirilməsi üçün xərclənə bilər. Həmçinin, aparılan tədqiqat nəticələrinin impakt-faktorlu jurnalda dərc edilməsi üçün lazımi xərcləri qarşılaya bilər. Və ya tədqiqatçının elmi məqaləsinin təqdim etmək məqsədilə beynəlxalq konfransda iştirakını dəstəkləyə bilər.

Fondun təklif etdiyi qrantlardan yararlanmaq üçün müəllim tədqiqat layihəsini (research proposal) təqdim etməlidir və həmin layihə onun tədris etdiyi istiqamətə uyğun olmalıdır. Beynəlxalq konfransda iştirak üçün isə elmi-akademik heyətin üzvü kəmin konsfransın ümumi təsviri, təşkilatçılar tərəfindən elmi nəticələrinin qəbulunun təsdiqi, tədbir zamanı istifadə ediləcək təqdimatın nüsxəsi kimi sənədləri öncədən təqdim etməlidir. Hər fakültənin dekanı təqdim edilən sənədləri Tədris İşləri üzrə Komitəyə təqdim edir. Komitə

Dekanın iştirakı olmaqla hər bir təqdim edilən sənədi nəzərdən keçirir və müvafiq olaraq qiymətləndirir. Qiymətləndirilmənin əsasında seçim aparılır və uğurla keçən layihələr Akademik İşlər üzrə Prorektora qərar verilməsi üçün təhvil verilir (müvafiq tövsiyələr daxil olmaqla) Prorektor isə bütün məlumatları nəzərə alaraq yekun qərarı çıxarır.

Qrantlardan yararlanan akademik heyətin üzvləri layihənin bitməsindən 30 gün ərzində Akademik İşlər üzrə Prorektora hesabat təqdim etməlidirlər. Bu hesabatda aparılan işlər və xərclənən vəsaitlərin detallı təsviri təqdim edilməlidir.

Bunlardan başqa universitetin elmi araşdırmalar potensialını təşviq etmək məqsədilə tədqiqat seminarları (research seminars) təşkil edilir və dəstək olunur. Hər fakültə üzrə 5000 azn dəyərində bu seminarların təşkili üçün vəsait ayrılır. Bu məbləğ digər xarici bir universitetdən hər hansı bir alimi və ya tədqiqatçının dəvət olunması və universitetdə təqdimat, mühazirə, müzakirələrin aparılması üçün xərclənə bilər. Bu qrantlar həmçinin müxtəlif beynəlxalq müəssisə və təşkilatlarla elmi-tədqiqat prosesinin və əməkdaşlıq əlaqələrinin inkişafına təkan verir.

Hər fakültə üzrə aparılan elmi-tədqiqatların, həmçinin aktiv elmi tədqiqatla məşğul olna professor-müəllim heyətinin mövcudluğunu izləmək üçün tədqiqat hesabatı aparılır. Belə ki, həmin hesabata əsasən son illər ərzində çap edilən məqalələrində artım dinamikası müşahidə edilir. Belə ki, 2019-2020-ci akademik il ərzində 54 məqalə çap edilmişdirsə, 2021-2022-ci ildə bu rəqəm artaraq 85-ə çatdırılmışdır.

Gənc tədqiqatçıların təşkilatlanması məqsədilə "ADA" Universiteti daxilində PhD dəstək şöbəsi yaradılmışdır. Hazırki əmək bazarının tələblərinə uyğun olaraq kənd təsərrüfatı, həmçinin dizayn, şəhərsalma və arxitektura kimi istiqamətlərinə yeni nəsil elmi-tədqiqatçıların yetişdirilməsi məqsədilə 2023-cü ildə İtaliyanın aparıcı universitetlərində PhD təhsil almaq imkanları yaradılmışdır. (https://ada.edu.az/en/news/486-call-for-apllication-phd-study-opportunity-2023)

Tədqiqat işinin aparılması və təşviqi üçün müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi bazalarına çıxış təmin edilmişdir. Belə ki, son beş il ərzində "ADA" Universiteti kitabxanası Heinonline, Jstor, ProQuest, One Business, Taylor & Francis, Chronicle of Hıgher Education, Columbia İnternational Affairs Online, Journal of Convex Analysis və s. kimi elektron tammətnli elmi/akademik dövrü mətbuat (individual və toplu) mənbələrinə, habelə ProQuest Ebook Central kimi elektron tammətnli elmi/akademik kitablar bazasına, elektron tammətnli və statistik verilənlər/hesabatlar: Statista, Clarivate Analytics-Web of Science Group bibliometrik verilənlər bazasına abunə olmuşdur. Bütün tələbə, müəllim və inzibati heyətin göstərilən elmi mənbələrə çıxışı tam təmin edilmişdir.

Nəticəyönümlü elmi fəaliyyətin stimullaşdırılması məqsədilə həyata keçirilən digər bir təşəbbüs isə Tədqiqatın Mükafatlandırılması proqramıdır. Belə ki, qaydalara əsasən bu layihə davamlı və fəal şəkildə və beynəlxalq tələblərə cavab verən tədqiqat fəaliyyəti ilə məşğul olan professor-müəllim heyətini həvəsləndirmək və dəstəkləmək üçün yaranmışdır. Bu proqram yalnız tam ştatlı müəllimlər üçün nəzərdə tutulub. Nəşrlər yalnız aşağıdakı meyarlardan birini yerinə yetirdikdə mükafatlandırıla bilər:

- SSCI (Social Sciences Citation Index), SCI (Science Citation Index) və ya SCIE (Science Citation Index Expanded) indeksli jurnalda dərc olunan tədqiqat məqaləsi
- A kategoriyasında (Cambridge University Press, Oxford University Press, Harvard University Press və s.) ya B kateqoriyasında (Palgrave Mcmillan, Routledge, Cornell University Press və s.) sadalanan nəşriyyatlardan biri ilə nəşr olunmuş kitab.

"ADA" Universitetinin elmi-tədqiqat fəaliyyətinin təşviqi üçün müxtəlif beynəlxalq elmi qrant layihələrdə iştirak edir. Bunların arasında Jean Monnet Chair, COMPASS, PRAnet kimi nüfuzlu qrant layihələrini göstərmək olar. Bu kimi qrant layihələrdən gələn gəlirlərin təhlili zamanı görmək olur ki, istisna hal olaraq 2020-ci ildə baş verən pandemiya səbəbindən gəlirlərin azalması müşahidə edilsə də, digər illər üzrə müqayisə aparıldıqda artım dinamikası izlənilir. Belə ki, 2020-ci ildə bu məbləğ 2 milyon AZN civarında olsa da, 2022-ci ildə bu rəqəm 9 milyon manata qədər çatdırılmışdır.

Elmi tədqiqat sahəsində əməkdaşlıq yuxarıda göstərilən qrantlar çərçivəsində dünyanın bir neçə elmi müəssisəsi ilə aparılmaqdadır. Misal kimi COMPASS layihəsini göstərmək olar. Bu layihə Böyük Britaniyanın Kent və Cambridge universitetləri tərəfindən aparılırdı və Azərbaycan ("ADA" Universiteti), Belarus (Belarus Dövlət Universiteti), Tacikistan (Tacikistan Dövlət Universiteti) və Özbəkistan (Dünya İqtisadiyatı və Diplomatiyası Universiteti) ölkələrinin tərəfdaşlığını əhatə edirdi.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 4.3. *Elmi-tədqiqat fəaliyyəti*

Fakültələr üzrə elmi tədqiqat fəaliyyətinin izlənilməsi tədris şöbəsi tərəfindən aparılır. "ADA" Universitetində mütəmadi olaraq elmi-tədqiqat xarakterli konfranslar, seminarlar və görüşlər təşkil edilir. Bu cür tədbirlərdə gənc tədqiqatçıların cəlb edilməsi xüsusi önəm daşıyır. Bunlardan hər il keçirilən Beynəlxalq Təhsil Konfransını nümunə olaraq göstərmək olar. Konfransın əsas hədəflərdən biri xüsusilə də yerli və beynəlxalq təcrübəni bir araya gətirməkdir. Ümumi məqsəd ondan ibarətdir ki, Təhsil Nazirliyinin təhsil sahəsində

həyata keçirdiyi strategiya xəttinə paralel olaraq tədqiqata olan marağı artırmaq və ölkəmizdə tədqiqatın səviyyəsini beynəlxalq səviyyəyə çatdırmaqdır. Bu konfrans təhsil sahəsindəki ən son inkişaf tendensiyalarını, bu sahədəki problemləri müzakirə etmək üçün alimləri, müstəqil tədqiqatçıları, təhsil işçilərini və tələbələri bir araya gətirən bir elmi forumdur. Konfransda həm yerli həm də xarici mütəxəssislər iştirak edir. Müxtəlif qurumlar və müəssisələr də tərəfdaş olaraq çıxış edir. Konfransda iştirak etmək üçün gənc tədqiqatçılar Tədris və Öyrənmə, Qiymətləndirmə və Dəyərləndirmə, Təhsil Siyasəti, Tədqiqat kimi müxtəlif istiqamətlər üzrə məqalələrini öncədən göndərirlər. Bu məqalələr nəzərdən keçirilir və qiymətləndirilir. Uğurla keçən məqalələr konfrans zamanı müəllif tərəfindən təqdim edilir. Əgər 1-ci konfransa 25 tədqiqat işi təqdim olunmuşdursa, 4-cü konfransa 10-u xaricdən olmaqla 100-ə yaxın tədqiqat işi göndərilib.

Bundan başqa Universitetdə mütəmadi olaraq tədqiqat seminarları keçirilir və bunun üçün lazımi şərait yaradılır. Belə ki, fakültələrə müəyyən məbləğdə dəstək göstərilir ki, xarici alimləri gətirərək müxtəlif elmi istiqamətlər üzrə müzakirələr, fikir mübadiləsi, mühazirələr aparılsın. Bu cür seminarlar həmçinin beynəlxalq səviyyədə institusional əməkdaşlığın təşviqi üçün münbit platforma yaradır.

Həmçinin müxtəlif fakültələrdə tədqiqat yönümlü görüşlər və müzakirələr aparılır ki, onlar həm universiteti ictimaiyyəti, həm də geniş ictimaiyyətin iştirakı üçün əlçatandır. Buna nümunə olaraq İnformasiya Texnologiyaları İnstitutunda mütəmadi olaraq keçirilən SİTE Talks və Təhsil İnstitutu tərəfindən keçirilən EduDialogues layihələrini göstərmək olar. Belə ki, hər iki istiqamət üzrə gündəmdə olan mövzular, çağırışlar, yeniliklər müzakirə edilir və bu müzakirələr digər universitetlərin, müəssisə və təşkilatların nümayəndələri, gənc tədqiqatçılar və azad ekspertlərin iştirakı üçün açıqdır.

Bunlardan əlavə, tələbələrin də elmi-tədqiqat işləri dəstəklənir. Buna nümunə olaraq "ADA" Universiteti və Corc Vaşinqton Universiteti ilə birgə tədris edilən magistr proqramı tələbəsinin və İnformasiya Texnologiyaları və Mühəndislik İnstitutu müəlliminin birgə apardıqları tədqiqat işinin Tətbiqi Elmlər jurnalında dərc edilməsini göstərmək olar. (https://www.mdpi.com/2076-3417/13/1/479?fbclid=IwAR3tPrATLdmb4SSAAfBP7QUwLfsijWHSuOtwE2JVjvZKOF7zt30ZVmqUkxU)

Universitet həmçinin tərəfdaşlar ilə qrant layihələri həyata keçirir. Bunlardan ABŞ Azərbaycandakı Səfirliyi ilə birgə təşkil edilən Tədqiqat Üsulları üzrə təlimləri qeyd etmək olar. (https://ada.edu.az/en/news/480-call-for-course-participation-in-the-enhancing-research-culture-in-azerbaijan-program) Bu təlimlər “Azərbaycanda tədqiqat

mədəniyyətinin təşviqi" layihəsi çərçivəsində təşkil edilmiş və iştirakçılara ingilis dilində araşdırma aparmaq və elmi məqalələrin yazılması qaydalarını öyrətmək üçün təqdim edilmişdi. Təlim çərçivəsində Sosial Elmlərdə Tədqiqat Üsulları, Akademik Yazı və Statistik Təhlil kimi komponentlər tədris edilir. Bu təlimlər fəlsəfə doktoru, magistr tələbələri və gənc tədqiqatçılar üçün nəzərdə tutulmuşdu. Bundan əlavə ABŞ Azərbaycandakı Səfirliyi ilə digər bir layihə təşkil edilmişdir ki, regionlardan olan ali məktəb məzunları və gənc tədqiqatçıların Akademik Yazı və İngilis dili üzrə təlimlərin təşkil edilməsini əhatə edir. (https://ada.edu.az/en/news/481-call-for-course-participation-general-english-and-research-based-courses-for-regions)

Bundan başqa birgə tədqiqat fəaliyyətini və beynəlmiləlləşmə siyasətini təşviq etmək məqsədilə, "ADA" Universiteti müxtəlif universitetlərlə əməkdaşlığı gücləndirməyə çalışır. Bu istiqamətdə aparılan işlərin nümunəsi olaraq Böyük Britaniyanın Qlobal Çağırışlar Araşdırma Fondu (GCRF) tərəfindən Şərq Tərəfdaşlığı və Mərkəzi Asiya ölkələrində tədqiqatın inteqrasiyası və təşviqi məqsədilə maliyyələşdirilən COMPASS layihəsini qeyd etmək olar. Bu layihə Böyük Britaniyanın Kent və Cambridge universitetləri tərəfindən aparılırdı və Azərbaycan ("ADA" Universiteti), Belarus (Belarus Dövlət Universiteti), Tacikistan (Tacikistan Dövlət Universiteti) və Özbəkistan (Dünya İqtisadiyatı və Diplomatiyası Universiteti) ölkələrinin tərəfdaşlığını əhatə edirdi. Bu birgə layihə həmçinin 2021-ci ildə Times Higher Education tərəfindən "Ən yaxşı beynəlxalq tərəfdaşlıq" nominasiyası üzrə siyahıya alınmışdır.

Universitetdə tətbiq olunan Tədqiqatın Mükafatlandırılması proqramı elmi-pedaqoji heyətin apardıqları elmi araşdırılmalarının impakt-faktorlu jurnallarda dərc edilməsinə töhfə verir. Belə ki, SSCI (Social Sciences Citation Index), SCI (Science Citation Index) və ya SCIE (Science Citation Index Expanded) indeksli jurnalda dərc olunan tədqiqat məqaləsi və ya A kategoriyasında (Cambridge University Press, Oxford University Press, Harvard University Press və s.) ya B kateqoriyasında (Palgrave Mcmillan, Routledge, Cornell University Press və s.) sadalanan nəşriyyatlardan biri ilə nəşr olunmuş kitab sözügedən proqram çərçivəsində təltif edilir. Bir jurnalda dərc edilən məqalə üçün maksimal təltif məbləği 5000 azn təşkil edir. A kateqoriyasında dərc edilən kitab üçün 2500 azn, B kateqoriyasında dərc edilmiş kitab üçün isə 1500 azn məbləğində mükafat tətbiq edilir.

Tədqiqat mədəniyyətini və akademik yazı qabiliyyətlərini təşviq etmək məqsədilə Universitetdə tədris edilən proqramlar çərçivəsində müxtəlif fənlər təqdim olunur. Belə ki, bütün bakalavr tələbələri tədris aldıqları ilk il çərçivəsində Yazı işi və İnformasiya Savadlılığı fənni iki semestr boyunca keçirlər. Magistratura dərəcəsi üzrə isə Tədqiqat

üsulları kimi fənn tədris edilərək, elmi tədqiqatın aparılması, onun metodologiyası, elektron resurslardan istifadə kimi vacib istiqamətlər üzrə bilik və bacarıqlar öyrədilir. Bunlardan başqa, tədrisin sonunda həm bakalavr, həm də magistratura səviyyəsində tələbələr yekun layihə və ya dissertasiya işi hazırlamalıdır. Bu yekun layihə müvafiq istiqamət üzrə elmi araşdırmanı ehtiva edir. Bəzi ixtisaslar üzrə yekun layihələr geniş ictimaiyyətin iştirakı ilə təqdim edilir. Belə ki, Təhsil İnstitutunun magistr dərəcəsi üzrə təhsil alan tələbələr dissertasiya işini və yekun layihələri ənənəvi olaraq hər il keçirilən Beynəlxalq Təhsil Konfransı zamanı təqdim edirlər. Burada onlar təhsil sahəsində olan ən son tendensiyaları, çətinlikləri və yenilikləri araşdıraraq apardıqları elmi işləri müzakirə etmək üçün imkan qazanırlar.

Onu da qeyd etmək lazımdır ki, tədris boyunca fənlər üzrə qiymətləndirmənin strukturu ona məcbur edir ki, tələbələr tək imtahan deyil, həmçinin qrup işi, müstəqil iş, kiçik araşdırma layihəsi kimi komponentləri tamamlamaqla tədqiqat potensiallarını artırmaq imkanlarına sahiblənirlər.

Akademik heyətin tədqiqat və inkişaf bacarıq və səriştələrinin artırılması məqsədilə universitet tərəfindən peşəkar inkişaf qrantları ayrılır. Belə ki, bu qrantlar müəllimlərin peşəkar seminarlarda iştirak, peşəkar səriştələrin artırılması üçün sertifikatların əldə edilməsi və ya peşəkar təşkilatlarda üzvlük haqlarını qarşılamaq üçün dəstək göstərir. Sənədlərini təqdim edən akademik heyətin üzvü əsaslandırmalıdır ki, sözügedən layihədə iştirak nə dərəcədə onun peşəkar və/və ya elmi araşdırma potensialının inkişafına töhfə verəcəkdir. Fəaliyyətin monitorinqini aparmaq məqsədilə layihənin başa çatmasından 30 gün ərzində görülmüş işlər və əldə edilmiş nəticələr haqqında hesabat Akademik İşlər üzrə Prorektora təhvil verilməlidir.

Həmçinin müəllimlər sərbəst şəkildə müxtəlif konfranslarda, elmi-tədqiqat layihələrində iştirak edə, elmi məqalələr yaza bilərlər. Fakültələr üzrə elmi fəaliyyətin monitorinqini aparmaq məqsədilə Tədris İşləri şöbəsi tərəfindən hər ilin sonunda məlumatlar toplanılır (research output). Həmin sənəd müəllimin elmi jurnalda dərc etdiyi məqalələr, iştirak etdiyi elmi tədbirlər haqqında məlumatları əks elətdirir. Bu məlumatlara əsasən son illər ərzində istinadetmə indeksinin artımı müşahidə edilir. Belə ki, impakt faktorlu jurnallarda dərc edilmiş məqalələrin sayında artım müşahidə edilir. Belə ki, 2019-cu ildə 6 məqalə idisə, 2022-ci ildə artıq 26 məqalə impakt faktorlu jurnallarda çap edilmişdir.

Bundan başqa akademik heyətin üzvləri üçün Universitetin strateji hədəfləri nəzərə alınmaqla ERASMUS+ mübadilə proqramında iştirak etmək hüququ təqdim edilir. Belə ki, müəllimlər tədris və araşdırma imkanlarını genişləndirə, tərəfdaş universitetlərin müvafiq

fakültə üzrə müəllimləri ilə fikir mübadiləsi apara və gələcəkdə mümkün birgə layihələri müzakirə edə bilərlər.

Bütün bunlardan əlavə, Universitetin missiyasına uyğun olaraq 2022-ci ildə "ADA" Universitetində İnkişaf və Diplomatiya İnstitutu (İDD) yaradılmışdır. Onun məqsədi tək Azərbaycanda deyil, həmçinin beynəlxalq səviyyədə müxtəlif sahələr üzrə ekspert, tədqiqatçılar və siyasətçilər ilə əlaqələri qurmaq və genişləndirməkdir. Dünyanın aparıcı tədqiqat institutlarının təcrübəsi nəzərə alınaraq, İDD yüksək səviyyədə siyasi-yönümlü elmi tədqiqatların, beynəlxalq konfransların, brifinqlərin və digər müzakirələr üçün bir platforma olmağı hədəfləyir.

"ADA" Universitetində doktorantura dərəcəsi üzrə tədris aparılmasa da, keçən ildən etibarən doktorantura proqramlarının təşviq etməsi və nüfuzlu xarici universitetlərdə doktorantura üzrə dərəcə almış məzunların işə cəlb edilməsi üçün Universitetdə PhD üzrə Dəstək və İnkişaf şöbəsi yaradılmışdır. Bu şöbənin fəaliyyətinin bir parçası olaraq İtaliya-Azərbaycan Universiteti layihəsi çərçivəsində tərəfdaşlıq edilən universitetlərdə kənd təsərrüfatı, qida elmi və texnologiyası, dizayn, memarlıq və s. istiqamətlər üzrə namizədlərə PhD dərəcəsi alınması üçün şərait yaradılmışdır.

Ali təhsilin bütün səviyyələri üzrə tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayı 2019-2020-ci akademik ilində 5% təşkil edirdisə, cari ildə 16% təşkil edir. Elmi dərəcələrin alındığı istiqamətləri universitetin tədqiqat hədəflərinə uyğundur, çünki universitetin tədqiqat hədəfləri tədris edilən istiqamətlər üzrə müəyyənləşdirilir.

Elmi-tədqiqat fəaliyyətinin monitorinqi tədqiqat nəticələri (research output) hesabatı üzərindən aparılır və qiymətləndirilməsi dekan, tədris şöbəsi və Akademik Heyət üzrə Komitə tərəfindən aparılaraq “Görkəmli Müəllim və Alim” mükafatına layiq görülür. Hər il bu mükafat tədris və tədqiqat üzrə nailiyyət nümayiş etdirən "ADA"-nın professor-müəllim heyətinin üzvünə verilir.

"ADA" Universitetində doktorantura səviyyəsində təhsil aparılmadığına görə dissertasiyaların hazırlanması və təşkilinə dair məlumat mövcud deyil.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

4.4. *Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti*

"ADA" Universiteti təhsildə, elmi tədqiqatda və xidmətdə mükəmməlliyi təşviq edən tələbə cəmiyyəti, professor-müəllim heyəti, işçi heyəti və idarəedici heyətdən ibarətdir. Və bu cəmiyyətin hər bir üzvünün ən müasir şəraitə malik, mükəmməl mühitdə, ruhlandırıcı və dinamik öyrənmə prosesində iştirak etməsi üçün çalışır. Belə ki, onların akademik uğurlarına və nailiyyətlərinə dəyər verir və vurğulayır. Buna isə sadəcə şəxsi və qarşılıqlı akademik dürüstlüyün rəhbərlik etdiyi mühitdə nail olmaq mümkün olar. Şərəf Kodeksi akademik qaydaların və prosedurların siyahısını ehtiva edir ki bu tələbələrə, professor-müəllimlərə və idarəedici heyətə bu mövzuda bələdçilik edir. Akademik dürüstlük prinsipləri aşağıdakı kimidir:

1.Məqsədli olaraq yalan məlumat vermək, aldatma, üstünlük əldə etmək məqsədli saxtalaşdırma, fırıldaqçılıq nəticəsində yaranan nəticələr "ADA" Universitetində məqbul davranış deyil.

2.İmtahanların, testlərin və digər tapşırıqların yerinə yetirilməsi zamanı qaydaların pozulması, habelə icazəsiz yardımı qəbul etmək "ADA" Universitetində məqbul davranış deyil.

3.Başqasının əqli əməyini müəllifinə xüsusi bildiriş etmədən işlətmək və ya eyni məqaləni çap etmək məqbul davranış deyil.

Bütün tələbələr, professor-müəllim heyəti və idarəedici heyət pozuntuya yer verməyəcəyi ilə bağlı razılıq imzalayır.

Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı Turnitin proqramından istifadə olunur.

Pandemiya zamanı tələbələr arasında köçürmə hallarının qarşısının alınması ilə bağlı Respondus- lock down browser -dən istifadə olunurdu.

Qayda pozuntusuna şahid olan tələbələr, müəllimlər və ya işçilər bu barədə vaxt itirmədən Dekana detallı formada yazılı və ya şifahi hesabat verməlidir.

Dekan məxfiliyi qoruyaraq məsələni Şərəf Kodeksi Komitəsinə yönləndirir. Lazım olduğu halda həmin yazılı işlər anti-plagiat proqramı vasitəsilə yoxlanılır və pozuntu aşkarlanarsa həmin müəllim hesabatın bir nüsxəsini dekanlığa təqdim edir. Dekanlıq bu barədə Tədris İşləri üzrə Prorektora bildirir və o, komitəni formalaşdırarkən maraqların toqquşması potensialını nəzərə almalıdır. Sözügedən komitə universitetdə yaranmış pozuntularla bağlı işlərə baxmaqla məsuldur.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 5. İDARƏETMƏ SİSTEMİ

### *5.1. İdarəetmə orqanları*

| |
|---|
| Universitetin idarəetmə sistemi Universitet İdarəçiliyi sənədində öz əksini tapır. **Qəyyumlar Şurası.** Şuraya dövlət və özəl sektorundan görkəmli və tanınmış şəxslər daxildir. Qəyyumlar Şurası universitetə strateji məsələlərdə məsləhətlər verir və milli və beynəlxalq müstəvidə universitetin irəliləməsinə kömək edir.<br>**Rektor**. Rektor universitetin baş icraçı direktorudur və universitetin fəaliyyəti və idarəetməsi məsələləri üzrə məsul şəxsdir. Həmçinin Rektor universiteti ictimaiyyət qarşısında təmsil edir.<br>**Akademik İşlər üzrə Prorektor**. Professor-müəllim heyətinin tövsiyəsi əsasında Rektor Akademik İşlər üzrə Prorektoru təyin edir. Prorektor akademik heyətin, həmçinin Universitetin akademik komitələrinin və Senatın səs hüququ olan üzvüdür. O, akademik proqramlar üzrə professor-müəllim tərəfindən verilən təklif və tövsiyələri dəyərləndirir və daha sonra Senat iclaslarında müzakirə üçün təqdim edir.<br>**Senat.** Universitetin rəhbər orqanı Senatdır. Senat universitet miqyasında çıxan məsələlərin müzakirəsi üçün əsas platformadır və universitetin Rektoru, prorektoru və akademik heyətə tövsiyələr vermək hüququna malikdir. Senat daimi, təyin edilmiş və seçilmiş üzvlərdən ibarətdir. Daimi üzvlər bunlardır: Rektor, prorektorlar və dekanlar. Rektor iki nəfəri təyin edə bilər. Hər fakültə Senatda təmsil edilmək üçün səsvermə yolu ilə iki nəfər professor-müəllim heyətindən seçim edir. Seçilmiş üzvlər Senatda iki il ərzində iştirak edir. **Dekanlar Şurası**. Dekanlar Şurası Senatın icra komitəsi olaraq fəaliyyət göstərir. Dekanlar Şurası universitetin bütün aspektləri, o cümlədən akademik işlər, kurrikulum, proqramların və ixtisasların tələbləri, qəbul meyarları və standartları kimi məsələlər üzrə planlaşdırma və idarəetmə ilə bağlı müzakirələr və tövsiyələr üçün əsas platformadır. Dekanlar Şurası ayda iki dəfə olmaqla görüşlərini keçirir.<br>**Akademik Heyət üzrə Komitə.** Komitə Universitet Senatının daimi komitəsidir,<br>vəzifə və öhdəliklərinə professor-müəllim heyətinin işə qəbulu, təyinatı, inkişaf etdirməsi və təşviq etməsi; professor-müəllim heyətinin şikayətləri; tədqiqat və tədris standartları, akademik siyasət və qaydalar; akademik dürüstlük və dürüstlük və s kimi Universitetin akademik missiyasına aid mühüm məsələləri müzakirə etmək və müvafiq tövsiyələr ilə çıxış etmək daxildir. Komitə bu məsələlər ilə bağlı tövsiyələri Dekanlar Şurasına nəzərə alınması üçün təqdim edir. |

İdarəetmə orqanlarında məsələlərin müzakirə edilməsi və qərarların verilməsi həmin orqanların əsasnaməsində öz əksini tapır. İdarəetmə orqanları daxilində səlahiyyətlər və vəzifə bölgüsü də həmin sənəddə göstərilmişdir. Nümunə olaraq idarəetmə orqanlarıdan biri, Senatın daimi komitəsi olan dekanlar Şurasının əsasnaməsində Şuranın hansı müddət çərçivəsində toplanılması, müzakirəılərin aparılması, səsvermə proseduru və s. göstərilmişdir(https://ada.edu.az/frq-content/plugins/policies_x1/entry/20181213163517_12146800.pdf) İdarəetmə orqanlarının sıx əməkdaşlığı və kommunikasiyası mövcuddur. Bundan başqa aparılan bütün görüşlər protokollaşdırılmışdır. Protokolların əlçatanlığını təmin etmək məqsədilə onlar elektron platforma vasitəsilə müvafiq struktur bölmə və şöbələr ilə paylaşılmışdır. Universitet səviyyəsində verilən qərarlar universitet icması ilə email vasitəsilə çatdırılır.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

*5.2. İnsan resurslarının idarə edilməsi*

İşə qəbul siyasəti Təşkilat və İnsan Resursları departamenti tərəfindən universitetin strateji planında öz əksini tapmış istiqamətlər üzrə aparılır. Belə ki, universitetdə müvafiq vəzifə təsnifatı sistemi mövcuddur. Bu təsnifata əsasən koordinator, mütəxəssis, baş mütəxəssis, menecer, direktor, baş rəhbər, dekan, prorektor və rektor kimi vəzifələr müəyyənləşdirilib və müvafiq olaraq əmək haqqı sistemi tətbiq edilir. Müvafiq vakansiya rəsmi vebsayt və bir neçə iş elanı portalında elan olunur. Müəyyən bir vaxt sonra namizədlərin sənədləri funksiyalara uyğun olaraq dəyərləndirir. Daha sonra komitələr tərtib olunaraq müsahibələr keçirilir. Bu mərhələlərdən uğurla keçən namizəd Rektorla müsahibəyə dəvət olunur və Rektor tərəfindən təsdiqləndiyi halda işə alınır. Yeni işə götürülən hər bir işçinin müvafiq məlumatları dövlət portalına yerləşdirilir və işə başlanılan ilk gün əmr imzalanır. Sadalanan bütün prosedurlar "İşə qəbul Siyasəti" sənədində öz əksini tapmışdır. Bu prosedurlar inzibati, texniki və köməkçi işçilər daxil olmaqla hər kəsə şamil olunur və Əmək Məcəlləsinə uyğun olaraq aparılır.

İşçilərin motivasiyası və mükafatlandırılması sistemi mövcud olmasa da, işçilərin peşəkarlıq səviyyəsini artırılması məqsədilə cari ildə ehtiyac əsaslı sorğu keçirilmişdi və bu sorğu vasitəsilə işçilər tərəfindən ən çox tələb olunan istiqamətlər müəyyənləşdirilmişdir. Sorğunun nəticəsi təhlil olunaraq, Təşkilat və İnsan Resursları departamenti tərəfindən silsilə təlimlərin keçirilməsi başlanılıb. Bu təlimlər həmçinin Universitetdə çalışan işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsini artırmaq məqsədilə keçirilir. Belə ki, Excel təlimləri və Layihələrin İdarəedilməsi üzrə təlimlər müvəffəqiyyətlə keçirilmişdir.

| |
|---|
| Həmçinin, Təşkilat və İnsan Resursları departamenti hər iki aydan bir İnsan Resursları Xəbər Bülletenini elektron şəkildə bütün universitet ictimaiyyəti ilə bölüşür. Burada müvafiq dövr ərzində Universitetdə və ayrı-ayrı şöbələrdə olan yeniliklər, akademik və qeyri-akademik inzibati işçilərin uğurları, iştirak etdikləri müxtəlif yerli və beynəlxalq tədbirlər haqqında məlumatlar paylaşılır. Bundan əlavə işçilərin sosial və mədəni həyatını zənginləşdirmək məqsədilə il boyu bir sıra tədbirlər və yığıncaqlar keçirilir.<br>Əmək münasibətlərinin bağlanması, aparılması və xitam verilməsi Əmək Məcəlləsində təsvir olunduğu qaydada aparılır. |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### 5.3. *Maliyyə resurslarının idarə edilməsi*

| |
|---|
| Universitetin maliyyə resursları müəssisənin Nizamnaməsinə uyğun olaraq dövlət büdcəsi, ödənişli təhsil, ianələr, qrantlar və digər hüquqi mənbələrdən ibarətdir. Maliyyənin planlaşdırılması 3 illik dövrü əhatə edir. Gəlir və xərclərin izlənilməsi üçün Banner ERP – resursların idarə edilməsi elektron platformasından istifadə edilir. Universitetin donorlardan ianələr, müxtəlif beynəlxalq qrantlarda iştirak etmək imkanı vardır ki, bu da əlavə gəlirlərin əldə edilməsi məqsədinə xidmət edir. Pandemiyanın tüğyan etdiyi 2020-ci ilin nəticələrini çıxmaq şərtilə, Maliyyə təminatı üzrə cədvəldə göstərildiyi kimi bu istiqamətdə son beş il ərzində müsbət dinamika müşahidə edilməkdədir. Maliyyə təminatının şəffaflığını təmin etmək məqsədilə aparılan bütün tranzaksiyaların bank rekvizitləri, müqavilələri və əmrləri mövcuddur və maliyyə resurslarının istifadəsi universitetin Nizamnaməsinə uyğun olaraq aparılır. Maliyyə resursların əldə edilməsi və səmərəli istifadəsi üçün hər il növbəti il üçün hər şöbə üzrə büdcə planlaşdırılması həyata keçirilir. Belə ki, növbəti il ərzində istifadə edilməsi nəzərdə tutulan resursların məbləği və təyinatı öncədən qeyd edilir. Həmçinin, cari resursların təyinatı üzrə istifadəsinin nəzarəti üçün Banner platformasından istifadə edilir. Belə ki, alınan istənilən məhsul və ya xidmət üçün satınalma tələbi sistem vasitəsilə yaradılır. Məhsul və ya xidmətlərin alınması üçün müraciət edən şöbə müvafiq forma vasitəsilə məhsul və ya xidmətin qısa təsvirini, tələb olunan məbləği, öncədən təsdiq edilmiş büdcədən istifadə ediləcəyi kimi məlumatları dolduraraq sistemə yükləyir. Daha sonra müvafiq struktur bölmələr tərəfindən məlumatlar baxılır və təsdiq və ya rədd edilir. Təsdiq edilmiş satınalma tələbi mütləq şəkildə müvafiq müqaviləni və invoys sənədini təqdim etməlidir. Daha sonra təsdiqlənmiş məbləğin köçürülməsinə dair işlər başlanılır. Bundan əlavə, malların və ya xidmətlərin alınması |

yalnız daxili qaydalar əsasında deyil, Dövlət Satınalmaları Haqqında qanunvericilik çərçivəsində tənzimlənir . Belə ki, malların (işlərin və xidmətlərin) dövlət satınalmalarının açıq tender və kotirovka sorğusu üsulunu tətbiq etməklə elektron satınalma portalı vasitəsilə həyata keçirilir, Həmçinin xüsusi hallar olaraq, əsasən xarici istehsalçılardan əldə edilən mal və xidmətlər bir mənbədən satınalma metodları ilə həyata keçirilir.
Həmçinin, maliyyə əməliyyatlarının aparılmasında da müvafiq qanunvericilik çərçivəsində həyata keçirilir. Əməliyyatlar üzrə hesabatlar qanunvericiliyə uyğun olaraq aidiyyatı orqanlara (vergi, statistika, sosial-sığorta) mütəmadi olaraq (3 aydan bir, və ya ildə bir dəfə - müəyyən edilmiş tələb əsasında) təqdim edilir. Bundan əlavə, mütəmadi olaraq hazırlanan daxili hesabatları da qeyd etmək lazımdır. Həmçinin, "ADA" Universiteti daxili audit bölməsi mövcud olmasa da, kənar auditin üç ildən bir aparılması üçün müvafiq şəraiti yaradır. Belə ki, ötən illərdə- 2015, 2016, 2017 və 2018, 2019, 2020-ci illəri əhatə edən kənar audit həyata keçirilmişdir. 2021, 2022 və 2023-cü illəri əhatə edəcək audit isə 2024-cü il ərzində aparılması nəzərdə tutulmuşdu.
Həmçinin maliyyə resurslarının əldə edilməsi mənbələrinin və istifadə edilməsi istiqamətlərinin müzakirəsi mütəmadi olaraq Dekanlar Şurası iclaslarında baş tutur.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### 5.4. *İnformasiya idarəetmə sistemi*

ATM-də informasiya idarəetməsi üçün "Ellucian Banner" sistemindən istifadə olunur. Bu sistemdən istifadənin hüquqi əsası olaraq Senat tərəfindən qəbul olunmuş Keyfiyyət təminatı sənədini göstərmək olar. İnformasiya idarəetmə sistemində idarəetmə funksiyaları tədris prosesinin hər sahəsini əhatə edir, tələbələrin qəbul prosesi, akademik məlumatların saxlanması, tələbələrin qiymətləndirilməsi, transkriptlərin hazırlanması, yeni kursların açılması, müəllimlərə və tələbələrə kurslara çıxışın verilməsi, dərslərə qeydiyyat, dərs cədvəllərinin hazırlanması, və.s. bu kimi proseslər sistem üzərindən təşkil olunur və məlumatlar daim yenilənir. Həmçinin, Banner platforması Müəssisə resurslarının planlaşdırılmasını tənzimləyən sistem kimi büdcə, maliyyə, satınalma və insan resurslarının idarə edilməsi məqsədilə tətbiq edilir.
İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsü müvafiq prosedura əsasən aparılır. Belə ki, departament direktorları ilə görüş keçirildikdən və müzakirə edildikdən sonra işçinin vəzifə öhdəliklərinə əsasən rollar müəyyənləşdirilir və onlara uyğun olaraq məlumatlara çıxış üçün səlahiyyət bölgüsü IT tərəfindən aparılır.

Pandemiya dövründə təlim və tədris prosesində bütün tədris fəaliyyəti üzrə tam rəqəmsallaşma işləri aparılmışdı. Hal -hazırda dərslərin üzbəüz formada keçirilməsinə baxmayaraq aktiv rəqəmsallıq var. Kampusda tədrisin davam etməsi xaricində digər bütün proseslər aktiv rəqəmsal formada (Banner və Blackboard portalı üzərindən) aparılır. Distant təhsil üçün geniş imkanlar mövcuddur və rəqəmsallaşma yüksək səviyyədə təşkil olunub. Nəinki təlim tədris prosesi habelə idarəetmə də rəqəmsallaşdırılıb. İnformasiya idarəetmə sistemi hər kəs tərəfindən əlçatandır. Belə ki, tələbə Universitetə daxil olduğu zaman, onun Banner elektron platformasında şəxsi kabineti yaradılır. Bur"ADA" tələbənin şəxsi məlumatları (ad, soyad, doğum tarixi, əlaqə vasitələri və s.) öz əksini tapır. Bundan əlavə, semestr başlamadan 2-3 ay öncə tələbə Banner vasitəsilə növbəti semestr ərzində tədris olunacaq fənləri, müəllimləri, cədvəli görür və onlayn qeydiyyat zamanı sərbəst seçim edə bilir. Onlayn qeydiyyat da həmçinin Banner platforması üzərindən aparılır. Tələbənin nəticələri (yekun qiymətləri) Banner vasitəsilə transkriptdə öz əksini tapır. Bundan başqa tələbə akademik kredit borcları və maliyyə borcları kimi məlumatları da buradan izləyə bilər.

Dərslərin hər birinin isə Blackboard platformasında bölməsi var. Sillabus, dərs vəsaitləri, müvafiq məlumatlar, tapşırıqların yerinə yetirilməsi üçün son verilmə tarixi, hər tapşırıq üzrə qiymət və onun ümumi qiymətdə payı, hətta bəzi tapşırıqların özü Blackboard vasitəsilə tələbələrə təqdim edilir. Bundan əlavə, onlayn tədris üçün də Blackboard platformasında şərait yaradılıb. Belə ki, pandemiya zamanı bütün dərslər Blackboard üzərindən aparılaraq tədris olunurdu. Həmçinin, Blackboard-un LockDown Respondus aləti vasitəsilə onlayn şəkildə imtahanları təşkil etmək və akademik dürüstlüyü təmin etmək mümkündür.

İnformasiya idarəetmə sistemləri təhsil prosesinə əlçatanlığı , inkluzivliyi asanlaşdırır, tələbənin istədiyi vaxt məlumatlara onlayn çıxışı olur, hətta onlayn formada imtahan belə verə bilər. İnformasiya idarə sisteminin keyfiyyət təminatına töhfəsi olaraq hesabatlılığı, şəffaflığı, dərslərə davamiyyətin, aktivliyin izlənməsini, tələbələrin cari vəziyyəti ilə istənilən vaxt tanış olmağın mümkünlüyünü göstərmək olar.

İnformasiya İdarəetmə sisteminin Təhsil Nazirliyinin Mərkəzləşdirilmiş sisteminə inteqrasiyası olmasa da TMİS, Tələbə-məzun sistemi, AOTİS və DTS sistemlərinə məlumatlar mütəmadi olaraq daxil edilir və yenilənir.

İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığı Şəxsi Məlumatların İstifadəsi və İctimai Məlumat sənədində əks olunur. Belə ki, sənədə əsasən, məlumat bazasına tam və ya qismən çıxış məlumatların idarəedilməsinə və hesabatların

| |
|---|
| hazırlanmasına məsul şəxslərə verilir. Müəyyən məlumatlara çıxışı əldə etməyə yalnız o halda təsdiq verilə bilər ki, həmin məlumatlar işçinin vəzifə öhdəliklərinin yerinə yetirilməsi üçün zəruridir. Məlumatların Mühafizəsi üzrə Məsul Şəxs bütün məlumatların təhlükəsizliyindən, məxfiliyindən və etibarlılığından məsuldur. Həmçinin o şəxsi məlumatların toplanması prosesinin məqsədə uyğunluğuna nəzarət edir. Hər kəs məlumatların istifadəsi və ya qorunması zamanı pozuntuya şahid olarsa bununla bağlı Məlumatların Mühafizəsi üzrə Məsul Şəxsə müraciət edə bilər. |

(Qeyd edilən meyarın indikatorlaraAına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

5.5. *İctimaiyyətlə əlaqələr*

| |
|---|
| Universitetin rəsmi veb-səhifəsi mövcuddur və bu səhifədə qəbul proqramları, tələbləri, təqaüd imkanları, təlim nəticələri, beynəlxalq akademik əməkdaşlıq və ictimaiyyəti maraqlandıran digər mövzular barədə mütəmadi qaydada məlumatlar paylaşılır. Məlumatlar veb-səhifədə gündəlik əsaslarla yenilənir və genişlənir.<br>Bundan başqa məlumatlandırılma sadəcə veb-səhifə vasitəsilə aparılmır. İctimaiyyətin digər vasitələrlə məlumatlandırılması üsullarına "ADA" Universitetinin müəllim və tələbə heyətinin TV müsahibələrinin təşkili, tədbirlər, əldə edilən nailiyyətlər və ya yeniliklər barədə press-relizlərin yazılaraq ənənəvi və qeyri-ənənəvi mətbuat orqanlarına göndərilməsi də daxildir. Eyni zamanda, rəqəmsal mediada olduqca fəal olan Universitetin paylaşımları "Instagram", "Facebook", "Twitter", "LinkedIn" və "Telegram" üzərindən geniş ictimaiyyətə ötürülür. İctimaiyyətinin məlumatlandırılması istiqamətindəki fəaliyyət marketinq məqsədlərini nəzərə alan plana uyğun həyata keçirilir. Əsasən sosial media üzərindən ictimaiyyətlə ünsiyyət qurulur və bu ünsiyyət zamanı maraqlı tərəflər öz rəy və təkliflərini asanlıqla bildirirlər. Bununla yanaşı, "ADA" Universitetinin Marketinq və Kommunikasiya şöbəsi maraqlı tərəflərin qiymətləndirmə ilə bağlı geridönüşünü nəzərə alaraq fəaliyyətini daim inkişaf etdirir. Həmçinin sosial mediada Universitetin səhifələrini izləyənlərin sayının hər gün durmadan artması qiymətləndirmə meyarı kimi qəbul edilə bilər. Monitorinqin təşkili üçün xüsusi monitorinq proqramından və analiz vasitələrindən istifadə edilir. Xüsusi monitorinq proqramı Universitetlə bağlı məlumatların hansı media qurumlarında paylaşıldığı ilə bağlı məlumat əks etdirir, analiz vasitələri isə paylaşılan məzmunun keyfiyyətini ölçür. |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 6. İNFRASTRUKTUR

### *6.1. Tədris infrastrukturu*

| |
|---|
| Tədris binaları və tədris otaqları dövlət standartlarına tam uyğundur. Kampusda Tədris prosesinin təşkil olunduğunu bina sayı 6-dır. Ümumi sahə 60810 kv.m-dir. Faydalı sahə 56860 kv.m. təşkil edir. Universitetin sahəsi və tədris binalarının həcmi ayrı ayrı təhsi proqramları üçün tam olaraq bütün lazımı avadanlıqlarla təchiz olunub və standardlara tam cavab verir.<br>Universitetdə 117 auditoriya otağı, o cümlədən 75 mühazirə (9984 kv.m.), 39 seminar otağı (1030 kv.m.),3 akt zalı (1568 kv.m.), 1 idman zalı (2116 kv.m.), 6 yeməkxana (2025 kv.m.), 1 yataqxana (3988.55 kv.m.), 117 tədris kabinetləri və emalatxanaları (2498.8 kv.m.), 1 tibbi xidmət otağı (30 kv.m.), inzibati heyətin fəaliyyətini təmin edən 117 zəruri otaq fondu( 2498.8 kv.m.) akademik heyətin fəaliyyətini təmin edən 76 zəruri otaq fondu (1457 kv.m.), elmi tədqiqatların aparılmasına imkan verən avadanlıqlarla təchiz olunmuş 7 müasir və digər laboratoriyalar (964 kv.m.) həmçinin tələbələrin sinifdənkənar işi üçün kiçik dərs otaqları mövcuddur. Universitetin kitabxanasının ümumi sahəsi 3600 kv.m. , çalışmaya faydalı sahə 615 kv.m.-dir. Mövcud və internetə qoşulmuş komputerlərin sayı 40, ümumi kitab sayı 278 000, dərsliklər və dərs vəsaitlərinin sayı 1310 (çap) 135 (elektron), elektron kitabların ümumi sayı 231 000 təşkil edir. Oxu zalında oxucular üçün ayrılmış yerlərin sayı 458-dir.<br>Universitetin kampusunda 7 laboratoriya mövcuddur.<br>Tələbələrin istehsalat-təcrübə prosesinin uğurla təşkili üçün əməkdaşlıq edilən şirkətlər ilə müqavilələr, təcrübənin keçirilməsinə dair razılaşma məktubları, həmçinin müvafiq qurumların nümayəndələrin əlaqə vasitələri karyera mərkəzində mövcuddur.<br>Universitetdə həm professor-müəllim heyəti, həm idarəedici heyət, həm də tələbələr üçün İT xidmətləri göstərilir. ATM-də zəruri sayda və səviyyədə İT resursları mövcuddur. Hər bir akademik və inzibati işçi şəxsi kompüter, server, yüksək sürətli internet, korporativ email xidməti ilə təmin edilir.<br>ATM-də distant təhsil xidməti göstərilməsə də pandemiya zamanı dərslər “My Banner” və “My Blackboard” platformaları üzərindən müvəffəqiyyətlə distant formada təşkil edilmişdir.<br>ATM-də bütün normativlərə uyğun təşkil edilmiş 6 yeməkxana fəaliyyət göstərir. Tələbələr və akademik heyətin növbələr üzrə yerləşməsini təmin edən yeməkxana otaqları mövcuddur. |

Universitet müvafiq şirkətlər ilə müqavilə imzalayaraq tələbələrə Təbriz Evləri yaşayış kompleksində, həmçinin Univerium Dormitory yataqxanasında yaşayış yerləri təklif edir.

Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturu mövcuddur. Hər bir tədris binası ətrafında panduslar mövcuddur. Hər tədris binasında avtomatik açılan qapılar, həmçinin sağlamlıq imkanları məhdud şəxslərin istifadəsinə uyğunlaşdırılmış sanitar qovşaqları vardır.

ATM-də tibbi dəstək xidməti və otaqları da mövcuddur. İlkin tibbi yardım ehtiyac duyulduğu halda müvafiq yardımı göstərmək üçün bütün zəruri avadanlıqlarla və vasitələrlə təmin olunmuşdur və müvafiq xidmətdən universitet daxilində hər kəs istifadə edə bilər.

Tədris infrastrukturunun istifadəsi həm professor -müəllim heyəti, həm idarəedici heyət, həm də tələbələrə əlçatandır. İstifadəsinə heç bir məhdudiyyət qoyulmur.

İstehsalat-təcrübə bazası olaraq "CareerLink" platforması mövcuddur. Karyera mərkəzi öncədən müxtəlif dövlət və ya qeyri-dövlət qurumlarıyla, şirkətlərlə görüşür və mövcud vakant vəzifələr araşdırılır daha sonra CareerLink-də yerləşdirilir. Həmçinin, hər bir tələbənin bu platformada şəxsi hesabı olur hansı ki, həmin hesabında öz CV-sini yerləşdirə bilir və ya hesab vasitəsilə elan olunmuş vakant vəzifəyə müraciət edə bilir. Beləcə, vahid bir baza ilə təhsil müəssisəsi tələbə-məzunların təcrübə proqramlarında iştirak etməsi, habelə məzunların işə yiyələnməsini təmin edir.

Tədris infrastrukturunun istifadəsinin monitorinqi Satınalma şöbəsi tərəfindən aparılır. Bütün İT avadanlıqlar xüsusən kompüterlər və daxili telefonlar hər bir akademik və inzibati işçiyə akt əsasında inventar nömrələri qeyd edilərək təhvil-təslim sənədi ilə təhkim olunur.

ATM-də nəqliyyat sistemi də mövcuddur. Müxtəlif dəvətlərə və tədbirlərə iştirakçıların gətirilməsi, aparılması üçün istifadə olunur. Yeddi nəqliyyat vasitəsi universitetin öhdəliyindədir.

Tədris infrastrukturunun istifadəsinin monitorinqi müvafiq struktur bölmə tərəfindən aparılır. Məsələn, istehsalat-təcrübə bazasının istifadəsi Karyera Mərkəzi, istifadə edilən çap və elektron resurslar Kitabxana tərəfindən aparılır.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

6.2. Elmi-tədqiqat infrastrukturu

"ADA" Universitetində elmi-tədqiqat və innovasiya mərkəzi ayrı bir struktur bölməsi olaraq mövcud olmasa da, elmi-tədqiqat işlərinin aparılması üçün həm tələbə, həm pedaqoji heyət üçün əlçatan elektron resurslar təqdim edilir. Universitet kitabxanası özünün elektron məlumat bazası, geniş kitabxana fondu və müasir standartlara cavab verən şəraiti ilə elmi-tədqiqatın həm aparılmasına, həm də nəticələrinin geniş auditoriyaya təqdim edilməsinə şərait yaradır. Həmçinin, elmi-tədqiqatlar aparmaq üçün müvafiq avadanlıqlarla təchiz edilmiş laboratoriya universitet icmasının istifadəsi üçün açıqdır. Bundan başqa elmi-tədqiqat nəticələrinin akademik heyət, sənaye nümayəndələri, tələbələr ilə müzakirəsi və təhlili üçün də universitetin hər bir binasında müzakirə və konfrans otaqları vardır.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 7. BEYNƏLMİLƏLLƏŞMƏ

### *7.1. Beynəlmiləlləşmə siyasəti*

"ADA" Universiteti tələbə və elmi-akademik heyətin beynəlmiləlləşməsi, habelə universitetin beynəlxalq müstəvidə mövcudluğun artırılması Universitetin Strateji Planının tərkib hissəsidir. Bu məqsədə çatmaq üçün Strateji İnkişaf Planında müəllimlərin, tələbələrin və inzibati heyətin çoxmillətliliyinin artırılması və onların uyğunlaşmasını, mübadiləsini, habelə Azərbaycandan kənar çıxışlarını dəstəkləyərək qlobal müstəvidə mövcudluğu qurmaq kimi fəaliyyətlərin həyata keçirilməsi hədəfə alınmış və müvafiq istiqamətlər üzrə işlər aparılır. Yuxarıda qeyd olunan fəaliyyət istiqamətində də göründüyü kimi, mübadilə proqramlarının təşviqinə xüsusi yer ayrılmışdır. Bu məqsədilə bir sıra yeni Anlaşma Memorandumları imzalanmış, tədbirlər və görüşlər keçirilmişdir. Hal-hazırda 44 ölkədən 133 universitet ilə anlaşma memorandumu mövcuddur. Bu memorandumlar çərçivəsində həm iki tərəfli mübadilə proqramları, həm də Erasmus+ mübadiləsi ünü razılıqlar əldə edilmişdir.

Əcnəbi tələbələrin cəlb olunması məqsədilə Tələbə Qəbulu şöbəsi əməkdaşları müxtəlif beynəlxalq təhsil yarmarkalarında və tədbirlərdə iştirak edir, xarici ölkələrə səfər edərək Universitet haqqında təqdimatlar və müzakirələr keçirir. Hal-hazırda 39 ölkədən 138 nəfər xarici tələbə "ADA" Universitetində təhsil alır.

Beynəlmiləlləşmə siyasətinin və Universitetin beynəlxalq müstəvidə rolunu artırmaq məqsədinə xidmət edən İnkişaf və Diplomatiya İnstitutu (İDD) yaradılmışdır. Onun

məqsədi tək Azərbaycanda deyil, həmçinin beynəlxalq səviyyədə müxtəlif sahələr üzrə ekspert, tədqiqatçılar və siyasətçilər ilə əlaqələri qurmaq və genişləndirməkdir. Dünyanın aparıcı tədqiqat institutlarının təcrübəsi nəzərə alınaraq, İDD yüksək səviyyədə siyasi-yönümlü elmi tədqiqatların, beynəlxalq konfransların, brifinqlərin və digər müzakirələr üçün bir platforma olmağı hədəfləyir. Belə ki, ötən il ərzində 6 dəyirmi masa, qlobal şəraitdə baş verən aktual məsələlərin müzakirəsinə həsr edilmiş 23 tədbir, 6 anlaşma memorandumu, 24 ikitərəfli müzakirələr tədbirləri silsiləsi həyata keçirilmişdi. Bu tədbirlərdə həm yerli, həm xarici universitet və beyin mərkəzlərinin aparıcı elmi tədqiqatçıları, tanınmış şəxsləri, ekspertlər çıxış etmişlər.
Həmçinin, son illər ərzində Universitetdə yeni açılan ikili proqramlar icra edilməkdədir. Belə ki, Niderlandın Maastrixt Menecment Məktəbi ilə tərəfdaşlıq çərçivəsində olan Ekzekyutiv MBA və MBA proqramları tamamlanmış, Rusiyanın MGİMO Universiteti ilə birgə Maliyyə üzrə MBA proqramı təsis edilmişdi. Bundan başqa İnformasiya Texnologiyaları və Mühəndislik İnstitutu və ABŞ-ın nüfuzlu Corc Vaşinqton Universiteti ilə birgə əməkdaşlıq çərçivəsində Kompüter Elmləri və Data Analitikası üzrə ikili diplom təqdim edən magistratura üzrə proqram fəaliyyət göstərir.
Azərbaycan Respublikası Prezidenti Cənab İlham Əliyevin təşəbbüsü nəticəsində İtaliya-Azərbaycan Universiteti təsis edilmişdi. Bu layihə çərçivəsində İtaliyanın 5 Universiteti ilə birgə müxtəlif istiqamətlər üzrə (kənd təsərrüfatı, qida sistemlərinin idarə edilməsi, dizayn və arxitektura, şəhərsalma kimi istiqamətlər üzrə) ikili proqramlar haqqında razılaşma əldə edilmişdi. 20230-2024-cü tədris ilindən etibarən İtaliya-Azərbaycan Universitetinin ilk magistr ixtisasına (Qlobal idarəetmə və siyasət üzrə menecment) qəbul aparılır.

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### 7.2. *Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı strukturu*

Beynəlmiləlləşmə proseslərin idarə edilməsi, habelə xarici təşkilatlar və diplomatik nümayəndəliklərlə Universitetin əlaqələrinə nəzarət etmək, təşviq və əməkdaşlıq məqsədləri üçün Universitetin beynəlxalq əlaqələrini qurmaq və idarə etmək, tələbə, işçi heyəti və professor-müəllim heyətinin mübadiləsini müntəzəm olaraq həyata keçirmək üçün xarici universitetlərlə tərəfdaşlıq əlaqələrini qurmaq, həm yerli, həm də çoxmillətli özəl sektor şirkətləri ilə müntəzəm əlaqələr saxlamaq, "ADA" Universitetinin tələbələrini yerli təşkilatlar, şirkətlər, xarici nümayəndəliklər və digər beynəlxalq təşkilatlar arasında

tanıtmaq kimi istiqamətlər Beynəlxalq Münasibətlər, Hökumətlə Əlaqələr və Tələbələrlə İş üzrə Prorektorun əsas vəzifələrinin tərkib hissəsidir və Universitetin beynəlmiləlləşmə siyasətinə xidmət edir.

Mübadilə proqramlarını müntəzəm şəkildə həyata keçirmək və onları təşviq etmək üçün həmçinin Qlobal Təbliğat və Tərəfdaşlar şöbəsi fəaliyyət göstərir. Şöbə tərəfindən mübadilə proqramlarının uğurla icra edilməsi üçün müxtəlif istiqamətlərdə işlər aparılır. Belə ki, hər semestr mövcud mübadilə proqramları üzrə elanları tələbələrlə bölüşür, müvafiq prosedura uyğun seçimləri həyata keçirir, tələb olunan sənədləri qiymətləndirir, proqramda iştirak etmək üçün namizədlər ilə müsahibə prosesini təşkil edir, müsahibə prosesində komitələr tərəfindən qiymətləndirmələri nəzərdən keçirərək uğurla keçən namizədlərlə lazımi görüşlər aparır, onları gedəcək ölkələrin xüsusiyyətləri ilə tanış edir.

Bakalavr tələbələri tərəfdaşlıq edilən universitetlərdə mövcüd mübadilə proqramında iştirak etmək üçün ən azı 60 krediti tamamlamalı və 2.5 GPA nəticəsinə malik olmalıdırlar. Universitetin Akademik Daxili Keyfiyyət Təminatı və Qaydaları sənədinə əsasən tədris müddətinin son semestrində təhsil alan tələbələr mübadilə proqramlarında iştirak edə bilməz. Mübadilə proqramlarına qəbul hər semestrin əvvəlində keçirilir. Bunun üçün semestr başlamazdan öncə Qlobal Təbliğat və Tərəfdaşlar şöbəsi müvafiq fakültələrin Dekan, Dekan müavinləri, akademik məsləhətçilər ilə görüşlər keçirərək və fənləri müzakirə edərək ilkin planı hazırlayır və tələbələrə təqdim edirlər. Proqramda iştirak etmək üçün sənəd qəbulu prosesi zamanı tələbələr mövcud universitetlər siyahısından iki yerə müraciət edə bilərlər. Sənəd qəbulu prosesi başa çatandan sonra Qlobal Təbliğat və Tərəfdaşlar şöbəsi müsahibələr təşkil edilir. Müsahibə hər Fakültə üzrə yaradılmış (Dekanın mütləq iştirakı ilə) Komissiya tərəfindən aparılır və ümumi qiymətləndirmənin 20%-ni təşkil edir. Digər 80% isə tələbənin akademik göstəriciləri və tamamladığı fənlərə görə hesablanır. Mübadilə proqramından qayıdandan sonra müvafiq fənlər üzrə qazandıqları kreditləri transfer etmək üçün AKTTS-in və yerli qanunvericiliyinin tələblərinə uyğun şəkildə hazırlanmış daxili mexanizmlərə əsasən prosedurlar başlayır. Belə ki, tələbələr ilk növbədə Kredit Transfer Formasını doldurub akademik məsləhətçilərə təhvil verməlidirlər. Həmçinin onlar partnyor universitetdə tədris aldıqları fənlər üzrə qiymətlərin transkriptini və fənlərin sillabuslarını da akademik məsləhətçilərə təqdim etməlidirlər. Daha sonra fakültə tərəfindən təsdiq edilmiş Kredit Transfer Formasını və tərəfdaş universitetdən aldıqları rəsmi transkripti Tələbə Qəbulu və Qeydiyyatı Şöbəsinə müvafiq olaraq təqdim edilməlidir. Fənn üzrə göstərici “C” qiymətindən aşağı olarsa, həmin fənnin kreditləri transfer olunmayacaq.

Mübadilə proqramlarında tələbələrin iştirakı dinamikasına gələndə, pandemiya dövrünü çıxmaq şərtilə müsbət dinamika müşahidə edilməkdədir.

Beynəlmiləlləşmə siyasəti çərçivəsində mübadilə proqramları həmçinin pedaqoji və inzibati heyətinin də iştirakını ehtiva edir. Bu proses də həmçinin daxili qaydalara əsasən bütün müəllimlərə və bütün inzibati işçilərə şəffaf və əlçatan şərtlər altında aparılır. Pandemiyadan sonrakı illər ərzində bütün fakültələr üzrə pedaqoji heyətin mübadilə proqramlarında iştirak sayı artmış, ümumi müəllim heyətinə nisbəti 8-10% təşkil etmişdir. Ümumilikdə isə, 2017-2022-ci illərdə mübadilə proqramında 102 nəfər əməkdaş (həm pedaqoji, həm inzibati heyət) iştirak etmişdir.

Universitetin beynəlmiləlləşmə siyasətinin digər bir istiqaməti isə əcnəbi müəllimlərin cəlb edilməsidir. Universitetin elmi-pedaqoji heyətinin mübadilə proqramlarında, beynəlxalq konfranslarda, mühazirələrdə iştirak etməsi, həmçinin universitetin xaricdə təmsil olunması uğurunda atılan addımların nəticəsində əcnəbi müəllimlərin cəlb edilməsi istiqamətində işlər aparılır. Son illər ərzində əcnəbi müəllimlərin ümumi pedaqoji heyətdə payı 20% civarında dəyişir.

Universitetdə tədris edilən ikili diplom proqramları həm yerli, həm də beynəlxalq standartlara uyğun olaraq təqdim edilir. Məsələn, İnformasiya Texnologiyaları İnstitutu və ABŞ-ın Corc Vaşınqton Universiteti tərəfindən tədris edilən Kompüter Elmləri və Data Analitikası magistr proqramı Azərbaycan Respublikasının “2019-2023-cü illər üçün Azərbaycan Respublikasında ali təhsil sisteminin beynəlxalq rəqabətliliyin artırılması üzrə Dövlət Proqramı” çərçivəsində müvafiq qanunvericiliyin tələblərinə uyğun həyata keçirilir.

Beynəlmiləlləşmə siyasətinin bir parçası olaraq müxtəlif tərəfdaşlar ilə gerçəkləşdirilən layihələri də qeyd etmək lazımdır. Belə ki, "ADA" Universiteti bir çox beynəlxalq layihələrdə həm təşəbbüskar, həmçinin tərəfdaş olaraq çıxış edib. Bunlardan Avropa İttifaqı ilə birgə həyata keçirilən Tədris və Elmi-Tədqiqatın Təşviqi Proqramı, Jean Monnet layihəsi, Böyük Britaniyanın Kent və Cambridge universitetləri tərəfindən və Azərbaycan ("ADA" Universiteti), Belarus (Belarus Dövlət Universiteti), Tacikistan (Tacikistan Dövlət Universiteti) və Özbəkistan (Dünya İqtisadiyatı və Diplomatiyası Universiteti) ölkələrinin tərəfdaşlığını əhatə edən COMPASS layihəsi, Regional Təhlükəsizlik mövzusunda beynəlxalq təlimlər, Bakı Enerji Yay Məktəbi, Avropa İttifaqı Yay Məktəbi, İtaliyanın Boloniya Universiteti tərəfindən tədris edilən magistratura proqramı kimi təşəbbüslər görülən işlərin bir hissəsidir. Yeni təsis edilmiş Diplomatiya və İnkişaf İnstitutu bu istiqamətdə olan işlərin daha da artırılmasına, regional və qlobal müstəvidə olan aktual

məsələlərin nüfuzlu beynəlxalq təşkilat və elmi müəssisələrin nümayəndələri ilə müzakirələrin platformasına çevirilməyə şərait yaradır.

Bütün bunlardan əlavə, universitetin beynəlxalq nüfuzunun artırılması məqsədilə beynəlxalq reytinqlərdə iştirak etmək və inkişaf etmək istiqamətində müəyyən işlər aparılmışdır. Bu işlərin nəticəsində "ADA" Universiteti cari il üzrə Times Higher Education (THE) reytinqlərində 1300-dən çox universitet arasında ilk 200 ali təhsil müəssisəsi sırasında yer alıb (https://www.timeshighereducation.com/world-university-rankings/ada-university). Universitetinin Birləşmiş Millətlər Təşkilatının Dayanıqlı İnkişaf Məqsədlərinin dördüncüsü olan “Keyfiyyətli təhsil” məqsədinə uyğunluğu və fəaliyyətinin cəmiyyətə təsiri qiymətləndirilib. "ADA" Universitetin 3 meyar üzrə keyfiyyət göstəriciləri qiymətləndirildikdən sonra beynəlxalq reytinqə daxil edilib. Həmin meyarlara “Tədris prosesində iştirak edə biləcək məzunların nisbəti”, “Ömürboyu təhsili təşviq edən tədbirlərin keyfiyyəti” və “Birinci nəsil tələbələrin nisbəti” daxildir. (https://azertag.az/xeber/ADA_Universiteti_akademik_ili_iki_nufuzlu_beynelxalq_keyfiyyet_nisani_almaqla_tamamlayib-2674819).

Beynəlxalq reytinqlərdə təmsil olunma və irəliləmə məqsədilə Daxili Keyfiyyət və Akkreditasiya şöbəsinin cari il üçün tərtib etdiyi fəaliyyət planının qısa icmalı aşağıda göstərilmişdir:

15 iyun 2023-cü il tarixinədək “QS” reytinq agentliyinin Dünya və Avropa Universitetləri sıralamasında irəliləmək üçün tələb etdiyi məlumatların müvafiq struktur şöbələrdən toplanması, məzunlar arasında keçirilməli olan sorğuların hazırlanması və keçirilməsi, həmçinin nəticələrinin müvafiq portala daxil edilməsi, akademik ekspertlərin siyahısı üzərində işləmək nəzərdə tutulur.

15 sentyabr 2023-cü il tarixinədək sözügedən agentliyin tələbləri arasında olan məlumatların mövcudluğuna yenidən baxılması, çatışmayan məlumatların toplanması, yerli əmək bazarında olan işəgötürənlər arasında universitetin reputasiyası ilə bağlı sorğunun göndərilməsi və xarici universitetlərdə işləyən akademik ekspertlərin siyahısına yenidən baxılması nəzərdə tutulur.

15 dekabr 2023-cü il tarixinədək məlumat toplanmasının yekunlaşdırılması,doğruluğunun yoxlanması,sübut edən fayllar ilə dəstəklənməsi, həm xarici akademik ekspertlərlə, həm də işəgötürənlər siyahısında olan insanlarla əlaqə yaradılması gözlənilir. 2024-cü ilin yanvar və fevral aylarında isə portala daxil edilmiş məlumatların təsdiqi olacaqdır.

“THE” reytinq agentliyinin isə 1(bir) və ya 2(iki) istiqaməti üzrə sıralaması üçün işlər cari

| |
|---|
| ilin noyabr ayından etibarən görülməyə başlanılacaqdır. Müvafiq məlumatların toplanması və sübut faylları ilə dəstəklənməsi üzrə işlər görüləcəkdir. |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

### *7.3. Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

| |
|---|
| Beynəlmiləlləşmə siyasətinin icra edilməsi üçün hər il müəyyən məbləğdə maliyyə resursları ayrılır. Rəqəmlər Maliyyə Təminatı sənədində öz əksini tapmışdır.<br>Həmçinin, mübadilə proqramlarının təşviqi və artırılması, yeni tərəfdaşlıqların qurulması, Universitetin xaricdə təmsil olunması, birgə layihələrin və elmi-tədqiqatların aparılması, beynəlxalq konfransların və tədbirlərin təşkili və iştiraki və bir sıra beynəlmiləlləşmə istiqamətləri üzrə fəaliyyətlərin həyata keçirilməsi üçün Qlobal Təbliğat və Tərəfdaşlıq, Diplomatiya və İnkişaf İnstitutu, habelə elmi-pedaqoji və müvafiq şöbələrin inzibati heyət üzvləri səfərbər edilir.<br>Universitet son illər ərzində müxtəlif ölkələrdən qonaqların, siyasi liderlərin, nüfuzlu beynəlxalq təşkilat və universitetlərin nümayəndələrin iştirakı ilə bir sıra beynəlxalq konfrans, tədbir, görüş və təlimləri keçirmişdir. Bunun üçün bütün müvafiq infrastruktur mövcuddur. Belə ki, xarici qonaqların qarşılanması və yerləşdirilməsi, tədbirlərin keçirilməsi üçün müvafiq audio-video avadanlıqları ilə tam təchiz edilmiş akt zalları, mühazirə və konfrans otaqları vardır.<br>Əcnəbi tələbələrin yerləşdirilməsi üçün isə Universitet müvafiq şirkətlər ilə müqavilə imzalayaraq tələbələrə Təbriz Evləri yaşayış kompleksində, həmçinin Univerium Dormitory yataqxanasında mənzillər təklif edir. Hal-hazırkı dövr üçün bu mənzillər mövcüd tələbi qarşılayır.<br>Beynəlmiləlləşmə siyasətinin icrası üçün tələb olunan resursların izlənilməsi müvafiq bölmə struktur daxilində aparılır. Belə ki, hər ilin sonunda Qlobal Təbliğat və Tərəfdaşlıq şöbəsi tərəfindən mübadilə proqramında iştirak edən şəxslərin statistikasını, tərəfdaşlıq edilən universitetlərin siyahısını, yeni mümkün tərəfdaşlıqları nəzərdən keçirirlər. |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

## 7.4. *Beynəlmiləlləşmə performansı*

Beynəlmiləlləşmə prosesi nəticələrinin izlənilməsi məqsədilə bir sıra işlər görülür. Məsələn Qlobal Təbliğat və Tərəfdaşlar şöbəsi hər semestrin sonunda cari mübadilə sayının hesabatını və təhlilini aparır. Daha sonra tərəfdaş universitetlərə növbəti il üçün mübadilə proqramı vasitəsilə qəbul edə biləcəkləri tələbə sayı, müvafiq proqramlar üzrə fənlərin siyahısı, təqaüd imkanları kimi istiqamətlər üzrə məlumat toplamaq məqsədilə sorğular keçirilir. Xüsusi diqqət ERASMUS+ təqaüd proqramı çərçivəsində təklif edilən mübadilə proqramlarının artırılmasına yönəlir. Bunun üçün tərəfdaş universitetlər ilə keçirilən sorğu çərçivəsində həmçinin ERASMUS+ təqaüd üzrə ayrılan yerlərin sayı öyrənilir.

Bunlardan başqa, yeni potensial tərəfdaşlar ilə əlaqələr qurulur ki, mübadilə proqramı çərçivəsində, xüsusilə ERASMUS+ təqaüdü üzrə tələbələrə təklif edilən imkanlar artırılsın. Bunun üçün Qlobal Təbliğat və Tərəfdaşlar şöbəsi tərəfindən potensial tərəfdaşlıq üçün olan universitetlər araşdırılır. Müxtəlif ölkələr üzrə tanınmış universitetlərin müvafiq proqramların "ADA" Universiteti kurrikulumuna uyğun olması, təqdim edilən fənlərin üzrə kredit sayı, akademik təqvimin "ADA" Universitetindəki akademik təqvim ilə uyğunluğu, tədris dilinin ingilis dili olmağı kimi meyarlar üzrə təhlillər aparılır və əlaqələrin qurulması istiqamətində işlər aparılır.

Həmçinin mövcud mübadilə razılıqları çərçivəsində cari mübadilə sayını artırmaq üçün universitetlər ilə müvafiq danışıqlar aparılır. Bu işlərin nəticəsi olaraq hal-hazırda 44 ölkədən 133 universitet ilə mübadilə tərəfdaşlığı mövcuddur. Belə ki, 2017-2018-ci ildə mübadilə proqramında iştirak edən tələbələrin sayı 97 nəfər idisə, 2023-cü ildə bu rəqəm 941 nəfərə çatdırılmışdır.

Beynəlmiləlləşmə prosesi çərçivəsində vaxtaşırı ehtiyacəsaslı təkmilləşdirmə işləri görülür. Məsələn, Banner elektron platformasının tətbiqindən sonra mübadilə proqramları çərçivəsində tədris ediləcək fənlər inteqrasiya edilib və tələbələrin hər biri həmin fənləri görə, akademik məsləhətçiləri ilə müzakirə edə bilir. Bundan başqa, mübadilə proqramında iştirak edəcək tələbələrin qiymətləndirməsi prosesi də təhlil edilərək müvafiq olaraq dəyişdirilib. Hal-hazırda prosedur onlayn qaydada keçirilir və qiymətləndirmə bir sıra meyarlar üzrə komitə tərəfindən aparılır. Yekun bal ümumi qiymətin 20% təşkil edir.

"ADA" Universitetində yalnız prosedur və işlərin təkmillləşdirilməsi deyil, həmçinin sosial məsuliyyət hissi daim aşılanır və gündəlik işdə tətbiq edilir. Buna kiçik nümunə kimi son illər ərzində tətbiq edilən yenilikləri təqdim etmək olar. Belə ki, əvvəllər mübadilə proqramlarının elan edilməsi zamanı keçirilən yarmarkada bütün universitetlər haqqında və hər bir proqram üzrə qəbul ediləcək tələbə sayı haqqında ətraflı məlumat kağız üzərində

| |
|---|
| təqdim edilirdi. Son illər ərzində isə tələbələrə QR kod təqdim olunur və həmin QR kodu skan etməklə onlar bütün müvafiq məlumatları əldə edirlər. Beləliklə, təbiəti qorumaq məqsədilə hər il yeni kağızların çap olunmasının qarşısı alınır. |

(Qeyd edilən meyarın indikatorlarına uyğun olaraq görülmüş işlərin təhlili müvafiq cədvəldə öz əksini tapmalıdır. Meyarlar üzrə təhlilin 2000 sözü keçməməsi məqsədəuyğundur)

**5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri**

| İstiqamətlər və meyarlar | Yekun Bal | Uyğun deyildir | Qismən uyğundur | Əsasən uyğundur | Uyğundur |
|---|---|---|---|---|---|
| **1. Strateji inkişaf** | | | | | |
| 1.1 Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri | 36 | | | Əsasən uyğundur | |
| 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi | 10 | | Qismən uyğundur | | |
| **İstiqamət üzrə yekun bal** | **46** | | | **Əsasən uyğundur** | |
| **2. Keyfiyyət təminatı** | | | | | |
| 2.1 Keyfiyyət təminatı siyasəti | 12 | | | | Uyğundur |
| 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri | 33 | | | | Uyğundur |
| 2.3 Keyfiyyət təminatı mədəniyyəti | 11 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | **56** | | | | **Uyğundur** |
| **3.Təlim və tədris** | | | | | |
| 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması | 12 | | | | Uyğundur |
| 3.2 Təhsil proqramları | 30 | | | | Uyğundur |
| 3.3 Tədrisin təşkili | 66 | | | | Uyğundur |
| 3.4 Tədris metodları və üsulları | 24 | | | | Uyğundur |
| 3.5 Təlim və tədris resursları | 51 | | | | Uyğundur |
| 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | 36 | | | | Uyğundur |
| 3.7 Professor-müəllim heyəti | 36 | | | | Uyğundur |
| 3.8 Tələbəyönümlü tədris | 36 | | | | Uyğundur |
| 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi | 13 | | | Əsasən uyğundur | |
| 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | 15 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | **319** | | | | **Uyğundur** |
| **4. Elmi tədqiqat** | | | | | |

| | | | | | |
|---|---|---|---|---|---|
| 4.1 Elmi-tədqiqat strategiyası | 20 | | | Əsasən uyğundur | |
| 4.2 Tədqiqat resursları | 21 | | | | Uyğundur |
| 4.3 Elmi-tədqiqat fəaliyyəti | 52 | | | Əsasən uyğundur | |
| 4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti | 9 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | **102** | | | **Əsasən uyğundur** | |
| **5. İdarəetmə sistemi** | | | | | |
| 5.1 İdarəetmə orqanları | 21 | | | Əsasən uyğundur | |
| 5.2 İnsan resurslarının idarə edilməsi | 23 | | | Əsasən uyğundur | |
| 5.3 Maliyyə resusrlarının idarə ediləsi | 42 | | | | Uyğundur |
| 5.4 İnformasiya idarəetmə sistemi | 23 | | | | Uyğundur |
| 5.5 İctimaiyyətlə əlaqələr | 18 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | **127** | | | **Əsasən uyğundur** | |
| **6. İnfrastruktur** | | | | | |
| 6.1 Tədris infrastrukturu | 41 | | | | Uyğundur |
| 6.2 Elmi-tədqiqat infrastrukturu | 5 | | | Əsasən uyğundur | |
| **İstiqamət üzrə yekun bal** | 46 | | | | **Uyğundur** |
| **7. Beynəlmiləlləşmə** | | | | | |
| 7.1 Beynəlmiləlləşmə siyasəti | 24 | | | | Uyğundur |
| 7.2 Beynəlmiləlləşmə prosesinin idarə edilməsi və təşkilatı strukturu | 27 | | | Əsasən uyğundur | |
| 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar | 14 | | | | Uyğundur |
| 7.4 Beynəlmiləlləşmə performansı | 6 | | | | Uyğundur |
| **İstiqamət üzrə yekun bal** | **68** | | | | **Uyğundur** |
| **Təhsil müəssisəsi  üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi** | **764** | | | | |

**6. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər**

**Qeyd:** Təşkilat komissiyasının özünütəhlilin nəticəsi olaraq gəldiyi nəticələr və təhsil müəssisəsinə tövsiyələri əks olunur.

Özünütəhlil hesabatının nəticəsi olaraq Universitet 764 bal ilə akkreditasiya prosesindən uğurla keçmiş hesab edilir. Təhsil müəssisəsinə aşağıda göstərilən tövsiyələr verilir:

1. Strateji planın həyata keçirilməsi üçün illik fəaliyyət planının hazırlanması
2. İllik fəaliyyət planının həyata keçirilməsinə nəzarət mexanizminin müəyyən olunması
3. ATM-in strategiyasının növbəti 5 il üçün strateji planın yenilənməsi
4. Tədqiqat fəaliyyəti üzrə strateji planın hazırlanması
5. Elmi-tədqiqat fəaliyyətinin artırılması üzrə tədbirlər planının hazırlanması və nəticələrin mütəmadi təhlili
6. Keyfiyyət Təminatı sənədinin icrasının davam etdirilməsi
7. Əmək bazarındakı mövcud tələbləri nəzərə almaq məqsədilə ixtisaslar üzrə tələbə qəbulu planını tərtib edərkən əmək bazarı nümayəndələrinin iştirakının artırılması
8. Tələbələr arasında keçirilən məmnuniyyət sorğusunun nəticələrinin Dekanlar Şurasında müzakirəsini təmin etmək

**III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər**

| | |
|---|---|
| 1. | Təhsil müəssisəsinin Nizamnaməsi; |
| 2. | Təhsil müəssisəsinin ötən beş və qarşıdan gələn beş il üzrə Strateji İnkişaf Programı; |
| 3. | Təhsil müəssisəsinin tədris ili üzrə iş planı; |
| 4. | Təhsil müəssisəsinin son beş il üzrə maliyyə hesabatı; |
| 5. | Təhsil müəssisəsində təhsil alan təhsilalanların beş il üzrə müvəfəqqiyət göstəriciləri (keyfiyyət göstəriciləri daxil olmaqla); |
| 6. | Son beş tədris ilində təhsilalan, akademik heyət və məzunlar arasında keçirilmiş sorğuların nəticələri; |
| 7. | Son 5 ildə elmi dərəcə və elmi ad almış professor-müəllim heyəti haqqında məlumat; |
| 8. | Elmi-tədiqat fəaliyyətindəki gəlir və xərclər ilə bağlı hesabat; |
| 9. | Məzun olan təhsilalanların məşğulluq göstəriciləri; |
| 10. | Təlim resursları və tələbələrə dəstək xidmətləri; |
| 11. | Təhsil müəssisəsinin maddi-texniki bazası; |
| 12. | Təhsil müəssisəsinin sosial-məişət şəraiti; |
| 13. | Kitabxana fondunun (elektron daxil) vəziyyəti; |
| 14. | Müəssisədə çalışan professor-müəllim heyəti və digər əməkdaşların xarici ölkələrdə təcrübə və mübadilə proqramlarında iştirakı barədə məlumat; |
| 15. | Son 5 ildə müəssisəyə qəbul olunan əcnəbi tələbələr barədə məlumat; |
| 16. | Təhsil müəssisəsi tərəfindən daxili keyfiyyət təminatı siyasətini əks etdirən sənəd; |
| 17. | Təhsil müəssisəsi tərəfindən tərtib edilmiş müəssisənin elmi (pedaqoji) fəaliyyətinin və tədris prosesinin tənzimlənməsinə və təşkilinə dair tədris planları və digər müvafiq sənədlər; |
| 18. | Akkreditasiya olunan proqramlar üzrə tədris planına daxil olan fənlərin, dərsdənkənar məşğələlərin, proqramların, sillabusların (işçi tədris proqramları) və (və ya) modulların təsviri; |
| 19. | Akkreditasiya olunan proqramlar üzrə təhsilalanların sayı və təhsilalanların qəbulu, yerdəyişməsi, köçürülməsi, bərpası və xaric edilməsi haqqında əmrlərin surəti; |

20. Akademik (pedaqoji) heyətin siyahısı, professor müəllim heyətinin şəxsi uçot məlumatları;
21. Tədris planında nəzərdə tutulmuş bütün növ təcrübələr üzrə proqramlar, təcrübənin keçirildiyi müəssisələrlə bağlanılmış müqavilələrin surəti və təcrübənin nəticəsi barədə hesabat;
22. Ümumtəhsil müəssisəsi üzrə buraxılış sinif şagirdlərinin yekun attestasiyasının nəticələri, proqramlar üzrə bütün imtahanların nəticələri, diplom işləri haqqında məlumat və təhsilalanların yekun tezislərinin siyahısı;
23. Əvvəlki akkreditasiya qiymətləndirmə nəticələrinin icmalı və müvafiq Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabat;
24. Birgə təhsil proqramını təklif edən təhsil müəssisələri arasındakı razılaşma (əgər varsa);
25. Başa çatmış hər tədris ili üzrə sentyabr ayının 10-dək TMİS vasitəsilə təqdim olunmuş Akkreditasiya Meyarlarına dair müvafiq məlumatların məcmusu;
26. Akkreditasiyaya görə dövlət rüsumunun ödənilməsini təsdiq edən sənəd.